Xalqın qəzeti!
# Xalq qəzeti
№ 05 (30974) 10 yanvar 2026-cı il, şənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Qarabağ Zəfərini hərtərəfli tərəqqi ilə möhkəmləndirib



**Bu gün bütün ölkə üzrə geniş quruculuq işləri aparılır, hər bir bölgədə inkişaf müşahidə olunur. Bizim valyuta ehtiyatlarımız tarixi rekord həddə çatıb – 80 milyard dollardan artıqdır.**

**Biz "Böyük Qayıdış" Proqramını uğurla icra edirik və işğaldan azad edilmiş ərazilərdə bu gün böyük quruculuq işləri aparılır və artıq 70 minə yaxın insan orada yaşayır, çalışır, təhsil alır.**

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

## D-8 platformasında Azərbaycanın yüksələn strateji rolu



**Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibədə Azərbaycanın D-8 təşkilatına üzvlüyü xüsusi vurğulanır və bu addım ölkənin beynəlxalq sistemdə artan siyasi çəkisinin indikatoru kimi təqdim olunur. Dövlət başçısının yanaşması göstərir ki, Azərbaycan özünü müsəlman dünyasının siyasi-iqtisadi arxitekturasında funksional və normativ aktor kimi təsdiqləyir.**

*(ardı 3-cü səhifədə)*

## Gündoğar ölkədən Odlar yurduna uzanan yol



Səhifə ⇨ 4

## "Mercosur" layihəsi Avropanı hara aparır?



Səhifə ⇨ 5

## Naxçıvan–Şərqi Zəngəzur–Qarabağ: tam suverenliyin təntənəsi

*Azərbaycanın bərpa etdiyi tarixi ədalət qlobal maraqlara xidmət edir*



**Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində regional kommunikasiyaların açılması xüsusunda Zəngəzur dəhlizi və Araz dəhlizi barədə söz açmış, layihələrin önəminə toxunmuş, ən başlıcası isə, ölkəmizin yekun strateji məqsədini vurğulamışdı: "Beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında iki bağlantı olacaq – biri Ermənistan üzərindən, biri isə İran üzərindən. Biz faktiki olaraq Naxçıvanı, Şərqi Zəngəzuru və Qarabağı bir bölgə kimi birləşdirəcəyik".**

Prezident İlham Əliyev yerli telekanallara ötən il yanvarın 7-dəki müsahibəsində də eyni məqamı qabartmışdı: "Həm Qarabağ, həm Şərqi Zəngəzur və eyni zamanda, ona o qədər də uzaq olmayan Naxçıvan Muxtar Respublikası iqtisadi, sosial, "yaşıl enerji" və təhlükəsizlik nöqteyi-nəzərdən vahid bir böyük məkana çevrilməlidir, halbuki bu, bizim bölgüyə görə üç regiondur. Amma, eyni zamanda, bir-birinə tarixən bağlı olan bu bölgələr hazırda vahid konsepsiya əsasında inkişaf edir".

*(ardı 3-cü səhifədə)*

## Regional enerji bazarı və yeni dövrə keçid

*Azərbaycandan Ermənistana neft məhsulları satışının hədəfi sülhdür*

**"Ermənistan Azərbaycandan ümumi həcmi 7 min 600 ton olan neft məhsullarının idxalını gözləyir". Bunu Ermənistanın iqtisadiyyat naziri Gevork Papoyan bildirib. Onun sözlərinə görə Azərbaycan ərazisindən dəmir yolu vasitəsilə Ermənistana 8 min 485 ton Rusiya taxılı çatıb, 4 min 103 ton yoldadır. Həmçinin 7 min 600 ton Azərbaycan neft məhsulları var ki, bunun 6 min 100 tonu benzin, 1 min 500 tonu dizel yanacağıdır. Artıq Ermənistanın idxal etdiyi benzinin birinci partiyası (1 min 220 ton Aİ-95) bir neçə gün ərzində satılıb. Bu günlərdə Ermənistana bir neçə min ton həcmində yeni benzin və dizel partiyası daxil olacaq.**

Bu addım təkcə kommersiya xarakterli enerji tədarükü kimi yox, eyni zamanda, iki ölkə arasında münasibətlərin mərhələli şəkildə normallaşması istiqamətində atılan real və praktik addımdır. 30 il ərzində iqtisadi əlaqə olmayan tərəflər arasında ilk dəfə bu miqyasda ticarət əməliyyatının həyata keçirilməsi region üçün yeni reallıqlar formalaşdırır.

*(ardı 4-cü səhifədə)*




## İrəvan–Tehran dialoqu: qapalı görüşlər, cavabsız suallar…

**Yanvarın 8-də İrəvanda Ermənistan və İran xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib. Bu barədə Ermənistan XİN-in mətbuat xidməti məlumat yayıb. Məlumata görə, danışıqlar zamanı Ermənistan nümayəndə heyətinə xarici işlər naziri Ararat Mirzoyan, İran nümayəndə heyətinə isə xarici işlər nazirinin müavini Məcid Taxt Rəvançı başçılıq edib.**

*(ardı 4-cü səhifədə)*



## Sərnişindaşımada "ağıllı" idarəetmə niyə susub?



Səhifə ⇨ 15

# A.C.İsgəndərovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Anar Camal oğlu İsgəndərov “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 yanvar 2026-cı il**

# Xarici ölkə ilə məxfi əməkdaşlığa cəlb edilmiş şəxs ifşa olunub

**Xarici xüsusi xidmət orqanlarının Azərbaycan Respublikasının milli təhlükəsizliyinə yönələn kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkar edilərək qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən davam etdirilən əməliyyat-istintaq tədbirləri zamanı Azərbaycan Respublikasının vətəndaşı, 1969-cu il təvəllüdlü Fərzəliyev Siyafət Heydər oğlunun dövlətə xəyanət etməsinə əsaslı şübhələr yaranmışdır.**

Bu barədə XQ-yə DTX-nin mətbuat xidmətindən məlumat verilib.

Araşdırmalarla müəyyən edilib ki, Naxçıvan Muxtar Respublikasının sakini Siyafət Fərzəliyev xarici ölkə ərazisində olarkən həmin dövlətin xüsusi xidmət orqanının nümayəndələri tərəfindən maddi maraq müqabilində məxfi əməkdaşlığa cəlb edilib, ölkəyə qayıtdıqdan sonra onların tapşırığı əsasında Naxçıvan şəhəri və Şahbuz rayonu ərazilərində yerləşən hərbi və digər strateji əhəmiyyətli obyektlərin videoçəkilişlərini apararaq xarici xüsusi xidmət orqanının nümayəndələrinə təqdim edib.



Həmçinin qeyd olunan şəxsin yaşadığı mənzilə baxış keçirilərkən oradan “Kalaşnikov” tipli avtomat silahının ayrı-ayrı hissələri aşkarlanaraq götürülüb.

Siyafət Fərzəliyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1-ci (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) və 274-cü (dövlətə xəyanət) maddələri ilə məsuliyyətə cəlb olunaraq, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Ədliyyə naziri Salyanda qəbul keçirib



**Yanvarın 9-da ədliyyə naziri Fərid Əhmədov Salyan şəhərində vətəndaşların müraciətlərini dinləyib.**

Şirvan, Salyan, Hacıqabul, Sabirabad, Neftçala və Biləsuvar rayonlarından ümumilikdə 74 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciəti dinlənilib.

Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

***XQ***

# Rəqəmsal inkişaf və nəqliyyat naziri Şabranda sakinlərlə görüşüb



**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Şabran şəhərində Xızı, Siyəzən və Şabran rayonlarının sakinlərini qəbul edib.**

Müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşların müraciətlərində göstərilən problemlərin bir qismi dərhal müsbət həllini tapıb. Nazirliyin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

***XQ***

# Ölkənin dini konfessiya rəhbərləri Prezident İlham Əliyevə təşəkkür ediblər

**Dini konfessiya rəhbərləri Prezident İlham Əliyevə təşəkkür məktubları ünvanlayıblar.**



Məktublarda Prezident İlham Əliyevin imzaladığı “Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında” 2026-cı il 7 yanvar tarixli Sərəncam ölkəmizdə dövlət-din münasibətlərinin ardıcıl şəkildə inkişaf etdirilməsinin növbəti təzahürü kimi qiymətləndirilir. Sərəncama əsasən, dini qurumlara maliyyə yardımı göstərmək üçün Prezidentin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3,5 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 400 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 400 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 400 min manat, Sefarad yəhudilərinin Bakı dini icmasına 400 min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 400 min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 400 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 400 min manat ayrılıb.

Sərəncamın Azərbaycan cəmiyyətində birlik, həmrəylik və sosial sabitliyin qorunması baxımından mühüm ictimai əhəmiyyət daşıdığını vurğulayan qeyri-islam dini icmalarının rəhbərləri Prezident İlham Əliyevin ünvanına təşəkkür məktubları göndərərək dini sahəyə göstərilən davamlı diqqətə, maddi və mənəvi dəstəyə görə minnətdarlıqlarını ifadə ediblər.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu Aleksiy Smirnov dövlət başçısının dəstəyi sayəsində qurum tərəfindən həyata keçirilən layihələrin önəminə toxunaraq dövlətin dini mənsubiyyətindən asılı olmayaraq tarixi dini abidələrin qorunmasına göstərdiyi diqqəti vurğulayıb.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev mədəni-dini irsimizə göstərilən davamlı diqqət və qayğıya görə minnətdarlığını ifadə edib, dünyadakı islamofobiya, ksenofobiya, antisemitizm hallarının artdığı bir dövrdə Azərbaycanın nəinki öz torpağında, həmçinin ölkə xaricində müxtəlif dinlərə aid abidələri diqqətdə saxlamasının təqdirəlayiq hal olduğunu bildirib.

Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski öz məktubunda yəhudi icmasının ölkəmizdə təhlükəsiz, sabit və tolerant mühitdə yaşadığını, dövlətin göstərdiyi qayğının yalnız milli deyil, beynəlxalq səviyyədə də yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasının sədri Robert Mobili müasir Azərbaycanın təkcə iqtisadi inkişafına və ictimai-siyasi sabitliyinə görə deyil, həm də dini durumun və tolerantlığın səviyyəsi, eləcə də xalqın milli-mənəvi dəyərlərinə yüksək münasibət baxımından regionun lider dövləti olduğunu yazıb.

Məktubunda multikulturalizmin Azərbaycan cəmiyyətinin həyat tərzi olduğunu bildirən Sefarad yəhudilərinin Bakı dini icmasının sədri Zamir İsayev dini və etnik müxtəlifliyin ölkəmizdə ayırıcı xətt deyil, əksinə, birlik və həmrəyliyi gücləndirən mühüm amil kimi qəbul olunduğunu vurğulayıb. Qeyd edib ki, dövlətin dini icmalara göstərdiyi davamlı diqqət bu müxtəlifliyin böyük və dəyərli sərvət kimi qiymətləndirildiyini bir daha təsdiqləyir.

Azərbaycan Bibliya Cəmiyyəti xristian dini icmasının sədri Rasim Xəlilov qeyd edib ki, dini icmalara dövlət səviyyəsində göstərilən bu diqqət rəhbərlik etdiyi icmanın inkişafına təkan verməklə yanaşı, vətəndaşların mənəvi dünyasına ali qayğının bariz nümunələrindəndir.

İsmayıllı rayonu İvanovka kəndi, Sumqayıt şəhər və Qobustan rayonu Hilmilli kəndi “Molokan-ruhani-xristian” dini icmaları, “Vineyard Azərbaycan”, “Şərqdə Ulduz”, “Həyat sözü”, Sumqayıt şəhəri “Həyat sözü-2” Xristian dini icmaları, Bakı şəhəri və Sumqayıt şəhəri Alov-Xristian dini icmaları tərəfindən dövlət başçısına ünvanlanan məktublarda dövlətin dini konfessiyaların fəaliyyətinə göstərdiyi dəstək yüksək qiymətləndirilib. Eyni zamanda, “Yeddinci Günün Adventistləri”, “Gəncə şəhəri Yeddinci Günün Adventistləri”, “Bakı şəhəri Yeni Apostol” xristian, Yevangelik xristian baptistlərin kilsəsi, Krişna Şüuru, Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin “Aqape”, “Yeni Həyat” Xristian incil, Xilaskar Yevangelik Lüteranların Bakı dini icmaları və Azərbaycan Bəhailəri dini mərkəzi bu yanaşmanın cəmiyyətdə qarşılıqlı anlayış və tolerantlıq mühitini daha da möhkəmləndirdiyini qeyd ediblər.

***XQ***

# Baş prokurorun Pirallahıda vətəndaş qəbulu

**Yanvarın 9-da Baş prokuror Kamran Əliyev Bakı şəhəri Pirallahı Rayon Prokurorluğunun inzibati binasında Pirallahı, Xəzər rayonları və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**



Qəbulda iştirak edən 15 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***XQ***

# Ucarda Heydər Əliyev Fondunun inşa etdirdiyi yeni məktəb

**Ucar şəhər 2 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilib.**



Qeyd edək ki, təhsil müəssisəsinin 1958–1960-cı illərdə inşa olunan binası ötən müddət ərzində köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Bu səbəbdən Heydər Əliyev Fondunun təşəbbüsü ilə 720 şagirdlik yeni məktəb binasının inşasına başlanılıb.

Tikintisi 2025-ci ilin dekabrında başa çatan üçmərtəbəli məktəb 5 korpusdan ibarətdir. Təhsil ocağının fənn kabinetləri və laboratoriyaları zəruri mebel və avadanlıqla, əyani vasitələrlə təchiz edilib.

Şagird və müəllimlərin istifadəsinə verilən sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, kompüter, hərbi hazırlıq, tibb, əmək təlimi otaqları, kitabxana, bufet və yeməkxana, akt və idman zalları, açıq idman meydançası tədrisin yüksək səviyyədə həyata keçirilməsini təmin edəcək.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

***XQ***





# Naxçıvan–Şərqi Zəngəzur–Qarabağ: tam suverenliyin təntənəsi



(əvvəli 1-ci səhifədə)

Bundan başqa, Prezident İlham Əliyev ötən il yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olumuş müşavirədə keçmiş sovet hakimiyyətinin Qərbi Zəngəzuru 1920-ci ilin noyabrında Azərbaycandan aldığını demiş, durumu xalqımıza qarşı cinayət kimi qiymətləndirmişdi. Dövlətimizin başçısı, həmçinin, bunun birinci və sonuncu hal olmadığını, respublikamızın ərazisində "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin yaradıldığını, əvvəlki dövrdə çar Rusiyası tərəfindən ermənilərin Azərbaycan ərazilərinə köçürüldüklərini, daha əvvəl isə öz rəhbərliyini davam etdirəcəyinə zəmanət verilmiş Qarabağ xanının öldürülməsini də cinayət prizmasından dəyərləndirmişdi. Ölkəmizin liderinin mövcud xüsusda vurğuladığı başlıca məqam isə bu idi: "Biz Zəngəzuru unutmamışıq və unutmayacağıq".

Bəli, Azərbaycan dövləti hələ işğal illərində də Qərbi Azərbaycan və Zəngəzur mövzusunu daim gündəmdə saxlamış, məsələnin tarixi, hüquqi və siyasi mahiyyətini ardıcıl şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdı. Şanlı Zəfərimiz nəticəsində işğal başa çatdıqdan sonra isə yanaşmamız daha fundamental forma və məzmun daşımışdı. Çünki ortada qlobal fayda var və ölkəmiz mühüm regional aktor obrazındadır.

Prezident İlham Əliyev 2021-ci il martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qeyri-formal Zirvə görüşündəki çıxışında Zəngəzurun Türk dünyasının bədəninə saplanmış "xəncər" olduğunu demiş, bu tarixi ədalətsizliyin artıq aradan qaldırılması naminə fəaliyyətin başlandığını vurğulamışdı. Ən başlıcası isə, dövlətimizin başçısı Zəngəzurdan keçən nəqliyyat və kommunikasiya xətlərinin gələcəkdə bütün Türk dünyasını birləşdirəcək strateji rol oynayacağını bəyan etmişdi.

Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə səsləndirdiyi fikirlər də gündəmə gətirdiyimiz mövzu baxımından müstəsna əhəmiyyət daşımaqdadır. Ölkəmizin lideri həmin görüşdə bildirmişdi ki, 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə Azərbaycanın digər tarixi torpağı olan Zəngəzur ölkəmizdən qoparılaraq Ermənistana birləşdirilib. Bu addım xalqımıza qarşı növbəti cinayət olmaqla yanaşı, bizi Naxçıvandan və Türkiyədən ayırmaq, Türk dünyasının coğrafi bütövlüyünü pozmaq kimi geosiyasi məqsəddən qaynaqlanırdı.

***

Bəli, tarixi faktlar da Naxçıvanın, Şərqi Zəngəzurun və Qarabağın vahid məkan olmasından xəbər verir. Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri Nəsib bəy Yusifbəyli 1919-cu il dekabrın 22-də parlamentdəki çıxışında Zəngəzurun Qarabağın ayrılmaz hissəsi olduğu açıq şəkildə ifadə etmişdi. O, müxtəlif intriqalarla Zəngəzurun Qarabağdan kənarda göstərilməsinə cəhdlərin əsassız olduğunu, bu mahalın yüzilliklər boyu Qarabağın ruhunu təşkil etdiyini diqqətə çatdırmışdı. Çünki Yusifbəyli erməni millətçilərinin iddialarının bitmədiyini, İrəvandan sonra növbəti hədəfin Zəngəzur olduğunu gözəl bilirdi...

Məlumdur ki, Antanta dövlətlərinin təzyiqlərinə baxmayaraq, AXC hökuməti Zəngəzurun və Naxçıvanın əldən çıxmasına yol verməmək üçün ciddi addımlar atmışdı. Bu baxımdan 1919-cu il yanvarın 25-də Qarabağ general-qubernatorluğunun yaradılması, Xosrov bəy Sultanovun rəhbərliyi altında həyata keçirilən hərbi-siyasi tədbirlər bölgədə Azərbaycanın suverenliyini möhkəmləndirmişdi. Lakin ABŞ polkovniki Ceyms Reyin vasitəçiliyi ilə əldə edilən "sülh sazişi" nəticəsində ordumuzun Zəngəzurdan çıxmasından dərhal sonra ermənilər bölgəni işğal etmiş və genişmiqyaslı etnik təmizləmə həyata keçirmişdilər.

1920-ci ilin sovet işğalından sonraya diqqət yetirsək, Zəngəzurun taleyinin bolşevik Rusiyasının siyasi sövdələşmələrinin predmetinə çevrildiyini görə bilərik. Ermənistanın sovetləşməsi müqabilində Zəngəzur haylara "hədiyyə" edildi. 1921-ci ilin iyununda bölgənin Ermənistan SSR-in tərkibinə daxil edilməsi bunu rəsmiləşdirdi və beləliklə, tarixi ədalətsizlik baş verdi. Prosesdə azərbaycanlıların iradəsi və hüquqları qətiyyən nəzərə alınmadı. İş o yerə çatdı ki, həmin dövrdə Qərb mətbuatı da məsələdən yazdı, Avropa nəşrlərində Sovet Rusiyasının Zəngəzuru Ermənistana güzəştə getməsi açıq şəkildə etiraf edildi.

Bütün bu olanların fonunda tam əminliklə deyə bilərik ki, XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğal siyasəti, əslində, iki əsrlik planın davamı idi. Lakin 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfərimiz bu planı iflasa uğratdı. Azərbaycan öz haqqını bərpa etdi və regionda yeni reallıq yaratdı. Ölkəmizin Naxçıvana maneəsiz və sərbəst yol tələbi də bu reallığın doğurduğu ədalət mənzərəsidir. Söhbət "Azərbaycandan Azərbaycana yol" məntiqindən gedir. Prezident İlham Əliyevin qətiyyətli mövqeyi nəticəsində Zəngəzur dəhlizi Qarabağın iqtisadi bütövlüyünü möhkəmləndirən, regionda əməkdaşlıq imkanlarını genişləndirən layihə kimi bütün dünyada qəbul edilməkdədir.

***

Sonda ümumiləşdirmə apararaq deyək ki, proseslər tarixi ədalətin bərpasına doğru gedir. Prezident İlham Əliyevin müsahibəsində bildirdiyi də elə budur və məsələnin həm siyasi, həm də mənəvi tərəfi var. Dövlətimizin başçısının "Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında iki bağlantı olacaq" ifadəsi, ilk növbədə, alternativsizliyin aradan qaldırılması anlamına gəlir. Bu yanaşma Azərbaycanın Naxçıvanla əlaqəsinin bir ölkənin iradəsindən asılı olmadığını, siyasi təzyiq və ya blokada riskinin artıq neytrallaşdırıldığını, kommunikasiya məsələsinin suverenlik səviyyəsinə qaldırıldığını göstərir. Hazırda Ermənistanla bağlı durum tam aydındır. Ermənistan baş nazir Nikol Paşinyanın ötən il avqustun 8-də Vaşinqtonda imza atdığı Birgə Bəyannamə ilə üzərinə konkret öhdəlik götürüb. Bu öhdəlik həm də təcriddən xilasolma, sistemli mənfəət yoludur. İran üzərindən bağlantının xüsusi vurğulanması isə Azərbaycanın çoxvektorlu xarici siyasətinin göstəricisidir. Özlüyündə bu xətt Ermənistanın mümkün manevrlərini neytrallaşdırmaqla yanaşı, regionda heç bir ölkənin, belə demək mümkünsə, monopolist mövqe əldə etməsinə imkan vermir, Bakı–Tehran əməkdaşlığını praktik müstəviyə daşıyır, münasibətləri real infrastrukturla möhkəmləndirir.

Digər tərəfdən, Prezident İlham Əliyevin "Naxçıvanı, Şərqi Zəngəzuru və Qarabağı bir bölgə kimi birləşdirəcəyik" mesajı ideoloji və konseptual məna yüklüdür. Burada söhbət təkcə yolların çəkilməsindən getmir. Dövlətimizin başçısı vaxtilə Ermənistanın və erməni amilinin vasitəsilə parçalanmış coğrafiyanın birləşməsinin qaçılmazlığı anonsunu verir. Yəni XX əsrdə zorla qırılmış coğrafi ardıcıllıq XXI əsrdə siyasi iradə və qlobal iqtisadi layihələrlə bərpa olunur. Deməli, münaqişə ritorikasından fərqli olaraq, tarixi məsələ gələcəyin qlobal iqtisadi infrastrukturuna çevrilir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

*Prezidentin mesajı*

# Xalqımızın sabahı təhsil və elmdə formalaşır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibə verdi. Bu, sadəcə, müsahibə deyildi. Təhsil və elmlə bağlı səsləndirilmiş fikirlər, mübaliğəsiz olaraq, uğur təmin edən fəaliyyət planıdır. Bu planın məğzi isə ondan ibarətdir ki, güclü Azərbaycan güclü təhsil və elmlə qurulur. Prezident İlham Əliyevin bu müsahibədə səsləndirdiyi çağırışları, tövsiyələri əsasında Azərbaycanın uğurlu gələcəyini təmin edə biləcək təhsil və elmin əsas elementlərini müəyyən etməyə çalışdıq.**



Birincisi, Prezident İlham Əliyev növbəti dəfə Azərbaycan dilinə böyük diqqət ayırdı. Bundan əvvəl, AMEA-nın 80 illiyinə həsr edilmiş tədbirdə çıxışında da Prezident İlham Əliyev Azərbaycan dilinin qorunmasının əhəmiyyətinə geniş yer vermişdi: "Biz Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir. Mənim göstərişimlə artıq onlayn məktəblər açılır və onların sayı da çoxalmalıdır, əhatə dairəsi çoxalmalıdır. Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər. Mən çox istəyirəm ki, bütün azərbaycanlılar Azərbaycan dilində, bax, bizim kimi danışsınlar. Bu, mənim arzumdur".

Fikrimizcə, Prezident İlham Əliyevin Azərbaycan dili ilə bağlı söylədikləri məhz Azərbaycan dilində təhsilə diqqəti artırmağı tələb edir. Bu baxımdan Azərbaycan dilində təhsil milli kimliyin, intellektual suverenliyin və dayanıqlı inkişafın əsas dayaqlarından biri kimi səciyyələndirilir. Bu məsələ təkcə dil seçimi deyil, dövlətçilik və strateji inkişaf məsələsidir. Azərbaycan dilində təhsil həm də sosial mənşəyindən asılı olmayaraq, hamı üçün təhsil imkanlarını bərabərləşdirən ciddi amil, milli elmin təməli kimi qəbul edilir. Eləcə də onlayn təhsili önə çəkməklə Prezident İlham Əliyev təhsildə yeni texnologiyaların əhəmiyyətini və onun tətbiqinin zəruriliyini, vacibliyini xüsusi vurğulayır.

İkincisi, dəyərləri hər zaman bilikdən önə çəkən ölkə başçısı bu dəfə də bu yanaşmanın dəyişməzliyini təsdiqlədi və bir daha dəyərləri həlledici amil kimi qeyd etdi: "Struktur islahatlarının aparılması, təbii ki, vacibdir. Amma saf, təmiz kadrların yetişdirilməsi ondan daha vacib məsələdir və mənim təcrübəm onu göstərir ki, bu, daha vacib məsələdir, nəinki struktur dəyişiklikləri". Dəyərlərin formalaşdırılması təhsildən daha çox mədəniyyətin missiyasıdır. Bu isə o deməkdir ki, təhsilin "saf, təmiz kadrlar" yetişdirməsi üçün mədəniyyətin təhsilə inteqrasiyası üçün yeni yanaşmalar tələb olunur.

Üçüncüsü, müsahibədə təhsil və elm sosial-iqtisadi inkişafın əsas amili kimi xarakterizə edilmiş, cəmiyyətin bütün inkişaf mexanizmlərini hərəkətə gətirən strateji kapital kimi dəyərləndirilmişdir. Bəli, təbii sərvətlər tükənəndir, amma keyfiyyətli təhsil və onun nəticəsi olan insan kapitalı tükənməyən sərvətdir. "Əgər biz doğrudan da elmi inkisaf etdirmək istəyiriksə, sadəcə, elmi işçiləri işlə təmin etmək yox, elmi inkişaf etdirmək istəyiriksə, bu islahatlara getməliyik. Bu, qaçılmazdır. Biz bunu etməsək, onda inkişafın da müəyyən məhdudiyyətləri olacaq. Çünki mən bunu dəfələrlə demişəm, bir daha deyirəm tam şüurlu şəkildə, inkişaf etmiş ölkələrin inkişafı ancaq zəka, ağıl, təhsil, elmlə bağlıdır, neftlə, qazla yox". Ona görə də bu istiqamətdə işlərin fəallaşdırılması vəzifə kimi müəyyən edilir. Başqa sözlə, ölkəmizin inkişafına təhsilin, elmin təsirini, töhfəsini artırmaq üçün ciddi addımların vaxtıdır.

Dördüncüsü, Azərbaycan Milli Elmlər Akademiyasında aparılan islahatlardan danışan Prezident bir daha təhsil və elmin vəhdətinin strateji zərurət olduğuna diqqət çəkir. "Bilirsiniz ki, biz artıq struktur dəyişiklikləri də etdik, Elm və Təhsil Nazirliyi yaradıldı. Nə üçün? Çünki faktiki olaraq, elm dövlət strukturlarından kənarda qalmışdı. Amma, eyni zamanda, dövlət siyasətini daha dolğun səkildə həyata keçirmək üçün elm və təhsil bir yerdə olmalıdır".

Prezident İlham Əliyev elmlə təhsilin vəhdətinin əhəmiyyəti ilə bərabər, həm də elmin inkişaf göstəricilərinə də diqqət çəkir: "Sənin elmi əsərlərin hansı elmi jurnallarda, hansı dərgilərdə nə qədər çap olunub və sənin elmi potensialın bugünkü reallıqlara nə dərəcədə uyğundur". Burada diqqətçəkən digər məqam isə tədqiqatların milli, yerli problemlərin həllinə yönəlməsinin və praktikliyinin vacibliyidir. Yəni praktiki tədqiqatlar elmi biliklərin milli inkişafa çevrildiyi əsas körpüdür. Eləcə də elm və təhsildə struktur islahatlarının qaçılmazlığı Prezident İlham Əliyevin çıxışından irəli gələn vacib vəzifələrdən biridir. Bütövlükdə, gəlinən nəticə odur ki, təhsil elmi canlı, yenilənən və dərin məzmunlu edir, elm isə təhsili etik dəyərlərlə, intellektual dürüstlüklə zənginləşdirir.

Beləliklə, "Bütün bu amillər bir məqsəd güdür ki, cəmiyyət savadlı və bilikli olsun. Ancaq o halda biz uzunmüddətli inkişafa nail ola bilərik. Yox, olmazsa, neftimiz, qazımız qurtarandan sonra biz çox ağır vəziyyətə düşə bilərik. Amma indi biz xalqımızın, dövlətimizin gələcəyini onilliklər, yüzilliklər bundan sonra görməyə çalısmalıyıq".

***Ədalət MURADOV,***
***UNEC-in rektoru, professor***

# D-8 platformasında Azərbaycanın yüksələn strateji rolu



(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, D-8 təşkilatı təxminən otuz ilə yaxındır fəaliyyət göstərir və bu müddət ərzində heç bir yeni üzv qəbul etməyib. Diplomatik baxımdan bu faktın özü təşkilatın qapalı və institusional baxımdan stabilləşmiş struktur olduğunu göstərir. D-8 formatı 1997-ci ildə Türkiyənin təşəbbüsü ilə İstanbulda təsis edilib. Təşkilatın əsas məqsədi üzv ölkələr arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi, ticarət həcminin artırılması, texnoloji mübadilə və kollektiv inkişaf potensialının gücləndirilməsidir. İlkin üzvlər Türkiyə, Pakistan, İran, İndoneziya, Malayziya, Misir, Banqladeş və Nigeriya olub. Səkkiz ölkə həm demoqrafik miqyasına, həm də regional təsir imkanlarına görə İslam dünyasının aparıcı siyasi və iqtisadi mərkəzlərini təmsil edir.

D-8, eyni zamanda, siyasi koordinasiya və normativ yaxınlaşma üçün mühüm dialoq mühitidir. Üzv ölkələrin coğrafi baxımdan müxtəlif regionları – Yaxın Şərq, Cənub–Şərqi Asiya, Cənubi Asiya və Afrika – əhatə etməsi təşkilatı transregional xarakterli institusional platformaya çevirir.

Otuz ilə yaxın müddətdə təşkilatın üzvlük strukturunun dəyişməməsi onun institusional konservatizmini və daxili tarazlığın qorunmasına verdiyi önəmi göstərir. Beynəlxalq təşkilatların böyük hissəsi zamanla genişlənmə tendensiyası göstərsə də, D-8 kimi məhdud üzvlü formatlar daxili qərar qəbuletmə balansını, siyasi harmoniya səviyyəsini və strateji konsensus mexanizmini qorumağa üstünlük verirlər.

Prezident İlham Əliyevin vurğuladığı kimi, "Azərbaycanı dəvət etmək və bizi seçmək, əlbəttə ki, böyük uğur sayıla bilər". Bu hadisə "institusional selektivlik" mexanizminin klassik nümunəsi kimi qiymətləndirilə bilər. Qapalı və stabilləşmiş beynəlxalq təşkilatlar yeni üzvlərə münasibətdə yüksək selektivlik nümayiş etdirir və yalnız müəyyən davranış standartlarına cavab verən aktorları qəbul edirlər. Burada əsas meyarlar siyasi proqnozlaşdırıla bilənlik, normativ öhdəliklərə sadiqlik, regional sabitliyə töhfə potensialı və çoxtərəfli əməkdaşlıq mədəniyyətidir. Azərbaycanın bu meyarlara uyğunluq nümayiş etdirməsi onun artıq daha geniş geosiyasi konfiqurasiyada etibarlı tərəfdaş kimi qəbul edildiyini göstərir. Digər tərəfdən, D-8 kimi funksional əməkdaşlığa əsaslanan platformaya daxil olmaq Azərbaycanın xarici siyasətinin praqmatik xarakterini təsdiqləyir. Bakı öz beynəlxalq mövqeyini real iqtisadi layihələr, tranzit infrastrukturu, enerji təhlükəsizliyi təşəbbüsləri və regional sabitlik mexanizmləri üzərində qurur.

D-8 təşkilatının demoqrafik və iqtisadi miqyası bu üzvlüyün strateji dəyərini daha da artırır. Bir milyarddan artıq əhalini və dörd trilyon ABŞ dollarından artıq ümumi iqtisadi potensialı birləşdirən platformada Azərbaycanın yer alması klassik güc ölçülərinə əsaslanan nüfuz modelindən fərqli, funksional və institusional təsir mexanizmlərinin önə çıxdığını göstərir. Prezidentin vurğuladığı kimi, Azərbaycan nə əhali miqyasına, nə də iqtisadi həcm baxımından bu kluba daxil olan böyük dövlətlərlə müqayisə edilə bilər. Lakin müasir beynəlxalq münasibətlər nəzəriyyəsində güc artıq yalnız resursların kəmiyyət ölçüsü ilə deyil, həmin resursların təşkil edilməsi, şəbəkələşdirilməsi və institusional platformalarda siyasi kapitala çevrilməsi ilə müəyyən olunur.

Məhz bu baxımdan, Azərbaycanın D-8-ə daxil olması "postmaterial güc" və "şəbəkə təsiri" anlayışlarının real təzahürü kimi qiymətləndirilə bilər. Dövlətin tranzit-logistika imkanları, enerji təhlükəsizliyində oynadığı körpü rolu, regional kommunikasiyaların açılmasında təşəbbüskar mövqeyi və balanslaşdırılmış diplomatik davranış modeli onun sərt güc resursları məhdud olsa belə, sistem daxilində təsir imkanlarını artırmasına şərait yaradır.

Deməli, D-8 üzvlüyü Azərbaycanın "orta güc diplomatiyası" modelinə uyğun fəaliyyətinin institusional təsdiqi kimi çıxış edir. Orta güclər beynəlxalq sistemdə hegemonluq iddiası irəli sürmür, lakin çoxtərəfli platformalarda fəal iştirak, normativ təşəbbüslərin irəli sürülməsi, vasitəçilik və koalisiya quruculuğu vasitəsilə öz təsir radiuslarını genişləndirirlər. Azərbaycanın son illərdə enerji diplomatiyası, nəqliyyat dəhlizlərinin təşkili, humanitar və iqlim gündəmlərində aktivliyi bu modelin praktik təzahürüdür.

Eyni zamanda, orta güc strategiyası risklərin minimallaşdırılması və manevr imkanlarının qorunması baxımından da rasional seçimdir. Qlobal güclər arasında artan geosiyasi rəqabət şəraitində sərt bloklaşmalardan kənarda qalmaq, lakin funksional tərəfdaşlıqlar qurmaq dövlətin strateji avtonomiyasını möhkəmləndirir. Azərbaycanın həm Qərb, həm İslam dünyası, həm də regional platformalarla paralel əməkdaşlıq mexanizmləri qurması onun çoxvektorlu siyasətinin institusional balansını təmin edir.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, ölkənin təşəbbüsü ilə media, iqlim, ekologiya, energetika və nəqliyyat istiqamətlərində bir neçə funksional mərkəzin yaradılması artıq təşkilat daxilində rol bölgüsünün dəyişdiyini göstərir. Beynəlxalq təşkilatlarda real nüfuz təkcə formal üzvlük, səsvermə hüququ və prosedur mexanizmləri ilə ölçülmür. Əsas təsir imkanları hansı problemlərin prioritetə çevrildiyini müəyyənləşdirmək, resursların hansı istiqamətə yönəldiləcəyini formalaşdırmaq və əməkdaşlığın çərçivəsini dizayn etmək bacarığı ilə yaranır.

Azərbaycanın təşəbbüsləri onun normativ aktora çevrilmək strategiyasını nümayiş etdirir. Normativ aktor statusu ideya istehsalına, institusional innovasiyaya və kollektiv davranış standartlarının formalaşdırılmasına əsaslanır. Bakı D-8 platformasında əməkdaşlığın fəlsəfəsini və prioritetlərini də for-



malaşdırmağa çalışır ki, bu da onu passiv iştirakçıdan institusional təşəbbüskar mövqeyinə yüksəldir. Eyni zamanda, bu strategiya Azərbaycanın uzunmüddətli yumşaq güc kapitalını artırır. Yaradılan mərkəzlər gələcəkdə intellektual şəbəkələrin, ekspert platformalarının və siyasi koordinasiya mexanizmlərinin formalaşması üçün baza rolunu oynayır.

Eyni zamanda, bu üzvlük Azərbaycanın İslam dünyasında balanslaşdırıcı və körpü rolunu keyfiyyətcə gücləndirir. D-8 platforması müsəlman ölkələri arasında siyasi koordinasiya, normativ yaxınlaşma və institusional dialoq üçün mühüm siyasi məkan funksiyası daşıyır. Türkiyə, Pakistan, İndoneziya, İran, Misir, Nigeriya, Banqladeş və Malayziya kimi fərqli siyasi modellərə, geosiyasi oriyentasiyalara və iqtisadi strukturlara malik dövlətləri birləşdirən bu platforma mahiyyət etibarilə İslam dünyasının daxili çoxqütblülüyünü idarə edən nadir institusional formatlardan biridir. Məhz belə heterogen mühitdə etibarlı və balanslaşdırıcı aktor statusu xüsusi strateji dəyər kəsb edir.

Azərbaycanın bu platformada fəal iştirakı onun xarici siyasətində uzun müddət formalaşmış sivilizasiyalararası dialoq, inklüziv multilateralizm və suveren qərarverməyə hörmət prinsiplərinin daha geniş geosiyasi məkana transferini təmin edir. Bakı nə ideoloji ixrac, nə bloklaşdırıcı siyasi xətt, nə də hegemon ambisiya üzərindən mövqe qurur. Azərbaycan müxtəlif maraqlar arasında konsensus yarada bilən, praktiki əməkdaşlığa fokuslanan və konfliktlərin yumşaldılmasına yönəlmiş davranış modeli təqdim edir.

Rəsmi Bakının tutduğu yol politoloji baxımdan "körpü gücü" anlayışı ilə izah olunur. Körpü aktorlar müxtəlif bloklar, regionlar və normativ sistemlər arasında qarşılıqlı etimadın formalaşmasına xidmət edir və informasiya, kapital, təhlükəsizlik və ideya axınlarının kəsişmə nöqtəsində yerləşir. Azərbaycanın həm Qərb institutları ilə sıx əməkdaşlığı, həm də İslam dünyası platformalarında fəal iştirakı ona unikal ikili legitimlik qazandırır. Belə bir ikili legitimlik isə ölkəyə regional böhranların idarə olunmasında vasitəçi potensialı, normativ dialoqların təşkili və institusional sinerjinin yaradılması baxımından əlavə siyasi kapital formalaşdırır.

Eyni zamanda, D-8 çərçivəsində Azərbaycanın aktivliyi İslam dünyasında parçalanmış geosiyasi xətlərin yumşaldılması və funksional əməkdaşlıq modelinin təşviqi baxımından əhəmiyyətlidir. Platforma iqtisadi rasionalizmin, texnoloji modernizasiyanın və sosial dayanıqlılığın ön plana çıxarıldığı əməkdaşlıq formatı təqdim edir. Azərbaycanın təşəbbüskar mövqeyi bu xəttin institusional dayanıqlılığını gücləndirir.

Son olaraq qeyd edək ki, Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi bu məqam Azərbaycanın beynəlxalq sistemdə rolunun keyfiyyət transformasiyası mərhələsinə daxil olduğunu göstərir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Regional enerji bazarı və yeni dövrə keçid



(əvvəli 1-ci səhifədə)

İqtisadi baxımdan bu proses, ilk növbədə, ticarət əlaqələrinin bərpası və genişlənməsi üçün zəmin yaradır. Neft məhsullarının ixracı Azərbaycan üçün yeni bazar imkanları deməkdir. İrəvan üçün isə bu, yanacaq təchizatında alternativ mənbənin yaranması anlamına gəlir. Ermənistan indiyədək əsasən bir və ya iki əsas tədarükçüdən asılı olub və bu asılılıq həm qiymətlərin formalaşmasına, həm də enerji təhlükəsizliyinə təsir göstərib. Azərbaycan məhsullarının bazara daxil olması isə rəqabəti artırır və bu, təbii olaraq, qiymətlərin daha balanslı səviyyədə formalaşmasına şərait yaradır. Xüsusilə də, idxal olunan yanacağın mövcud bazar qiymətlərindən daha münasib olması Ermənistan daxilində sosial-iqtisadi baxımdan da müsbət təsir yaradır.

Enerji təhlükəsizliyi aspektindən baxdıqda, yeni tədarük xətti Ermənistanın enerji bazarının şaxələndirilmiş və davamlı olmasına kömək edir. Tək bir mənbədən və ya bir ölkədən asılılığın azalması istənilən ölkə üçün strateji üstünlük sayılır. Bu kontekstdə Azərbaycan neft məhsullarının Ermənistana çatdırılması regionda enerji balansını müəyyən qədər dəyişir və İrəvanın manevr imkanlarını genişləndirir. Çünki Azərbaycan məhsullarının bazara daxil olması rəqabəti artırır və bu, təbii olaraq, qiymətlərin daha balanslı səviyyədə formalaşmasına şərait yaradır. İlkin qiymətləndirmələrə görə, onların qiyməti bazar qiymətindən, təxminən, 80 dram aşağıdır. Bu da digər sahələrdə də xərcləri azaldacaq. Məsələn, erməni nazirin dediyi kimi, dizel yanacağı 80 dram ucuz başa gələrsə, torpağı becərən traktorun xərcləri də 20 faiz azalacaq.

Bəs, Azərbaycan neft məhsullarının Ermənistan bazarında yanacağı ucuzlaşdırmasına səbəb nədir?

**Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun şöbə müdiri, dosent Mahir Zeynalov** XQ-yə bildirdi ki, əvvəllər Ermənistanın yanacaq təchizatı məhdud sayda mənbələrdən təmin olunurdu: "İndi ümumi təklifin həcmi artır, bazarda



yanacaq qıtlığı azalır. Digər tərəfdən, Azərbaycan yanacağı bazara nisbətən aşağı qiymətlə daxil olur. Çünki bizim böyük neft emalı imkanlarımız və dövlət şirkətinin uzunmüddətli strategiya ilə işləməsi daha aşağı qiymətlə satışa imkan verir. Kiçikhəcmli bazar olan Ermənistan üçün bu cür əlavə təklif qiymətlərə güclü təsir göstərir. Yəni təklif həcmi artır, bazarda yanacaq qıtlığı azalır, təchizatçılar arasında rəqabət sərtləşir və bu proses bazar iştirakçılarının gözləntilərini dəyişdirərək qiymətlərə aşağı istiqamətli psixoloji təzyiq yaradır.

İkincisi, Azərbaycanın logistika və istehsal üstünlükləri Ermənistana ixrac olunan yanacağın qiymətinə birbaşa təsir göstərir. Ölkənin böyük neft emalı gücü olduğuna görə daxili istehsal həcmləri yüksəkdir və vahid məhsul üzrə maya dəyəri aşağı düşür. Regiondaxili yerləşmə və mövcud nəqliyyat infrastrukturundan istifadə logistika xərclərini uzaq bazarlarla müqayisədə xeyli azaldır. Bundan əlavə, dövlət şirkəti olan SOCAR kommersiya baxımından qısamüddətli mənfəətdən daha çox uzunmüddətli bazar mövqeyini və strateji maraqları nəzərə alaraq fəaliyyət göstərə bilir".

M.Zeynalovun fikrincə, bu amillər Azərbaycana qısa müddətdə yanacağı daha aşağı qiymətlə təklif etmək imkanı yaradır və bazarda "şok qiymət" effekti formalaşdırır: "Qiymətlərin gözlənilmədən aşağı səviyyədə təklif edilməsi digər təchizatçıları sürətlə reaksiya verməyə məcbur edir. Həcmi nisbətən kiçik olan Ermənistan bazarında isə bu cür əlavə və ucuz təklif daha kəskin hiss olunur, çünki az miqdarda idxal belə ümumi bazar balansını dəyişərək qiymətlərə güclü təsir göstərir.

Üçüncüsü, yanacaq bazarında qiymət təkcə real təklif həcmləri ilə deyil, bazar iştirakçılarının gözləntiləri ilə də formalaşır. Bazarda "ucuz yanacaq gəlir" kimi bir fikir yayıldıqda, bu, psixoloji təsir yaradır və davranışları dəyişir. Distribyutorlar gələcəkdə qiymətlərin düşəcəyini gözlədikləri üçün mövcud yüksək qiymətləri saxlamağın riskli olduğunu düşünürlər və satış həcmini qorumaq məqsədilə qiymətləri qabaqcadan endirə bilərlər.

Eyni zamanda, siyasi və geosiyasi kontekst də bu gözləntiləri gücləndirir. Yeni ticarət istiqamətinin açılması və alternativ təchizatçının ortaya çıxması bazara uzunmüddətli ucuzlaşma siqnalı verir. Bu şəraitdə şirkətlər ehtiyatla davranır, yüksək qiymət təyin etməkdən çəkinir və daha aşağı marja ilə işləməyə razı olurlar. Bununla da yanacağın fiziki həcmləri hələ ciddi şəkildə artmasa belə, təkcə gözləntilərin dəyişməsi qiymətlərin enməsinə səbəb olur. Bu, Ermənistan daxilində sosial-iqtisadi baxımdan da müsbət təsir yaradır. Eyni zamanda, Azərbaycan üçün də enerji sahəsində regional təsir imkanlarını artır".

Şöbə müdiri sonda onu da qeyd etdi ki, neft məhsullarının Gürcüstan ərazisindən tranzitlə daşınması Cənubi Qafqazda mövcud nəqliyyat marşrutlarının daha aktiv istifadəsinə şərait yaradır: "Bu, gələcəkdə yalnız enerji məhsulları deyil, digər malların da daşınması üçün presedent yaradır. İqtisadi əməkdaşlıq tədricən genişlənərək regional inteqrasiyanın dərinləşməsinə yol açır.

Siyasi və diplomatik mənada bu addımın əhəmiyyəti də böyükdür. Azərbaycan və Ermənistan arasında onilliklər boyu davam etmiş qarşıdurmadan sonra iqtisadi əməkdaşlıq elementlərinin ortaya çıxması sülh gündəliyinin praktik müstəviyə keçdiyini göstərir. Bu, tərəflər arasında etimadın tam formalaşdığını deməyə imkan verməsə də, qarşılıqlı maraqlara əsaslanan münasibətlərin mümkün olduğunu göstərir. İqtisadi əlaqələr çox vaxt siyasi gərginliyin azalmasına və dialoqun daha rasional müstəviyə keçməsinə zəmin yaradır".

Beləliklə, Azərbaycandan Ermənistana neft məhsullarının göndərilməsi sadəcə yanacaq ixracı deyil. Bu, iqtisadi münasibətlərin bərpası, enerji təhlükəsizliyinin güclənməsi, regional inteqrasiyanın təşviqi və sülh prosesinin real addımlarla dəstəklənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Uzunmüddətli perspektivdə bu cür ticarət əməliyyatları daha geniş əməkdaşlıq imkanları açacaq. Bu isə logistika, ticarət və hətta birgə regional layihələr üçün baza rolunu oynaya bilər. Ən əsası isə bu proseslər bölgə xalqları üçün daha sabit, proqnozlaşdırıla bilən və iqtisadi baxımdan faydalı mühitin formalaşmasına xidmət edir.

***Ə.PÜNHAN***
***XQ***

# İrəvan–Tehran dialoqu: qapalı görüşlər, cavabsız suallar…

(əvvəli 1-ci səhifədə)

A.Mirzoyan görüş zamanı İranla münasibətlərin Ermənistan üçün strateji əhəmiyyət kəsb etdiyini bildirib. O, Ermənistanın Baş naziri və İran İslam Respublikasının Prezidenti arasında 2025-ci il avqustun 19-da İrəvanda baş tutan görüş zamanı rəhbər şəxslərin bu il münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaq barədə razılığa gəldiklərini xatırladıb. Tərəflər, həmçinin regionda nəqliyyat kommunikasiyaların açılması ilə bağlı fikir mübadiləsi aparıblar. Mirzoyan Ermənistanın marşrutların açılmasının ümumi qəbul edilmiş prinsiplər çərçivəsində baş tutacağına dair mövqeyini bir daha təkrarlayıb.

İran nümayəndə heyətini Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da qəbul edib.



Əlbəttə, siyasi məsləhətləşmələr aparmaq hər bir ölkənin daxili işidir. Bu məqalə də müzakirələrə qarşı çıxmaq ruhunda qələmə alınmayıb. Ancaq nəzərə almaq lazımdır ki, Ermənistan işğalçı keçmişə malik ölkədir. İki gün öncə bu ölkə ilə Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin paraflanmasının beşinci ayı tamam olub. Doğrudur, bu zaman kəsiyində Ermənistanın sülh gündəliyini qorumağa çalışması diqqətdən kənarda qala bilməz. Rəsmi İrəvanın müzakirə proseslərini davam etdirməsi dialoqa açıq olduğunu göstərir. Atılan addımlar regionda uzunmüddətli sabitliyin təmin olunması baxımından əhəmiyyətlidir və qarşılıqlı etimadın formalaşması üçün siyasi iradənin saxlanılması da vacibdir. Bütövlükdə, yanaşma sülh sazişinin yekunlaşdırılmasına real zəmin yarada bilər. Bununla belə, yenə də Ermənistan hökumətinin xüsusilə xarici siyasət və müdafiə sahəsində atdığı hər bir addımın diqqətlə izlənilməzi zəruridir.

İran isə işğalın davam etdiyi müddətdə kağız üzərində – BMT Baş Assambleyasının və ya İslam Əməkdaşlıq Təşkilatının qətnamələrində Azərbaycanı dəstəklədiyini bəyan etsə də, əməldə hər zaman Ermənistanı dəstəkləyib. Bu dəstək əsasən iqtisadi və logistik əməkdaşlıqda özünü göstərib. İşğal dövründə İran–Ermənistan sərhədi İrəvan üçün, necə deyərlər, nəfəslik rolunu oynayıb. Bu xətt vasitəsilə Ermənistanın təcriddən çıxmasına şərait yaradılıb. Belə addımlar rəsmi bəyanatlarla real siyasət arasında ziddiyyət formalaşdırıb. Nəticədə Tehran tərəfindən Azərbaycanın haqlı mövqeyinə praktik müstəvidə töhfə verilməyib. Bütün bunlar iki ölkənin xarici siyasət idarələri arasında həyata keçirilmiş siyasi məsləhətləşmələrə ayrıca yazı həsr etməyimizi şərtləndirir.

***

Elə məsləhətləşmələr zamanı A.Mirzoyanın İranla münasibətlərin Ermənistan üçün strateji əhəmiyyət kəsb etdiyini bildirməsi çox mətləblərdən xəbər verir. Bu bəyanat İrəvanın regional siyasətdə hansı xəttə üstünlük verdiyini açıq şəkildə göstərir. Ermənistan İranla əlaqələri təkcə iqtisadi nöqteyi-nəzərdən deyil, təhlükəsizlik maraqları kontekstində də vacib hesab edir. Bu münasibətlər rəsmi İrəvan üçün alternativ siyasi dayaqların saxlanılmasına xidmət edir. Eyni zamanda, Nikol Paşinyan hökuməti regional proseslərdə manevr imkanlarını genişləndirməyə çalışır. Mirzoyanın vurğusu bu kursun dəyişməz qaldığını nümayiş etdirir. Onun Ermənistanın Baş naziri və İran Prezidentinin 2026-cı ildə münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaq barədə razılığı xatırlatması isə xüsusi diqqət yetirilməli məqamdır. Məsələ ondadır ki, strateji tərəfdaşlıq anlayışı təkcə siyasi bəyanatlarla məhdudlaşmır. Bu status real addımlar, konkret öhdəliklər və uzunmüddətli yanaşma tələb edir. Regionda həssas vəziyyətin mövcud olduğu bir dövrdə belə razılaşmalar diqqətlə qiymətləndirilməlidir. Ermənistan–İran yaxınlaşmasının hansı sahələri əhatə edəcəyi hələ tam aydın deyil. Xüsusilə təhlükəsizlik və nəqliyyat məsələləri əlavə suallar doğurur. Bu əməkdaşlığın regional sülh proseslərinə necə təsir göstərəcəyi zamanla bəlli olacaq. Bizim ölkəmiz üçün üçün əsas olan isə bu münasibətlərin şəffaf və açıq şəkildə inkişaf etməsidir. Çünki pərdəarxası razılaşmalar etimad mühitinə töhfə vermir. Regional əməkdaşlıq ümumi sabitliyə xidmət etməlidir. Bu baxımdan qeyd etdiyimiz kimi, proseslərin diqqətlə izlənməsi vacibdir.

A.Mirzoyanın Ermənistanın marşrutların açılmasının ümumi qəbul edilmiş prinsiplər çərçivəsində baş tutacağına dair mövqeyini bir daha təkrarlaması isə rəsmi İrəvanın mövcud yanaşmasını dəyişmədiyini göstərir. Ermənistan nəqliyyat xətlərinin açılmasını suverenlik və yurisdiksiya prinsipləri ilə əlaqələndirir. Bu isə prosesin texniki deyil, daha çox siyasi çərçivədə aparıldığını göstərir. Region ölkələri üçün kommunikasiyaların açılması iqtisadi baxımdan mühüm imkanlar yarada bilər. Ticarət dövriyyəsinin artması və logistika xərclərinin azalması real perspektiv kimi qiymətləndirilir. Ermənistan da bu imkanlardan kənarda qalmaq istəmir. Eyni zamanda, marşrutların açılması qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edə bilər. Lakin bu prosesdə tərəflərin mövqelərinin uzlaşdırılması həlledici amildir. Razılaşdırılmamış yanaşmalar praktiki nəticələrin əldə olunmasını çətinləşdirir. Beynəlxalq təcrübə göstərir ki, bu cür layihələr qarşılıqlı kompromislər tələb edir. Regionda sabitlik olmadan kommunikasiya xətlərinin effektiv işləməsi mümkün deyil. Buna görə də təhlükəsizlik məsələləri ön planda saxlanılmalıdır.

Bizim üçün əsas məsələ istər Zəngəzur dəhlizinin, istərsə də sərhədin digər istiqamətlərindən açılacaq kommunikasiya xətlərinin maneəsiz və davamlı fəaliyyət göstərməsidir. Bu şərtlər təmin olunduğu halda, regional əməkdaşlıq daha geniş məzmun kəsb edə bilər. Prosesin gələcək inkişafı isə tərəflərin real siyasi iradəsindən asılı olacaq.

***Səxavət HƏMİD***
***XQ***

### *Ekspert rəyi*



**İlyas HÜSEYNOV,**
**politoloq**

Ermənistan–İran siyasi məsləhətləşmələri regionda formalaşan yeni geosiyasi reallıqlar fonunda diqqət çəkir. Bu təmaslar tərəflərin bir-birinə verdiyi siyasi əhəmiyyəti nümayiş etdirir. Ermənistan üçün İranla münasibətlər alternativ regional dayaqların qorunması baxımından vacibdir. İran isə Cənubi Qafqazda mövcudluğunu saxlamaq və təsir imkanlarını genişləndirmək niyyətini gizlətmir. Məsləhətləşmələr zamanı verilən bəyanatlar tərəflərin strateji dialoqda maraqlı olduğunu göstərir. Bununla yanaşı, bu dialoqun konkret məzmunu hələ tam aydın deyil. Xüsusilə təhlükəsizlik məsələləri ilə bağlı detallar təqdim olunmur.

Nəqliyyat kommunikasiyaları mövzusu məsləhətləşmələrin əsas mövzusu kimi önə çıxır. Ermənistan bu məsələdə "ümumi qəbul edilmiş prinsiplər"ə istinad etməklə öz mövqeyini qoruyur. Bu yanaşma prosesin sürətlənməsindən daha çox nəzarətdə saxlanılmasına xidmət edir. İran üçün isə regional marşrutlarda iştirak iqtisadi və strateji maraqlarla bağlıdır. Tərəflərin baxışları müəyyən məqamlarda üst-üstə düşsə də, tam uyğunluqdan danışmaq çətindir. Ermənistan–İran yaxınlaşması regiondakı digər aktorlar tərəfindən diqqətlə izlənilir. Bu münasibətlərin regional sülh gündəliyinə təsiri mühüm amil sayılır. Azərbaycan üçün əsas məsələ bu təmasların balansı pozmamasıdır. Şəffaflıq və açıq kommunikasiya etimad baxımından vacibdir. Qapalı razılaşmalar yeni suallar yarada bilər. Ümumilikdə, Ermənistan–İran siyasi dialoqu ehtiyatlı müşahidə tələb edən bir prosesdir.



# Gündoğar ölkədən Odlar yurduna uzanan yol

*Yaponiyanın investisiya hədəfləri və Azərbaycan reallıqları*

**Uzun illər ərzində formalaşmış ənənəvi ticarət yollarının, təchizat zəncirlərinin risk altına düşməsi fonunda Şərq ilə Qərb arasında daha təhlükəsiz və dayanıqlı bağlantıların qurulması zərurəti meydana çıxıb. Belə qlobal konyuktura şəraitində Gündoğar ölkə – Yaponiya strateji baxışlarını uzaq Şərqdən Qərbi Asiyaya, xüsusən də Cənubi Qafqaz və Mərkəzi Asiya regionuna çevirməkdədir.**

2025-ci ilin dekabr ayında Yaponiyanın Baş naziri Sanae Takaitinin Mərkəzi Asiyanın beş dövlətinin liderləri ilə keçirdiyi tarixi görüş Tokionun xarici siyasət kursunda baş verən mühüm dəyişikliklərin carçısı sayılır. Bu görüşdə Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan rəhbərləri ilə bir araya gələn xanım Takaiti rəsmi Tokionun "Orta Dəhliz" layihəsinə strateji dəstək verəcəyini bəyan etməklə, əslində, Yaponiyanın Avrasiya strategiyasında Azərbaycanın mərkəzi rolunu təsdiqləyir. Çünki coğrafi imperativlər və logistik reallıqlar onu diktə edir ki, Mərkəzi Asiyadan başlayan hər hansı qlobal marşrutun Avropaya və dünya bazarlarına çıxışı məhz Xəzər dənizi və Azərbaycan üzərindən keçməklə mümkündür.

Yaponiyanı Cənubi Qafqaz marşrutlarına yönəldən qlobal amillər var. İkinci Dünya müharibəsindən sonrakı dövrdə qlobal ticarətin əsas damarlarını okean yolları və Süveyş kanalı təşkil edirdisə, XXI əsrin üçüncü onilliyində dəniz yollarında artan təhlükəsizlik riskləri, xüsusilə Qırmızı dəniz hövzəsindəki qeyri-sabitlik, həmçinin Şimal marşrutu üzərindəki geosiyasi gərginliklər və sanksiya rejimləri, alternativlərə olan tələbatı həyati zərurətə çevirir. Sənaye nəhəngi olan Yaponiya üçün xammalın, xüsusilə nadir metalların və enerji resurslarının fasiləsiz təchizatı, eyni zamanda, istehsal olunan yüksək texnoloji məhsulların Avropa bazarlarına çatdırılması milli təhlükəsizlik məsələsidir. Rusiya ərazisindən keçən Trans–Sibir magistralının siyasi səbəblərdən cəlbediciliyini itirməsi Tokionun diqqətini cənub istiqamətinə – tarixi İpək Yolunun bərpasına yönəldib. Lakin Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində hegemonluq etdiyi marşrutlardan fərqli olaraq, Yaponiya şaxələndirmə siyasətinə üstünlük verir və burada Orta Dəhliz optimal variant kimi çıxış edir.

Sanae Takaitinin Mərkəzi Asiya turnesi və "Mərkəzi Asiya + Yaponiya" dialoqu çərçivəsindəki son zirvə toplantısı diplomatik protokol xarakteri daşımır. Tərəflər arasında əldə olunan razılaşmaların mahiyyəti onu göstərir ki, Tokio regionda infrastrukturun arxitekturasını formalaşdıran strateji tərəfdaş qismində iştirak etmək niyyətindədir. Mərkəzi Asiya ölkələrinin dənizə çıxışının olmaması, onların dünya bazarlarına inteqrasiyasını məhdudlaşdırırdı. İndi isə Xəzər dənizi üzərindən Azərbaycana, oradan Türkiyə və ya Qara dəniz vasitəsilə Avropaya uzanan dəhliz həm Mərkəzi Asiya dövlətləri, həm də Yaponiya üçün "nəfəslik" rolunu oynayır.

Azərbaycanın qeyd olunan proseslərdəki rolu əvəzolunmazdır və həlledici xarakter daşıyır. Rəsmi Bakı son iki onillikdə həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsində müasir infrastruktur yarada bilib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu xətti və Ələt Azad İqtisadi Zonası, Yaponiyanın nəzərdə tutduğu tranzit axınının qəbul edilməsi və emalı üçün hazır platformadır. Yaponiya şirkətlərinin, xüsusilə "Itochu", "Mitsubishi" və "Mitsui" kimi nəhəng korporasiyaların Azərbaycandakı enerji layihələrində uzunmüddətli təcrübəsi nəqliyyat sektorunda əməkdaşlığın genişləndirilməsi üçün möhkəm zəmin yaradır.

Rəsmi Bakı üçün Yaponiyanın proseslərə aktiv qoşulması xarici siyasətdəki balanslaşdırma strategiyasına tam uyğundur. Azərbaycan heç bir qlobal gücün inhisarına düşmədən, çoxtərəfli əməkdaşlıq formatında milli maraqlarını təmin etməyi bacarır. Yapon texnologiyası və kapitalının regiona gəlişi, infrastrukturun modernləşdirilməsini sürətləndirməklə yanaşı, həm də siyasi dividend gətirir.

Dekabr görüşündən sonra cərəyan edə biləcək hadisələrin ssenarisini proqnozlaşdırdıqda, Azərbaycan–Yaponiya münasibətlərində yeni dinamikanın şahidi olacağımız şübhəsizdir. İlk növbədə, Bakı Limanının genişləndirilməsi və logistik imkanların artırılması layihələrinə Yaponiyanın güzəştli kreditləri və ya birbaşa investisiyaları cəlb oluna bilər. Xüsusilə, liman əməliyyatlarının avtomatlaşdırılması, rəqəmsal qeydiyyat texnologiyası əsasında vahid platformanın yaradılması və gömrük prosedurlarının sürətləndirilməsi sahəsində Tokio öz təcrübəsini bölüşməyə hazırdır.

Baş nazirin Mərkəzi Asiya səfərində vurğuladığı "insan resurslarının inkişafı" və "dekarbonizasiya" məsələləri Azərbaycanın prioritetləri ilə üst-üstə düşür. COP29 sədrliyindən sonra Azərbaycanın qlobal iqlim gündəliyindəki liderliyi, "Yaşıl Enerji Dəhlizi"nin yaradılması təşəbbüsləri Yaponiyanın "Yaşıl İnkişaf Strategiyası" ilə tam harmoniyadadır. Xəzər dənizinin külək enerjisi potensialının istifadəsi və yaşıl hidrogen istehsalı sahəsində Yaponiya texnologiyalarının tətbiqi, enerji əməkdaşlığını neft-qaz çərçivəsindən çıxararaq gələcəyin texnologiyalarına daşıyacaq.

Hadisələrin gələcək inkişafında Türk Dövlətləri Təşkilatı (TDT) amili də nəzərə alınmalıdır. Mərkəzi Asiyanın dörd türk dövləti və Azərbaycanın TDT çərçivəsindəki inteqrasiyası Yaponiyanın regionla əməkdaşlığını asanlaşdıran vahid platforma effekti yaradır. Yaponiyanın TDT ilə müşahidəçi və ya tərəfdaş qismində əlaqələr qurması, layihələrin daha çevik və koordinasiyalı şəkildə həyata keçirilməsinə imkan verəcəkdir.

Yaponiyanın Orta Dəhlizə strateji baxışı həm də Əfqanıstandakı vəziyyət və Cənubi Asiya regionundakı proseslərlə əlaqəlidir. Regionun sabitliyi və inkişafı radikalizmin yayılmasının qarşısını alan ən effektiv vasitədir. Azərbaycanın 44 günlük müharibədən sonra yaratdığı reallıqlar Cənubi Qafqazda daimi sülhün bərqərar olması üçün tarixi şans verib. Yaponiyanın bu prosesə dəstəyi Ermənistanın revanşist xülyalardan əl çəkərək regional layihələrə qoşulmasını təşviq edə bilər. Yaponiya hökumətinin Orta Dəhlizə yönəlik strateji marağının arxasında duran digər amil qlobal enerji keçidi və hidrogen iqtisadiyyatının formalaşmasıdır. Azərbaycanın bərpaolunan enerji mənbələri üzrə nəhəng potensialı Yaponiyanın "2050-ci ilə qədər karbon neytrallığı" hədəfi ilə bilavasitə uzlaşır. Xəzər dənizindən əldə olunacaq yaşıl enerjinin gələcəkdə nəqli məsələsi Tokionun uzunmüddətli planlarında yer alır. Əgər ənənəvi karbohidrogenlər indiki mərhələdə əhəmiyyətli yer tutursa, gələcək onilliklərdə enerji daşıyıcılarının tərkibi dəyişsə də, marşrut dəyişməz qalacaq.

Yaponiyanın Orta Dəhlizə qoşulması marşrutun statusunu transkontinental səviyyəyə qaldırır. Azərbaycan bu nəhəng prosesin mərkəzi hissəsi, birləşdirici bəndi və ən vacib ölkəsidir. Rəsmi Bakının uzaqgörən siyasəti illər öncə qoyulmuş sərmayələrin və yaradılmış infrastrukturun bu gün qlobal güclər tərəfindən yüksək qiymətləndirildiyini sübut edir. Bu mənzərə Azərbaycanın düzgün yolda olduğunu, Prezident İlham Əliyevin müəyyən etdiyi strategiyanın qlobal trendlərlə səsləşdiyini və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiq olduğu yüksək mövqeyi tutduğunu bir daha təsdiqləyir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Prezident İlham Əliyev: strateji müdriklik və liderlik məharətinin sintezi



## III MƏQALƏ

### Məhsuldar liderlik

Bu mövzuya həsr edilmiş I və II məqalələrdə ifadə edilən fikirləri uğurlu liderlik kontekstində ümumiləşdirsək, "nəticəverici liderlik" anlayışının izahına ehtiyac yaranır. Çünki Azərbaycan Prezidenti konkret faktlarla 2025-ci ildə ölkəmizin əldə etdiyi nailiyyətləri müsahibədə geniş şərh etmişdir. Məhz bu əsasda dünyanın ən güclü dövlətinin rəhbərliyinin də Prezident İlham Əliyevə olan inamı və etibarı yüksək səviyyədədir, Azərbaycan dövlət başçısının liderliyini tam qəbul etmişdir. II məqalədə həmin bağlılıqda gətirdiyimiz faktların davamı olaraq bir məqamı da vurğulayaq.

Ölkə rəhbəri müsahibəsində ifadə etmişdir: "Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasındakı coğrafi bağlantının yaradılması da məhz həmin gün reallaşdı. Yəni Zəngəzur dəhlizinin açılması artıq Amerika Prezidenti tərəfindən də təsdiqlənmişdir. Artıq mən də əminəm, Azərbaycan vətəndaşlarında şübhə yoxdur ki, Zəngəzur dəhlizi açılacaq. Onun adı fərqli ola bilər, amma mahiyyət dəyişmir".

Zəngəzur dəhlizi məsələsini ayrıca vurğulamağımız təsadüfi deyildir. Çünki Zəngəzur artıq yalnız region dövlətləri üçün aktual olan və mühüm nəticələri ola biləcək məsələ deyildir. Azərbaycan rəhbərliyinin çox aktiv fəaliyyəti sayəsində Zəngəzur dəhlizi qlobal geosiyasətin ən aktual məsələlərindən biri səviyyəsinə yüksəlmişdir. İndi o, ABŞ, Aİ, Rusiya, Çin, İran və Türkiyə kimi güclü dövlətlərin siyasi gündəmində ön sıradadır. Bu səviyyədə aktuallığı olan bir məsələ ilə bağlı Vaşinqtonda razılığın əldə olunması, əlbəttə, müasir dünya siyasətində mühüm hadisədir. Deməli, öncəki məqalədə vurğuladığımız faktlarla yanaşı, Zəngəzur dəhlizi məsələsini də uğurlu nəticəverici liderliyin mühüm əlaməti kimi qəbul etmək lazımdır.

Nəhayət, ABŞ ilə münasibətlərə Ermənistanla normallaşma prosesi, əməkdaşlıq və təhlükəsizlik kontekstində baxanda ümumi səviyyədə iki aspektin vəhdətini görə bilərik. Onların hər birini müsahibədə dövlət başçısı dəqiq ifadə etmişdir.

Birincisi, "Beləliklə, bizə Ermənistanla normallaşma prosesi çərçivəsində lazım olan bütün məsələlər istədiyimiz kimi öz həllini tapdı".

İkincisi, "Dediyim, sadaladığım bu məsələlər işlərin xronologiyasıdır. Bu, ictimaiyyətə açıq olan tərəfdir. Amma, eyni zamanda, bu gün çox fəal diplomatik hərəkət var".

İkinci tezisin konseptual anlamı üzərində dayanmağa ehtiyac görürük. Çünki o, liderliyin fəlsəfəsinə aid olan vacib bir özəlliyə malikdir.

### Strateji xartiya: münasibətlərdə yenilik

Məsələnin bu tərəfinin təhlilinə Prezident İlham Əliyevin müsahibədə ifadə etdiyi fikirlərin məntiqi və faktları prizmasında yanaşmaq ən yaxşısıdır. Dövlət başçısı ABŞ ilə münasibətlərə aid olan hissədə fikirlərini aşağıdakı kimi yekunlaşdırmışdır: "Azərbaycanla Amerika arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir. Oktyabr ayından bu yana mənim tərəfimdən Amerikaya nazirlərdən və özəl sektor nümayəndələrindən, digər məsul şəxslərdən ibarət dörd rəsmi heyət ezam edilmişdir. Demək olar ki, əsas istiqamətlər üzrə strateji xartiyanın hazırlanması və qarşılıqlı sərmayə qoyuluşu, onun təşkili və münasibətlərimizin iqtisadiyyat, ticarət, nəqliyyat, hərbi-sənaye istiqamətlərinin əhatə edilməsi məsələləri müzakirə olunur. Yəni ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir. Ona görə bu nöqteyi-nəzərdən 2025-ci ili təbii ki, çox uğurlu və tarixi il saymaq olar".

İfadə edilən fikirlərə həm konkret iki dövlət arasındakı münasibətlərin XXI əsrdə təkamül dinamikası, həm də praktiki siyasi-diplomatik fəaliyyətin xüsusiyyətləri kontekstlərində baxmaq olar.

Situasiyanın daha aydın olması üçün Azərbaycan liderinin işlətdiyi terminlərdən birinin politoloji izahını verməyə ehtiyac vardır. Biz, "xartiya" terminini nəzərdə tuturuq. Çünki məhz bu terminin daşıdığı fəlsəfi, hüquqi və politoloji məna çalarları Azərbaycan liderinin konseptual, tarixi və praktiki-diplomatik aspektlərdə nəticəverici liderliyinin əhəmiyyətli xüsusiyyətlərini əks etdirir.

"Xartiya" sözü "papirus yarpağı", "kağız" deməkdir. Orta əsrlərdə və Yeni dövrdə Avropada bir sıra ictimai-hüquqi xarakterli (məsələn, Konstitusiya) sənədlərini Xartiya adlandırıblar. O sənədlərdə siyasi hüquqlar da yer almışdır. Beynəlxalq hüquqda xartiya yazılı formada verilmiş hüquqi aktdır (beynəlxalq müqavilə, saziş).

Məsələn, Avropa təhlükəsizlik xartiyası vardır. Həmin sənəddə XXI əsrdə dünya ictimaiyyətinin təhlükəsizlik konsepsiyası yer almışdır. Enerji xartiyası da hazırlanmışdır. Bu sənəd siyasi qətnamə xarakterlidir, Orada Şərqlə Qərb arasında enerji sahəsində əməkdaşlıq təşviq edilir (1999-cu ildə ATƏT-in İstanbul sammitində qəbul edilmişdir). Bu sənədi mütəxəssislər "vahid və bölünməz" Avropa təhlükəsizlik sisteminin yaradılması prosesinin mərhələsi kimi xarakterizə edirlər.

Deməli, xartiya həm geniş funksionallığa, həm də ciddi hüquqi statusa malik beynəlxalq sənəddir. O cümlədən, iki dövlət arasında strateji xarakterli xartiya hazırlamaq, onlar arasında münasibətlərdə tarixi yenilik etmək deməkdir. Bunun təməlində bir neçə mühüm məqam dayanır.

Birincisi, dövlət olaraq xartiya hazırlayan ölkələrin bir-birinə tam inamı olmalıdır.

İkincisi, həmin ölkələr münasibətləri strateji səviyyəyə yüksəltməyin perspektivinə əmindirlər.

Üçüncüsü, məsələ strateji kontekstdə qoyulursa, dövlətlər münasibətlərin məzmun və məqsədlərinin əbədi olmasına qərar vermişlər.

Dördüncüsü, dövlətlərin liderləri bir-birini legitimliyi və inklüzivliyini tam olaraq qəbul edirlər.

Beşincisi, strateji xartiya mahiyyətcə sosial, siyasi, hüquqi, təhlükəsizlik, müdafiə, iqtisadi və digər fəaliyyət istiqamətlərinin hər birini əhatə etməlidir. Əks halda strateji aspektdə sənəd natamam olur.

İndi hansı səbəbə görə strateji xartiyanın iki dövlət üçün tarixi olay olduğunun detallarına baxaq.

### ABŞ-ın yeni yanaşması

Tarixdən məlumdur ki, son 300 ildə Amerika Osmanlı və Səfəviyə münasibətdə əməkdaşlıq etməkdən çox onları zəiflətmək mövqeyində olmuşdur. Bunun faktları çoxdur. Yalnız bir neçəsini xatırladaq.

XVII əsrdə Vestfal sazişini imzalayandan sonra da (1648-ci il) Qərb dövlətlərinin müsəlman dövlətçiliyinə münasibətində pozitiv bir məqam özünü göstərməmişdir. Ümumi halda səlibçilik əsas yer tutmuşdur.

1823-cü ilin dekabrında isə ABŞ-ın o dönəm prezidenti Ceyms Monro xarici siyasətlə bağlı yeni doktrinanı bəyan etmişdir. Onun dörd əsas prinsipi vardı:

Birincisi, ABŞ Avropanın işlərinə qarışmayacaq.

İkincisi, ABŞ Amerikadakı müstəmləkələri tanıyır və onların işlərinə qarışmayacaq. Üçüncüsü, Qərb yarımkürəsi gələcək müstəmləkə üçün qapadılır.

Dördüncüsü, əgər hər hansı Avropa güclü dövləti Amerika qitəsində hansısa ölkənin işinə qarışmaq istəsə, qarşısı dərhal alınacaq.

Lakin sonrakı dönəmlərdə baş verənlər göstərdi ki, Vaşinqton əslində dövlətlər arasında ayrı-seçkilik edir. Onun bariz təzahürü 1918-ci ildə hazırlanmış "Vilson prinsiplər"ində əksini tapmışdır. Birinci Dünya müharibəsinin nəticələrinə həsr edilmiş 14 punktdan ibarət sənədin 12-ci bəndində yazılmışdır ki, Osmanlı imperiyasının "türk hissələri"nin suverenliyi təmin edilməlidir, lakin imperiyada yaşayan bütün xalqların da mütləq müstəqil inkişafı olmalıdır. Yəni faktiki olaraq Osmanlının parçalanmasına hüquqi don geyindirmişlər. Başqa heç bir dövlətə qarşı belə münasibət sənəddə yoxdur.

Eyni zamanda, Vudro Vilson Qərbi Azərbaycandan azərbaycanlıların deportasiya edilmələri, kütləvi qətlə yetirilmələri və orada süni olaraq erməni dövləti yaratmaq cəhdlərini bir kəlmə ilə də qeyd etməmişdir. Sanki ABŞ üçün belə bir proses yoxdur.

Deməli, XX əsrin əvvəllərində Amerika Səfəvi məsələsinin faktiki həll edildiyini (yəni parçalandığını, bir dövlət kimi aradan qaldırıldığını) doğru sayırdı və azərbaycanlıların tarixi ərazilərinin bir qismi üzərində süni erməni dövləti yaradılmasını təqdir edirdi. Hətta Osmanlının da parçalanaraq, ermənilərə ərazi verilməsinə yaşıl işıq yandırırdı. V.Vilson həm də bu səbəbdən "Osmanlıda yaşayan hər bir xalqa mütləq azadlıq" şərtini qoyurdu.

Keçən əsr boyu Amerikanın ermənilərə verdiyi birtərəfli dəstək və indi hamıya məlum olan bədnam "907-ci düzəliş" Vaşinqtonun əsrlərlə yeritdiyi antitürk və antimüsəlman siyasəti ənənəsinin məntiqi nəticəsidir.

Ancaq 2025-ci ilin avqustunda Vaşinqtonda tamamilə fərqli bir razılaşmanın şahidi olduq. ABŞ rəhbərliyi Azərbaycanla münasibətlərin tarixi ənənəsinin yanlış tərəfindən tamamilə imtina edərək, qarşılıqlı faydalı münasibətlər qurulmasına start verdi. Bundan bir qədər sonra ABŞ-ın Türkiyədəki səfiri və Suriya üzrə xüsusi nümayəndəsi Tomas Barrak diplomatik səviyyədə etiraf etdi ki, keçən əsrin əvvəllərindən ABŞ-ın Osmanlıya münasibəti doğru olmamışdır, indi onu dəyişməyin zamanıdır. Bu rəsmi etiraf həm də Səfəviyə, o cümlədən Azərbaycana münasibətin yanlış olduğunun təsdiqidir.

### Zəfərin daha bir töhfəsi

Səbəbi nədən ibarətdir? Bu suala cavab diqqətləri avtomatik olaraq Azərbaycanın fəaliyyətinə çəkir. Çünki ABŞ hətta ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi real olaraq münaqişənin ədalətli həll edilməsi istiqamətində təsirli addım atmamışdır. Lakin təcavüzkar Ermənistanı müxtəlif qondarma "arqumentlər"lə dəstəkləməyə çalışmışdır (Fransa və Rusiya ilə birlikdə). Bütün bu ədalətsizliyin sonu Azərbaycanın Vətən müharibəsində əldə etdiyi möhtəşəm qələbədən və bütövlükdə postmüharibə mərhələsində Azərbaycan Prezidentinin qətiyyətli fəaliyyətindən sonra gəlməyə başladı. 2025-ci ilin avqustunda Vaşinqtonda Prezident İlham Əliyevə "Sizin gücünüz vardı, niyə Ermənistanın ərazisində hərbi əməliyyatları davam etdirmədiniz" sualı təsadüfən verilməmişdi.

Deməli, II Qarabağ müharibəsi və antiterror əməliyyatından sonrakı mərhələdə Azərbaycanın güclü və sülhsevər dövlət kimi özünü təsdiqləməsi rəsmi Vaşinqtonun əsrlərlə davam edən haqsız və ədalətsiz mövqeyini dəyişməsinə səbəb olmuşdur. Məhz Azərbaycan Prezidentinin güclü liderliyi, yüksək zəkası, mükəmməl və əsaslı dövlət quruculuğu kursuna malik olması, milli maraqları tam nəzərə alması, yenilməz iradəsi dünyanın ən güclü dövlətini strateji xartiya hazırlamağa sövq etmişdir. Bu, Azərbaycanın həm haqlı olduğunun və həm də güclü dövlət identikliyini tam qəbul etdirdiyinin göstəricisidir!

Vurğulanan məqamlar fonunda strateji xartiyanın Azərbaycan dövlətçiliyi baxımından tarixi hadisə olduğuna şübhə yeri qalmır. Azərbaycan lideri elə bir mühüm addım atmışdır ki, onun əhəmiyyəti stratejidə dövlətimiz və cəmiyyətimiz üçün faydalı olacaqdır.

Eyni zamanda, 2025-ci ildə həyata keçirilən uğurlu siyasətin məzmunu ABŞ ilə münasibətlərdəki tarixi yeniliklə məhdudlaşmır. Azərbaycan Prezidenti digər mühüm faktları da müsahibəsində vurğulamışdır. Onlar sistem halında bütövlükdə 2025-ci ilin siyasi kontekstdə hansı anlamda tarixi olduğunu ifadə edirlər.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Mercosur" layihəsi Avropanı hara aparır?

## *Cənubi Amerikaya yaxınlaşma fonunda Bakının artan rolu*

**"Mercosur" sazişi ilə bağlı əvvəllər də bir neçə dəfə yazmışıq. Amma məlum olur ki, xeyli vaxt keçməsinə baxmayaraq, nə sazişlə bağlı problemlər öz həllini tapıb, nə də mövzu gündəmdən düşüb. Ümumiyyətlə, XXI əsrdə beynəlxalq ticarət artıq ideoloji seçim, geosiyasi mövqe və strateji niyyətlərin rəsmi ifadəsinə çevrilib. Avropa İttifaqı ilə Cənubi Amerikanın "Mercosur" ölkələri arasında imzalanması nəzərdə tutulan azad ticarət razılaşması da məhz bu mənada dəyərləndirilə bilər. Söhbət 780 milyondan çox insanı, qlobal ÜDM-in, təxminən, dörddə birini əhatə edən, indiyədək Avropanın daxil olduğu ən böyük ticarət paketlərindən birindən gedir. İlk baxışda, razılaşma kağız üzərində ticarət azadlığı kimi görünə bilər.**




Lakin reallıqda Avropanın qlobal sistemdə öz yerini necə müəyyənləşdirdiyinin, hansı riskləri qəbul edib hansılarından çəkindiyinin, ən əsası isə, daxili siyasi ziddiyyətləri nə dərəcədə idarə edə bildiyinin göstəricisidir. Oxuculara xatırladaq ki, "Mercosur" ölkələri uzun müddət Avropa üçün potensial, amma problemli region kimi qəbul olunub. Buraya daxil olan Braziliya, Argentina, Uruqvay və Paraqvay kimi dövlətlər böyük bazar, zəngin xammal ehtiyatları və sürətlə artan istehlak imkanları təqdim etsə də, ekoloji standartlar, kənd təsərrüfatı subsidiyaları və siyasi qeyri-sabitlik "qoca qitə"ni onunla ehtiyatlı davranmağa vadar edib. Lakin qlobal mənzərə artıq dəyişib. ABŞ–Çin rəqabətinin kəskinləşməsi, Asiya–Sakit okean regionunda ticarət bloklarının güclənməsi, Afrikanın yeni iqtisadi oyunçu kimi formalaşması Avropanı daha çevik olmağa məcbur edir. Bu mənada, "Mercosur" Avropa üçün həm də geosiyasi balans elementinə çevrilir. Əslində, Aİ-nin razılaşmaya marağını, sadəcə, kənd təsərrüfatı məhsullarının ixracı və ya sənaye mallarının tariflərinin azaldılması ilə əlaqələndirmək düzgün olmaz. Çünki burada əsas məsələ Avropanın qlobal ticarət şəbəkəsində öz çəkisini qorumaq cəhdidir. Razılaşmanın qarşısında duran maneə isə Fransa faktorudur. Parisin etirazı da yalnız fermerlərin narahatlığı ilə izah edilə bilməz. Nəzərə alsaq ki, Fransa kənd təsərrüfatı sektoru ucuz Latın Amerikası məhsullarının Avropa bazarına daxil olmasından ciddi şəkildə ehtiyat edir, bu etirazın arxasında da dərin siyasi və ideoloji səbəblər dayanır. Yeri gəlmişkən, Fransa Aİ daxilində "strateji muxtariyyət" ideyasının əsas daşıyıcılarından biridir. Bu yanaşmaya görə, Avropa öz ərzaq təhlükəsizliyini, sənaye istehsalını və sosial modelini qlobal bazarın sərt qaydalarına qurban verməməlidir. "Mercosur" razılaşması isə bu modelə risk kimi qəbul olunur. Bundan əlavə, Fransa daxili siyasi reallıqları da nəzərə alır. Çünki kənd təsərrüfatı ölkədə milli kimliyin və sosial sabitliyin mühüm sütununa çevrilib. Fermer etirazları, populist ritorikanın güclənməsi və seçki dövrü Parisin manevr imkanlarını daraldır.




İtaliyanın mövqeyi isə daha mürəkkəbdir. Roma bir tərəfdən ixrac imkanlarının genişlənməsində maraqlıdır, digər tərəfdən isə, Fransa ilə açıq qarşıdurmadan çəkinir. Tərəddüdlər Avropa İttifaqının daha geniş problemini əks etdirir. "Mercosur" razılaşması ətrafında yaranan fikir ayrılıqları göstərir ki, Aİ artıq Brüsseldə formalaşan texnokrat qərarlarla idarə oluna bilmir. Yerli hökumət də daxili ictimai rəyin təsiri altında daha sərt mövqe tutmağa başlayıb. Maraqlıdır, bəs razılaşmanın taleyi necə olacaq? İlk növbədə, qeyd edək ki, Paraqvayda imzalanması nəzərdə tutulsa da, onun reallaşdırılması Avropa Parlamentinin əlindədir. Yəni parlamentin razılığı olmadan sənəd hüquqi qüvvə qazana bilməz. Bu isə razılaşmanı həm də ideoloji mübarizə mövzusuna çevirir. Yaşıllar, sosial-demokratlar və bəzi sol qruplar ekoloji standartlar, insan hüquqları məsələlərini önə çəkərək sənədə şübhə ilə yanaşırlar. Mərkəz sağ və liberal qüvvələr isə Avropanın qlobal rəqabət qabiliyyətini əsas arqument kimi irəli sürürlər. Ehtimal edilir ki, bu qarşıdurma Avropa siyasətinin gələcək konturlarını da müəyyənləşdirəcək.

*

Proses Azərbaycan üçün də dolayı, lakin real imkanlar yaradır. Bakı uzun müddətdir ki, Avropa ilə Qlobal Cənub arasında körpü kimi qəbul edilir. "Mercosur" razılaşmasının Avropanın Cənubi Amerika ilə iqtisadi bağlarını gücləndirdiyi bir dövrdə Azərbaycanın rolu daha da aktuallaşır. Birincisi, ölkəmiz logistika və nəqliyyat baxımından Avropa ilə Asiya arasında olduğu kimi, Şimal–Cənub və Şərq–Qərb dəhlizlərinin kəsişməsində yerləşir. Ola bilsin ki, Latın Amerikası–Avropa ticarətinin genişlənməsi fonunda enerji, xammal və yarımfabrikat axınların diversifikasiyası gündəmə gəlsin. Bu isə Azərbaycanın tranzit və enerji diplomatiyası üçün yeni imkanlar deməkdir. İkincisi, "Mercosur" ölkələrinin kənd təsərrüfatı və xammal ixracatında güclü olduğunu nəzərə alsaq, Azərbaycan emal, logistika və regional paylama mərkəzi kimi çıxış edə bilər. Xüsusilə ərzaq təhlükəsizliyi və alternativ təchizat zəncirləri kontekstində Bakı üçün yeni əməkdaşlıq modellərinin formalaşması mümkündür. Üçüncüsü, Avropanın "Mercosur" ilə razılaşma çərçivəsində daha çox çevik və praqmatik ticarət siyasəti yürütməsi Azərbaycanın Aİ ilə danışıqlarında da əlavə arqumentlər yarada bilər. Bu, enerji, yaşıl keçid və rəqəmsal transformasiya sahələrində əməkdaşlığın genişlənməsinə təkan verəcək. Beləliklə, Aİ–Mercosur azad ticarət razılaşması ətrafında gedən müzakirələr qlobal ticarətin artıq Avropanın daxili birliyinin, siyasi iradəsinin və qlobal ambisiyalarının sınağına çevrildiyini göstərir. Fransanın etirazı, İtaliyanın tərəddüdü və Avropa Parlamentindəki mübahisələr Aİ-nin qarşıdakı illərdə hansı istiqamətdə inkişaf edəcəyinə dair mesajlar verir. Bu zaman prosesləri diqqətlə izləyən və doğru mövqe tutan ölkələr isə yeni imkanlar qazana bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***

*Yeni layihələr*

# Dəniz suyu içməli olacaq



**Son illər ölkəmizdə su ehtiyatlarından səmərəli istifadənin təkmilləşdirilməsi, içməli su təchizatının yaxşılaşdırılması və bu sahəyə yeni texnologiyaların cəlb olunması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin su təhlükəsizliyi, əhalinin içməli su təminatının yaxşılaşdırılması və bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədilə 2023-cü il aprelin 12-də imzaladığı "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" sərəncamı xüsusi əhəmiyyət daşıyır.**

### *Ekspert rəyi*



**Rövşən ABBASOV,**
**coğrafiya üzrə fəlsəfə doktoru**

Alternativ su mənbəyi kimi dəniz suyunun duzsuzlaşdırılması böyük əhəmiyyət daşıyan və strateji xarakterli fəaliyyətdir. Dəniz suyunun duzsuzlaşdırılması onun həm içməli su, həm də suvarma məqsədləri üçün yararlı vəziyyətə gətirilməsi deməkdir. Bu proses zamanı suyun tərkibindəki duz kənarlaşdırılır və əldə olunan sudan müxtəlif sahələrdə istifadə imkanı yaranır.

Bu istiqamətdə ölkəmizdə genişmiqyaslı işlər həyata keçirilir. Məlum olduğu kimi, Azərbaycan əhalisinin böyük hissəsi Abşeron yarımadasında məskunlaşıb. Həmin ərazinin isə şirin su mənbələri məhduddur və Xəzər dənizi faktiki olaraq alternativ su mənbəyi kimi çıxış edir. Gələcəkdə əhalinin suya olan tələbatının ödənilməsində, xüsusilə Bakı iqtisadi rayonunda dəniz suyunun rolu daha da artacaq.

Məhz bu zərurətdən irəli gələrək dəniz suyunun duzsuzlaşdırılması layihələrinin icrasına başlanılıb. Dəniz suyunun duzsuzlaşdırılmasının iqtisadi mahiyyəti ondan ibarətdir ki, bu proses yüksək enerji sərfi və əlavə xərclər tələb edir. Bu amil duzsuzlaşdırılmış suyun maya dəyərini artırır. Lakin nəzərə alsaq ki, Xəzər dənizinin suları okean suları ilə müqayisədə daha az duzludur. Bu da ölkəmizdə yaradılan duzsuzlaşdırma müəssisələrinin iqtisadi xərclərinin İsrail, ABŞ və Səudiyyə Ərəbistanı kimi ölkələrlə müqayisədə daha aşağı olmasına imkan verir.

Belə ki, dünyada orta hesabla bir kubmetr suyun duzsuzlaşdırılması üçün, təxminən, 2 ABŞ dolları vəsait tələb olunduğu halda, bu göstərici Azərbaycanda 1–1,5 ABŞ dolları səviyyəsində dəyişə bilər. Bu isə iqtisadi baxımdan rəqabətqabiliyyətli hesab olunur və perspektivdə xərclərin daha da azalması mümkündür. Xüsusilə vurğulanmalıdır ki, ölkəmiz enerji sektorunda alternativ mənbələrə keçidi sürətləndirir. Xarici investisiyalar hesabına iri günəş və külək elektrik stansiyaları inşa edilir ki, bu da gələcəkdə enerji təminatının dayanıqlılığını artırmaqla yanaşı, duzsuzlaşdırma prosesində enerji xərclərinin azalmasına şərait yaradacaq.

Bütün bu amillərin təhlili göstərir ki, Xəzərin suyunun duzsuzlaşdırılması iqtisadi, sosial və ekoloji baxımdan səmərəli istiqamət kimi qiymətləndirilə bilər. Ekoloji baxımdan bu proses hər bir kubmetr suyun çaylardan götürülən su həcminin azalması deməkdir. Bu isə Kür çayı və digər kiçik çayların ekosisteminin qorunmasına xidmət edir.

Dəniz suyunun duzsuzlaşdırılması suya olan tələbatın ödənilməsi ilə yanaşı, ekoloji tarazlığın qorunmasına, ölkənin xarici su mənbələrindən asılılığının azalmasına və strateji dayanıqlılığın təmin edilməsinə mühüm töhfə verir. Hesab edirəm ki, gələcəkdə Azərbaycanın 825 kilometrlik sahil xətti boyunca yerləşən yaşayış məntəqələrində də oxşar duzsuzlaşdırma qurğularının istifadəyə verilməsi real və məqsədəuyğun perspektiv kimi dəyərləndirilə bilər.

Xatırladaq ki, ötən müddətdə dəniz suyunun duzsuzlaşdırılması layihəsinə dair tədbirlərin koordinasiyalı icrasının təmin edilməsi üçün aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə işçi qrup yaradılıb, bununla bağlı ətraflı müzakirələr aparılıb. Eyni zamanda, layihə üzrə müvafiq sənədlərin hazırlanması istiqamətində lazımi işlər görülüb, investorların cəlb olunması üçün müsabiqənin keçirilməsi qərara alınıb. İqtisadiyyat Nazirliyinin elan etdiyi müsabiqəyə əsasən dövlət-özəl tərəfdaşlığı çərçivəsində dəniz suyunun duzsuzlaşdırılması zavodunun inşasını həyata keçirəcək şirkətlər müəyyənləşdirilib.

Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin rəhbərlik etdiyi konsorsiumun təklifi müsabiqədə 1-ci yeri tutub. Xatırladaq ki, konsorsium tərəfindən qoyulacaq investisiya hesabına Sumqayıt Sənaye Parkında gündəlik istehsal gücü 300 min kubmetr olan zavodun tikintisi planlaşdırılır. Müəssisənin 2,5 il ərzində tikilməsi nəzərdə tutulur. Müqaviləyə əsasən, layihənin müddəti 27,5 ildir.

Prezident İlham Əliyev yanvarın 8-də Bakıda, "Gülüstan" sarayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş 240 meqavat gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimində yaxın vaxtlarda ölkəmizdə dəniz suyunun duzsuzlaşdırılması zovodunun inşasına başlanılacağını bildirib. Dövlət başçısı deyib ki, Azərbaycanın "yaşıl" enerji sahəsində fəal investorlarından olan "ACWA Power" şirkətinin yerli qurumlarla əməkdaşlıq əsasında maraq göstərdiyi layihələrdən biri də Xəzər dənizinin suyunun duzsuzlaşdırılması zovodunun inşası ilə bağlıdır. Onun sözlərinə görə, ölkəmizdə ilk dəfə inşa ediləcək müəssisənin investoru məhz Səudiyyə Ərəbistanı şirkəti olacaq.

Coğrafiya elmləri doktoru Zaur İmrani bildirdi ki, dəniz suyunun duzsuzlaşdırılması dedikdə, həmin suyun içməli və təsərrüfatın bəzi sahələri üçün yararlı vəziyyətə gətirilməsi nəzərdə tutulur. Bu istiqamətin Azərbaycan hökümətinin əsas hədəflərindən biri olduğunu diqqətə çatdıran alimin sözlərinə görə, dünyada baş verən qlobal iqlim dəyişiklikləri fonunda su çatışmazlığı ilə bir sıra ölkələr, hətta regionlar qarşılaşır. Məhz bu baxımdan, Xəzər dənizi suyunun duzsuzlaşdırılması prioritet istqamət kimi qəbul edilməlidir. Bu tip layihələrin əsas üstün cəhəti isə gələcək su qıtlığının qarşısını almaq və ətraf ərazilərin su təchizatını yaxşılaşdırmaqdan ibarətdir.

Onun fikrincə, Xəzər dənizinin suyundan daha effektiv şəkildə istifadə edərək biz içməli və təsərrüfat suyu çatışmazlığı problemini qismən də olsa həll edə bilərik: "Dəniz suyunun duzsuzlaşdırılması bizə su təhlükəsizliyinə təminat verər, içməli su qıtlığının aradan qaldırılmasına nail olmaq olar, kənd təsərrüfatı əkin sahələri üçün yeni imkanlar yarada bilər. Bütün bunlarla yanaşı, bəzi mütəxəssislər hesab edir ki, Xəzər dənizi suyunun duzsuzlaşdırılması quraqlıq risklərinin minimuma endirilməsində də həlledici rol oynaya bilər".

Yeri gəlmişkən, "ACWA Power"in Türkiyə və Azərbaycan üzrə müdiri Səlim Güvən mətbuata açıqlamasında ölkəmizin təmsil etdiyi şirkət üçün, sadəcə, bazar deyil, strateji tərəfdaş olduğunu vurğulayıb. O deyib ki, şirkət Azərbaycanda 300 min kubmetr dəniz suyunu duzsuzlaşdırmaq gücünə malik olan yeni layihəyə hazırlaşır. Səlim Güvənin sözlərinə görə, zavodun 2028-ci ilin iyununda tam hazır olacağı planlaşdırılır.

Qeyd edək ki, layihə Bakı şəhəri və Abşeron yarımadasının içməli suya artan tələbatını təmin etmək, şirin su mənbələrini şaxələndirmək, içməli su təchizatı sahəsində beynəlxalq təcrübəni və texnologiya transferini stimullaşdırmaq və xarici sərmayə cəlbi baxımından mühüm töhfədir. Eyni zamanda, pilot layihənin uğurlu icrası ölkəmizdə gələcəkdə dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində infrastruktur layihələrinin reallaşdırılmasına əlverişli imkan yaradacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qeyri-neft sektoru yüksəliş meydanıdır

**Birləşmiş Millətlər Təşkilatı (BMT) 2026-cı ildə Azərbaycanın iqtisadi artımını 2,7 faiz, 2027-ci ildə isə 2,6 faiz proqnozlaşdırır. Qurumun məlumatına görə, ötən il ölkə iqtisadiyyatı cəmi 1,6 faiz böyüyüb. BMT vurğulayır ki, 2026-cı ildə bu artım tempinin sürətlənməsi əsasən təbii qaz hasilatı və ixracının artması ilə yanaşı, qeyri-neft-qaz sektorunda davamlı yüksəliş hesabına baş verəcək. Qeyd edək ki, bu proqnozlar iqtisadiyyatın perspektivini nəzərə alaraq gözləntilər əsasında verilir.**



İqtisadiyyat Nazirliyinin proqnozlarına görə, 2026-cı ildə ÜDM 2,9 faiz, 2027-ci ildə isə 3,3 faiz artacaq. Beynəlxalq reytinq agentlikləri daha ehtiyatlıdır: S&P Qlobal 2026-cı il üzrə 2 faiz, Fitch Ratings və Moody's hər biri 2,5 faiz artım gözləyir. Digər beynəlxalq təşkilatlar da oxşar şəkil çəkir. Məsələn, Asiya İnkişaf Bankı 2026-cı ili təxminən 2 faiz artım səviyyəsində qiymətləndirir, Avropa Yenidənqurma və İnkişaf Bankı 2,5 faiz proqnoz verir, Dünya Bankı isə 2026-cı ildə 2,4 faiz artım gözləyir. Bu rəqəmlər ölkə iqtisadiyyatının neftdənkənar hissəsinin irəliləməsinə əsaslanmalıdır.

Proqnozlarda nəzərdə tutulan artımın önəmli hissəsi şübhəsiz ki, qeyri-neft sektorunun hesabına reallaşmalıdır. İqtisadiyyat Nazirliyi 2026-cı il üçün qeyri-neft-qaz sektorunda 5 faiz artım, neft-qaz sektorunda isə 2,4 faiz azalma proqnozlaşdırır. Yəni neft-qaz hasilatı azalsa da, qeyri-neft sahələrindəki inkişaf bu itkiləri kompensasiya edəcək. Artıq bu sahədə nəticələr görünür. Avropa Yenidənqurma və İnkişaf Bankının məlumatına əsasən, 2024-cü ildə qeyri-neft sektoru 6,1 faiz böyüyüb və cari dövrdə iqtisadiyyatın üçdə iki hissəsindən çoxunu təşkil edir. BMT də qeyd edir ki, 2026-cı ildə iqtisadi artım məhz təbii qaz ixracı ilə yanaşı, qeyri-neft sektorundakı yüksəlişdən qaynaqlanacaq. Xüsusilə tikinti, ticarət, turizm və informasiya texnologiyaları sahələrində canlanmanın davamı gözlənilir ki, bu da iqtisadiyyatın şaxələnməsinə təkan verəcək.

İnflyasiya üzrə proqnozlar daha da nikbindir. Xatırladaq ki, BMT 2025-ci ildə inflyasiya ilə bağlı proqnozu 3,6 faiz olaraq açıqlamışdı. Cari il üçün isə bu rəqəm 4 faizdir. 2027-ci ildə isə yenidən 3,5 faizə düşməsi gözlənilir. İqtisadiyyat Nazirliyinin hesablamalarına görə isə orta illik inflyasiya 2026-cı ildə 4,8 faiz, 2027-ci ildə 4,5 faiz təşkil edəcək. Mərkəzi Bankın son proqnozuna əsasən, 2026-cı ildə inflyasiya təxminən 5,7 faiz səviyyəsində qalacaq. Beynəlxalq maliyyə qurumları isə daha yüksək və aşağı rəqəmlərlə çıxış edir:

Hollandiyanın ING bank qrupu 2026-cı il üçün 5,3 faiz, 2027-ci il üçün 8,9 faiz gözləyir, Dünya Bankı 2025–2026-cı illər üzrə orta inflyasiyanı cəmi 2,3 faiz qiymətləndirir. Fitch Solutions 2026-cı ildə 5,5 faiz, 2027-ci ildə 4,8 faiz inflyasiya proqnozlaşdırır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə ilboyu inflyasiya 2,2 faiz olub, 2025-ci ilin yanvar-noyabrında isə 5,7 faizə yüksəlib. Yəni 2025-ci ildə qiymət artımı 2024-ə nisbətən sürətlənib, gələn il üçün müəyyən dərəcədə yumşalma ehtimalı qalır.

Nəticə etibarilə, 2026–2027-ci illər üçün proqnozlar ölkə iqtisadiyyatının qeyri neft sektorunun inkişafına güvənir. Artım tempinin 2–3 faiz aralığında qalacağı gözlənilir və bu da hazırkı qlobal duruma uyğun hesablanır. Dövlət proqnozlarına görə, növbəti illərdə sənayeləşdirmə və investisiyaların paylanması nəticəsində 2030-cu ilə qədər ÜDM-də qeyri-neft-qaz sektorunun payı təxminən 80 faizə yaxınlaşa bilər. Lakin neft-qaz ixracından asılılıq hələ qalmaqdadır. Dünya bazarındakı idxaldan asılı xammal və maliyyə şəraitində dəyişikliklər hələ də risk amili sayılır. Eyni zamanda, artan inflyasiya da daxili tələbi məhdudlaşdıra və tədbirləri gərginləşdirə bilər. Buna görə proqnozlar qeyri-neft sektorunun real inkişaf templərinə, hökumətin şaxələndirmə siyasətinin effektiv icrasına və dünya bazarındakı vəziyyətə birbaşa bağlıdır. Ümumilikdə, dayanıqlı inkişaf üçün sənaye, xidmət və kənd təsərrüfatı sahələrinə investisiyaların artırılması, idxaldan asılılığın azaldılması və maliyyə-sənaye sektorunun gücləndirilməsi zəruridir. Bu şərtlər altında Azərbaycanda 2026–2027-ci illərdə azalmış neft gəlirlərinin qarşısı qeyri-neft iqtisadiyyatının sürətli artımı ilə alınmağa çalışılacaq. Mənbələr göstərir ki, bu istiqamətdə atılan addımlar uzunmüddətli perspektivdə iqtisadi artımı və rifahı möhkəmləndirə bilər.

***XQ***

# Ölkəmiz Malayziyaya yatırımı 141 dəfə artırıb



**Ötən ilin yanvar-sentyabr ayları ərzində Azərbaycanın Malayziyaya birbaşa xarici investisiyalarının həcmi 3 milyon 665 min ABŞ dolları təşkil edib.**

Azərbaycan Mərkəzi Bankının məlumata görə, bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 3 milyon 639 min ABŞ dolları və ya təqribən 141 dəfə çoxdur. Birbaşa xarici investisiyaların ümumi həcmində Malayziyaya yatırılan Azərbaycan investisiyalarının xüsusi çəkisi 0,2 faiz təşkil edib.

2024-cü ilin yanvar-sentyabr ayları ərzində Azərbaycandan Malayziyaya birbaşa xarici investisiyaların ümumi həcmi 26 min ABŞ dolları təşkil etmişdi. Qeyd edək ki, ötən ilin 9 ayında Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 4 milyard 736 milyon ABŞ dollarından çox olub. Bu isə əvvəlki ilin eyni dövründəki göstəriciyə nisbətən 213 milyon 485 min dollar və ya 4,7 faiz artım deməkdir.

Eyni zamanda, hesabat dövrü ərzində Azərbaycandan xarici iqtisadiyyata yönəldilmiş birbaşa xarici investisiyaların həcmi isə 2 milyard 39 milyon ABŞ dolları olub ki, bu da 2024-cü ilin 9 ayındakı göstərici ilə müqayisədə 658 milyon 90 min dollar və ya 47,7 faiz çoxdur.

***XQ***

# "Xankəndi" sualtı quyulara xidmət göstərəcək

**"BP-Azərbaycan" şirkəti dünyada ilk dəfə "Xankəndi" gəmisi ilə Xəzərdəki sualtı quyulara xidmət göstərəcək. Qurum bu məqsədlə gələn həftə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun "Dərinsulu Günəşli" sahəsində bir sıra quyularda sualtı əməliyyatlara başlayacaq.**



Bu barədə BP-nin Azərbaycan–Gürcüstan–Türkiyə regionu üzrə quyular üzrə vitse-prezidenti Rassel Morris sosial şəbəkə hesabında məlumat verib. O qeyd edib ki, "Xankəndi" sualtı tikinti gəmisi tam yenidən təchiz edilib və artıq gələn həftə bir sıra sualtı müdaxilə işləri aparmaq üçün "Dərinsulu Günəşli" sahəsinə gedəcək. "Bu əməliyyat, "Oceaneering International" şirkəti tərəfindən işlənib hazırlanmış, gəmi operatoru kimi "Saipem" şirkətinin və intervensiya avadanlığı sahəsində SLB şirkətinin dəstəyi ilə innovativ borusuz müdaxilə texnologiyası BORIS sisteminin dünyada ilk dəfə tətbiq olunacaq", – deyə vitse-prezident bildirib.

Qeyd edək ki, bu texnologiya təzyiqin səmərəli nəzarətini və hasilatın artırılması imkanlarının erkən aşkarlanmasını təmin edəcək ki, bu da yatağın gələcək potensialını üzə çıxarmağa imkan verəcək. Bundan əlavə, regionda ilk dəfə olaraq sualtı işlər yarımdalma tipli qazma qurğusundan deyil, üzərinə BORIS sisteminin inteqrasiya ediləcəyi gəmidən həyata keçiriləcək.

***XQ***

# Azərbaycanın 3-cü "RoPax" gəmisi



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) yerləşdirdiyi sifariş əsasında Bakı Gəmiqayırma Zavodunda inşa edilən 3-cü "RoPax" tipli gəmi-bərə üzrə işlər qrafikə uyğun olaraq davam etdirilir.**

ASCO-dan verilən məlumata görə, layihə çərçivəsində gəminin əsas gövdəsi üzrə blokların yığılması işləri tamamlanıb. Hazırda boru xətləri quraşdırılır, elektrik sistemləri üzrə kabellər çəkilir. Eyni zamanda, havalandırma sistemlərinin montajı, mexaniki avadanlıqların quraşdırılması, yaşayış sahələrində izolyasiya, kabinlərin ayrılması kimi proseslər icra olunur.

Layihədə əvvəlki analoji "RoPax" gəmiləri ilə müqayisədə bir sıra yeniliklər nəzərdə tutulub. Bunlara təsərrüfat təyinatlı 3 tonluq bir ədəd kranın quraşdırılması, sıxılmış hava sistemi üçün əlavə saxlanc çənlərinin yerləşdirilməsi, soyuducu konteynerlər üçün elektrik qidalanma sisteminin yaradılması daxildir. Bundan əlavə, yeni gəmidə alt yük bölməsi üzrə təhlükəli qaz aşkarlama sistemi və köpüklü yanğınsöndürmə sistemi üzrə əlavə bir ədəd yanğınsöndürmə tuşlayıcısı quraşdırılacaq. Eyni zamanda, bərədə dəmir yolu xətlərinin avtomatik keçirilmə sisteminin tətbiqi, yük platforması üzərində tormozlama sisteminin qurulması da nəzərdə tutulub. Baş mühərrik otağında isə əlavə soyutma sistemi, 2 servis qapağı və eyni sayda xidməti kran quraşdırılacaq.

Bununla yanaşı, layihədə bəzi texniki həllər əvvəlki gəmilərlə müqayisədə optimallaşdırılıb. Belə ki, sərnişin liftinin quraşdırılmasından imtina edilib. Arxa köməkçi sükan qurğusu isə ləğv olunaraq, əvəzində ön köməkçi sükan qurğusunun gücü 350 kVt-dan 545 kVt-a çatdırılıb.

Xatırladaq ki, bundan əvvəl istismara verilən eynitipli "Azərbaycan" və "Zərifə Əliyeva" gəmi-bərələri kimi, yeni gəmi-bərənin də maksimal sürəti 14 uzel, uzunluğu 154,5, eni 17,7, bortunun hündürlüyü isə 7,5 metr təşkil edəcək. Daşıma qabiliyyətinə gəlincə, bu gəmi-bərə də eyni vaxtda 100 sərnişin, 56 sistern tipli vaqon və ya 50 yük avtomobili/TIR qəbul etmək imkanına malik olacaq.

Yeni gəmi ASCO-nun donanmasının müasirləşdirilməsi və ölkəmizin tranzit potensialının artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Digər gəmilər kimi, bu "RoPax" tipli gəminin də Xəzər dənizi üzərindən həyata keçirilən yük və sərnişin daşımalarında, o cümlədən Orta Dəhliz üzrə nəqliyyat əməliyyatlarında istismarı planlaşdırılır.

***XQ***

# Cənubi Qafqazda iqtisadi fəallıq artır

## *2 min 698 ton neft məhsulu Böyük Kəsik stansiyasından İrəvana yön alıb*

**2025-ci il Cənubi Qafqaz üçün, xüsusilə də Azərbaycan–Ermənistan münasibətləri baxımından əlamətdar bir il kimi tarixə düşüb. Uzun illər davam edən gərginlik və qarşıdurmalardan sonra ötən ilin avqust ayında tərəflər ABŞ-ın vasitəçiliyi ilə sülh sazişini paraflayıblar. Bu addım regionda təhlükəsizlik mühitinin köklü şəkildə dəyişməsinə şərait yaradıb, de-fakto sülhün bərqərar olmasına gətirib çıxarıb.**




Bundan əlavə, sülh prosesinin davamı olaraq ötən ilin sonlarına doğru rəsmi Bakı və İrəvan arasında ticarət əlaqələri qurulub. Prezident İlham Əliyevin 2025-ci ilin oktyabrında verdiyi qərara əsasən, işğal dövründən bəri qüvvədə olan Azərbaycandan Ermənistana yüklərin tranziti ilə bağlı məhdudiyyətlər aradan qaldırılıb. Belə ki, ötən il dekabrın 18-də Azərbaycanın neft məhsulları Ermənistana ixrac edilib. Daha öncə isə, Qazaxıstan və Rusiyadan buğdanın Azərbaycan ərazisindən keçməklə Ermənistana yola salınıb. Bütün bu addımlar Azərbaycanın sülh gündəliyinə sadiqliyini göstərir.

Ötən gün ölkəmizdən neft məhsullarının növbəti partiyası Gürcüstan ərazisindən tranzit keçməklə Ermənistana göndərilib. Ümumilikdə 2698 ton neft məhsulu daşıyan 48 vaqon Biləcəri stansiyasından Böyük Kəsik stansiyası istiqamətində yola salınıb. Daşınan yüklərə 1 742 ton "Aİ-95" markalı benzin və 956 ton dizel yanacağı daxildir.

Yeri gəlmişkən, Ermənistanın iqtisadiyyat naziri Gevork Papoyan sosial şəbəkələrdəki hesabında bildirib ki, 2026-cı il yanvar 8-nə olan məlumata görə, Azərbaycan ərazisindən dəmir yolu vasitəsilə Ermənistana artıq 8485 ton Rusiya taxılı çatıb.

O xatırladıb ki, ötən ildə Azərbaycan ərazisindən dəmir yolu ilə Ermənistana 6 580 ton taxıl gətirilib ki, bunun da 1000 tonu Qazaxıstan, 5580 tonu isə Rusiya mənşəlidir, həmçinin 1210 ton Azərbaycan benzini də çatdırılıb.

Nazir, həmçinin qeyd edib ki, Azərbaycan neft məhsullarının yeni partiyasının gəlməsi ilə əlaqədar Ermənistanda benzin qiymətlərinin aşağı düşməsi gözlənilir: "Artıq qeyd etdiyim kimi, benzin və dizel yanacağının qiymətlərinin əvvəlki ayın qiymətləri ilə müqayisədə litr üçün 80 drama (0,36 manat qədər azalması gözlənilir. Məmnuniyyətlə bildirirəm ki, bu inkişafla əlaqədar olaraq, neft məhsullarının satışı ilə məşğul olan digər şirkətlər də qiymətlərin azaldılması üzərində işləyirlər".

Qeyd edək ki, mediyada yayılan xəbərlərə görə, “Ran Oil” şəbəkəsinin yanacaqdoldurma məntəqələrində “Aİ-95” markalı benzinin litri 430 drama (1,93 AZN) satılır. Azərbaycandan alınan “Aİ-95” markalı benzinin Rusiyadan idxal edilən yanacaqdan 17 faiz daha ucuz qiymətə satıldığı deyilir.

Eskpertlərin fikrincə, iki ölkə arasında neft məhsullarından başqa, digər sahələrdə də iqtisadi–ticarət əlaqələri qurula bilər. Mütəxəssislər qeyd edir ki, Azərbaycan və Ermənistan arasında 30-dan çox məhsulun idxal-ixrac əməliyyatının qurulması mümkündür. Bu da, öz növbəsində, böyük ticarət dövriyyəsinin yaranmasına səbəb ola bilər. Təsadüfi deyil ki, bu günlərdə Ermənistan baş naziri Nikol Paşinyan bildirib ki, Ermənistan və Azərbaycan potensial qarşılıqlı ticarət üçün mal siyahılarının mübadiləsini aparır və öyrənir. Onun sözlərinə görə, Azərbaycanın neft məhsullarını Ermənistana satmaq təklifini Azərbaycan Baş nazirinin müavini delimitasiya komissiyalarının görüşündə irəli sürüb: “Biz dedik ki, belə bir imkan var (Azərbaycanın neft məhsullarını almaq). Və hər iki tərəfdən şirkətlər, səhv etmirəmsə, bizim tərəfdən 2 şirkət əlaqə qurdu”.

Yada salaq ki, hələ 2024-cü ilin aprel ayında Prezident İlham Əliyev ADA Universitetində keçirilən “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” adlı beynəlxalq forumda Ermənistanın gələcəkdə Azərbaycan qazını almasının mümkünlüyünü bəyan etmişdi. Dövlət başçısı vurğulamışdı ki, Gürcüstanın qaz təchizatının təxminən 100 faizini Azərbaycan təmin edir. Potensial qaydada, xüsusən də, Gürcüstan üçün qaz qiymətinin çox əlverişli və güzəştli olmasını nəzərə alaraq, Ermənistan da Azərbaycan qazını ala bilər. Yaxınlıq, infrastruktur baxımından, əlbəttə ki, bu cür əməkdaşlıq təbii olardı. Həmçinin Ermənistanın Qara dənizin dibi ilə çəkiləcək kabel layihəsinə qoşulmaq istəyi də məlumdur. Lakin postmüharibə dövründə uzun müddət Azərbaycanla münasibətlərin normallaşmaması səbəbindən Ermənistan bu layihəyə qoşulmaq imkanından kənarda qalıb.

Bir məqam da ondan ibarətdir ki, Azərbaycan Cənubi Qafqazın inkişafında, iqtisadi-ticarət əlaqələrinin genişlənməsində və regionda təhlükəsizliyin təmin olunmasında hər zaman lider mövqeyində olub. Bu çərçivədə Azərbaycan və Gürcüstan region üçün praktiki əhəmiyyət kəsb edən məsələlər — daşımalar, enerji sahəsi və potensial ticarət münasibətləri ilə bağlı işlər üzrə üçtərəfli məsləhətləşmələrin başlanmasını bir neçə dəfə müzakirə etməyi təklif ediblər. Lakin rəsmi İrəvan bu təşəbbüslərdən hər dəfə imtina edib.

Sonda qeyd edək ki, TRIPP (Zəngəzur dəhlizi) layihəsinin regional nəqliyyat bağlantıları baxımından yeni və strateji imkanlar yaradacağına dair gözləntilər yüksəkdir. Bu dəhlizin istifadəyə verilməsi Cənubi Qafqazda nəqliyyat-logistika şəbəkəsinin şaxələndirilməsinə, regionun beynəlxalq tranzit marşrutlarındakı rolunun güclənməsinə və ölkələr arasında iqtisadi inteqrasiyanın dərinləşməsinə mühüm töhfə verə bilər. Eyni zamanda, Zəngəzur dəhlizi Azərbaycan ilə Ermənistan arasında ticarət münasibətlərinin formalaşmasına və genişlənməsinə əlavə impuls yaradar.

***Musa BAĞIRLI***
***XQ***

*Araşdırma*

# Yüksək qiymət və aşağı keyfiyyət xidmət məmnunluğu yaratmır

**Azərbaycanda kommunal xidmətlərin keyfiyyəti daim diqqət mərkəzində saxlanılır. “Azərbaycan Respublikasında kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsi” və digər rəsmi sənədlərlə qarşıya qoyulan məqsədlər – şəffaflığın artırılması, xidmət infrastrukturunun gücləndirilməsi, yeni sistemlər qurulması yolu ilə vətəndaşlara rahatlıq yaradılması, eləcə də qaz, enerji və su təchizatında yüksək səmərəliyin gerçəkləşdirilməsi məqsədilə genişmiqyaslı layihələr həyata keçirilir. Lakin bütün bunlara baxmayaraq, hələ də bir çox hallarda yenilənməyən boru kəmərləri, elektrik transformatorları və avadanlıqları xidmətin keyfiyyətini aşağı salır.**



Bir çox hallarda xidmət təchizatçılarının səmərəli idarə olunması və müştərilərə qarşı məsuliyyətli davranış kimi bir məsələlər də unudulur. Eyni zamanda, enerji, su və təbii qazın fasiləsiz çatdırılmasında fasilələrə yol verilir. Məişətdə “mavi yanacaq” təhlükəsizliyinə əməl olunmaması və içməli suyun fasiləsiz verilməməsi diqqətdən kənarda qalır. Elektrik və su itkisinin minimuma endirilməsində ləngliк müşahidə edilir. Bütün bunlarla yanaşı, şikayətlərin vaxtında həll edilməməsi, müştərilərlə səmərəli ünsiyyət qurulmaması da sadalan problemlər sırasında yer alır.

Ekspertlərin fikrincə, kommunal xidmətlərdə keyfiyyətin əldə olunması üçün, ilk növbədə, investisiyaların cəlbi, texniki modernləşdirmə və səmərəli idarəetmə gerçəkləşdirilməlidir. Məsələn, ölkədə əhalinin təbii qaz təminatı ilə bağlı problemin həlli üçün bu sahədə texniki çətinliklər aradan qaldırılmalı, infrastruktur yenilənməli və təzyiq səviyyəsinin səmərəsizliyinin aradan qaldırılmasına əsaslı investisiya qoyuluşu reallaşdırılmalıdır. Bir sözlə, respublika daxilində getdikcə artan təbii qaz tələbatının təmin edilməsi, istehlakçılara fasiləsiz və etibarlı şəkildə təbii qazın verilməsi, itkilərin texniki normalar səviyyəsinə çatdırılması, xidmətin keyfiyyətinin yüksəldilməsi, istismar xərclərinin, həmçinin ətraf mühitə mənfi təsirlərin azaldılması prioritet istiqamətlər olaraq daim diqqətdə saxlanılmalıdır.

Kommunal xidmətlər sırasında önəmli yer tutan sudan istifadə məsələsinə gəldikdə isə ekspertlərin fikrincə, ölkədə bu qiymətli təbii sərvətin ehtiyatlarının və ondan istifadə uçotunun təkmilləşdirilməsi və məsuliyyətli şəkildə idarə edilməsi, istehlakçılara fasiləsiz və keyfiyyətli içməli su verilməsi, ümumilikdə, sözügedən təsərrüfatın fəaliyyətində səmərəliliyin yüksəldilməsi istiqamətində təkmil normativ–hüquqi baza yaradılmalıdır.

Yuxarıda vurğulananlarla yanaşı, respublikada mövcud rayon istilik qazanxanaları vasitəsilə təmin edilən mərkəzləşdirilmiş istilik təchizatı sistemlərinin səmərəsizliyi, xüsusən də inkişaf etmiş ölkələrin bu istiqamətdəki təcrübəsi nəzərə alınaraq, hazırda fəaliyyət göstərən rayon istilik qazanxanaları tədricən ləğv olunmalıdır. Onların əvəzində isə yeni texnologiyalara (məsələn, bərpaolunan enerji texnologiyaları, istilik nasosları) əsaslanan müasir tipli məhəlli istilik sistemləri qurulmalıdır. Bununla belə, rayon istilik qazanxanalarının eyni vaxtda məhəlli sistemlərin xeyrinə ləğv edilməsinin iqtisadi baxımdan əlverişli hesab olunması məsələsi də diqqətdə saxlanılmalıdır.

### *Ekspert rəyi*



**Vüqar ORUC,**
**Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri**

Ölkədə kommunal və məişət xidmətləri üzrə qiymət artımları illərdir ki, müşahidə olunur, lakin bu proses sosial həssaslıq nəzərə alınmaqla mərhələli şəkildə həyata keçirilir. Belə ki, Azərbaycan sosialyönümlü dövlət olduğu üçün qiymət artımları, ilk növbədə, qeyri-yaşayış obyektlərinə tətbiq edilir. Əhali üçün nəzərdə tutulan kommunal xidmətlərdə isə artımlar daha sonra və nisbətən cüzi həcmdə reallaşır.

Hər il manatın alıcılıq qabiliyyətində dəyişiklik olur, inflyasiya faizləri açıqlanır. Bu isə xidmətlərin maya dəyərinin artmasına gətirib çıxarır. Nəticədə, həm dövlət, həm də özəl sektor tərəfindən göstərilən xidmətlərin təklif qiymətləri də artırılır. Lakin bu artımlar əhalinin yaşayışına ciddi mənfi təsir göstərməməsi üçün mərhələli şəkildə aparılır.

Ümumiyyətlə, əgər vergilərdə artım baş verirsə, yeni vergi istiqamətləri müəyyənləşdirilirsə, dövlət büdcəsinin xərcləri optimallaşdırılırsa və qənaət rejiminə keçilirsə, bu, müəssisələrin daxili borclarını azaltmaq üçün qiymət artımlarını şərtləndirir. Artıq istilik şəbəkələri, lift xidmətləri və digər oxşar sahələrdə maya dəyərinin artması ilə bağlı məlumatlar mövcuddur. Eyni zamanda, Bakı Metropolitenində də ciddi büdcə kəsiri yaşandığı, əldə edilən gəlirlərin xərcləri ödəmədiyi bildirilir. Bu baxımdan 2026-cı ildə də müəyyən kommunal xidmətlər və məişət xərcləri üzrə qiymətlərin mərhələli şəkildə, əhali üçün ciddi problem yaratmayacaq formada artırılması gözlənilir.

## Xidmətlərdə səmərəlilik problemi

Enerji səmərəliyi iqtisadi yükün azaldılması ilə bərabər, həm də dayanıqlı inkişafın, enerji təhlükəsizliyinin və ətraf mühitin qorunmasının müasir tələblərindən biridir. Enerjinin istehsalı, ötürülməsi və istifadəsi mərhələlərində səmərəliyin təmin edilməsi, sistemli şəkildə israfın azaldılması isə dövlət siyasətinin prioritet istiqamətidir. Bu, ölkənin strateji sənədlərində də öz ifadəsini tapır və energetika sektoru ilə bərabər, iqtisadiyyatın digər sahələrinə də təsir göstərir.

Azərbaycanın enerji səmərəliyi siyasətinin hüquqi bazasını əsasən 2021-ci ildə qəbul edilən “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Qanun, habelə “Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi” təşkil edir. Bu sənədlər enerji səmərəliyini gücləndirir, Energetika Nazirliyi isə bu prosesin əsas icraçısı kimi çıxış edir. Yol Xəritəsi, eyni zamanda, enerji istehsalı və istehlak sahələrində layihələrin həyata keçirilməsini şərtləndirir. Burada əsas məqsəd enerji istehsalında və tələbatda səmərəliyin artırılması, enerji tutumunun ÜDM-də payının azaldılması, kommunal xidmətlərdə israfın, eləcə də artıq xərclərin azaldılması, “yaşıl” texnologiyaların tətbiqi və bərpaolunan enerji mənbələrinin genişləndirilməsi, nəhayət, enerji təhlükəsizliyinin möhkəmləndirilməsidir.

Son illərdə Azərbaycan elektrik enerjisinin ötürülməsi və paylanmasında itkiləri əhəmiyyətli dərəcədə azalda bilib. Belə ki, paylayıcı şəbəkələrdə itkilər 19,4 faizdən 8,5 faizə düşüb, yəni çoxşaxəli modernləşdirmə və texnologiyaların tətbiqi nəticəsində, təqribən, 2 dəfə yaxşılaşma müşahidə edilib. Bu isə o deməkdir ki, həm iqtisadi səmərəliyin artırılmasına, həm də kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsinə nail olunub.

Ekspertlərin hesablamalarına görə, təkcə binalarda enerji səmərəliyi tədbirlərinin tətbiqi ilə istehlakı 50-65 faiz və daha çox azaltmaq mümkündür. Ev təsərrüfatlarında izolyasiya, səmərəli istilik sistemləri, LED işıqlandırma və s. texnologiyalara önəm verilməsi ilə ölkə üzrə enerji yükünün xeyli azalması bunun bariz ifadəsidir.

Avropa ölkələrində enerji səmərəliyi sahəsində müxtəlif yanaşmalar tətbiq edilir. Məsələn, Almaniya və Skandinaviya ölkələrində binaların yüksək enerji səmərəliyi standartlarına önəm verilir, dövlət subsidiyaları, eləcə də vergi güzəştləri ilə bərpa olunan enerji və izolasiya layihələri dəstəklənir. Fransa və Niderland kimi dövlətlərdə isə istehlakçı davranışını dəyişdirmək üçün güclü maarifləndirmə kampaniyaları həyata keçirilir və məcburi enerji auditləri icra olunur. Nəticədə, hüquqi baza ilə yanaşı, təhsil, subsidiyalar və yerli icmalarla əməkdaşlıq genişlənir, enerji səmərəliyinin real təsiri güclənir.

Bu ölkələrdən fərqli olaraq, Azərbaycanda enerji səmərəliyi siyasətində “yaşıl” iqtisadiyyata keçid prinsipinə üstünlük verilir və bununla da həm yerli bazar, həm də beynəlxalq tərəfdaşlar üçün önəmli model yaradılır. Məsələn, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında “ağıllı” şəbəkələr, o cümlədən müasir idarəetmə sistemlərinin tətbiqi ilə enerji istehsalı və paylanmasında səmərəlilik artırılır, kommunal xidmətlərdə israf azalır. Gələcəkdə bu təcrübənin bütün ölkə səviyyəsində yayılması nəzərdə tutulur.

Kommunal xidmətlərdə israfın azaldılması enerji sektoruna fayda verməklə bərabər, həm də əhalinin rifahına birbaşa təsir edir. Başqa sözlə, azalmış enerji itkisi və səmərəli şəbəkə idarəçiliyi nəticəsində kommunal tariflərin iqtisadi əsaslandırılması, xidmət keyfiyyətinin yüksəldilməsi və ümumiyyətlə, daha ucuz xidmətlərin göstərilməsi sosial şəraitə müsbət təsir göstərir. Bununla yanaşı, məişət səviyyəsində enerji səmərəliyi məqsədilə qəbul edilən məişət texnikası və kondisionerlər üçün yeni standartlar istehlakçıların xərclərini azaldaraq kommunal israfı önləyir.

Enerji səmərəliyi və kommunal israfın azaldılması Azərbaycanda təkcə energetika sektorunun deyil, ümumi sosial-iqtisadi inkişaf strategiyasının da ayrılmaz hissəsidir. Bu istiqamətdə əldə olunan irəliləyişlər, məsələn, enerji itkilərinin azalması, hüquqi bazanın yenilənməsi, “yaşıl” enerji layihələri və informasiya sistemlərinin yaradılması uzunmüddətli dayanıqlı inkişaf üçün əsas şərtlərdir.

## Keyfiyyət və şəffaflıq

Sonda onu da qeyd edək ki, Azərbaycan hökuməti kommunal xidmətlərin idarə olunmasında rəqəmsal transformasiyanın həyata keçirilməsi istiqamətində mühüm addım atmağa başlayıb və kommunal xidmətlərlə bağlı Vahid İnformasiya Sisteminin yaradılmasını qarşıya mühüm vəzifə kimi qoyub. Bununla bağlı təsdiqlənən Yol Xəritəsində kommunal qurumlar üzrə vahid abunəçi kodu mexanizminin qurulması da nəzərdə tutulub.

Kommunal sahədə Vahid İnformasiya Sistemi bu sektorda idarəetmənin səmərəli təşkilini həyata keçirəcək. Sistem kommunal xidmətlərlə bağlı zəruri məlumatların toplanılması, emalı, vahid platformada birləşdirilməsi, bu məlumatlar əsasında monitorinqlərin və analitik təhlillərin aparılması, proqnozların hazırlanması, eləcə də vətəndaşlara mərkəzləşdirilmiş elektron xidmətlərin göstərilməsi üçün əsas infrastruktur olacaq. Bu sistem vasitəsilə kommunal xidmət sahəsində həm dövlətin idarəetmə funksiyası güclənəcək, həm də xidmət keyfiyyəti və şəffaflıq əhəmiyyətli dərəcədə artacaq.

Vahid İnformasiya Sistemi abonentlərə kommunal xidmətlərlə bağlı məlumatları vahid platformadan əldə etməyə və ödənişləri daha rahat həyata keçirməyə imkan verəcək. Ən başlıcası, bu sistem vasitəsilə istifadəçilər vahid portal üzərindən elektrik, qaz, su, istilik və digər kommunal xidmətlər üzrə borclarını, sərfiyyat göstəricilərini və tarifləri izləyə biləcəklər. Sistemin təqdim edəcəyi e-xidmətlər sayəsində vətəndaşlar onlayn ödəniş, elektron müraciət, xəbərdarlıqların alınması, avtomatik ödəniş planlaşdırılması və rəqəmsal arxivdən istifadə kimi imkanlara malik olacaqlar.

***Vaqif BAYRAMOV***
***XQ***

# “Bakı” və “Baku” axşam qəzetləri paytaxtın mətbu aynası idi

*Nəsir İmanquliyev: “Çalışın imzanızın məsuliyyətini dərindən dərk edin. Düşünün ki, haradasa sizi bir nəfər oxuyur. Bax, o oxucu naminə yalan yazmayın, saxtakarlıq etməyin!”*

**Yola saldığımız il milli mətbuatın 150 illik yubileyi ilə tarixə qovuşdu. O əlamətdar tarixdə “Əkinçi”, “Füyuzat”, “Molla Nəsirəddin” məktəbləri ilə yanaşı, “Bakı” məktəbinin də olduğunu kimsə inkar etmədi. 68 ildir Bakının aynasına çevrilən “Bakı”nın təməli 1958-ci il yanvarın 10-da qoyulmuşdur. Beş il sonra, 1963-cü il iyunun 1-də isə rusdilli auditoriya üçün nəzərdə tutulan "Baku" qəzeti nəşr olunmağa başlamışdır. İndi demokratik dəyişikliklərin qızğın çağında, həyatın bütün sahələrinin əsarətdən azad olunduğu bir zamanda yeni qəzet, jurnal, media və kommunikasiya vasitəsi təsis etmək adi hal almışdır.**












O zamanlar, 68 il öncə isə bürokratik partiya sistemində bütün təbliğat-informasiya işinin bir əldə cəmləşdiyi vaxtda “Bakı”nın, sonra isə “Baku”nun axşam qəzetləri kimi nəşr edilməsi respublika paytaxtının ictimai-siyasi həyatında əlamətdar hadisə idi. Bu qəzetlərin əsasını Nəsir Əsədulla oğlu İmanquliyev qoymuşdur və onlara düz 30 il rəhbərlik etmişdir. İndi iftixar hissi ilə demək olar ki, Nəsir müəllimin redaktoru olduğu şəhər qəzetləri “Əkinçi”, “Füyuzat”, “Həyat”, “İrşad”, “Molla Nəsirəddin” kimi Azərbaycan milli mətbuatında dərin iz qoymuşdur.







Artıq 28 ildir Azərbaycan jurnalistikasının patriarxı, nüfuzlu alim, pedaqoq, ictimai xadim professor Nəsir İmanquliyev cismən aramızda yoxdur. O, milli mətbuatımızda 60 ildən artıq fəaliyyəti ilə özündən sonra parlaq iz qoymuş və zəngin biliyi, böyük təşkilatçılıq qabiliyyəti, yüksək mədəniyyətə malik xüsusiyyətləri ilə insanlığa, ziyalılığa nümunə olmuşdur.

### Axşam qəzetinin məşhurluğu redaktorunun peşəkarlığı ilə bağlı idi

"Bakı" o vaxtlar hər seyə qadir olan partiyanın çətiri altında müdafiə edilən nüfuzlu qəzetlərin sırasında özünə yaşamaq hüququ və böyük nüfuz qazanmaq uğrunda səy göstərirdi. İlk illərdə az tanınan axşam qəzeti qətiyyətlə, lakin zahiri hay-küysüz ayağa durmaq üçün özünə yol açdı, elə bir xüsusi gərginlik keçirmədən məşhurlaşdı, "simasını" təsdiqlədi. Günün sonunda – saat beş-altı radələrində köşklərin qarşısında "Bakı" axşam qəzeti üçün yaranan növbələr hələ yaddaşlardan silinməyib. O dövrü xatırlayan insanlar səmimiyyətlə qeyd edirlər ki, oxucular qəzeti açanda peşman olmurdular, kiçik formatlı "Bakı"nın səhifələrində onları narahat edən, doğma şəhərləri üçün aktual olan məsələlər barədə məlumatlar əldə edirdilər…

Axşam qəzetinin məşhurluğu, ilk növbədə, onun redaktorunun əməyi, zəhməti, həm də peşəkarlığı ilə bağlı idi. Şamil Şahməmmədov, Şaban Şabanov, Cəmşid Əmirov, Fazil Rəhmanzadə, Nüsrət Kəsəmənli, Şamil Qurbanov, Famil Mehdi, Sabir Gəncəli, Mark Peyzel, Viçoslav Sidorenko, Ağahüseyn Hüseynov, Ənvər Məşədiyev, Zemfira Məhərrəmli kimi istedadlı qələm sahiblərinin çalışdığı “Bakı” və “Baku” qəzetlərində Nəsir müəllimdən sonra üçüncü redaktor məsuliyyətini üzərinə alan Ağahüseyn Hüseynovun dili ilə desək: "Bakı" adlı gəmini məharətlə idarə edib, onu cəsarətlə böyük sulara çıxarıb. Nəsir müəllim o çətin illərdə arxa axtaran yazarları həssaslıqla qoruyub. Tezliklə, axşam qəzeti böyük formatda çıxmağa başlayıb, sonra isə Nəsir müəllim rusdilli "Baku" qəzetinin də nəşrinə nail olub və ötən əsrin 80-ci illərinin sonlarınadək bu qəzet cütlüyünün "yüyənini" öz əlində cəsarətlə saxlayıb. O, yolboyu qarşıya çıxan maneələrdən yan keçməyi öyrənib və başqalarını da buna öyrədib.

Onun həyat yoluna qızılgüllər səpilməyib. Yuxarı qalxmalar bəzən ağır enmələrlə əvəzlənib, lakin Nəsir müəllim heç vaxt təslim olmurdu, heç vaxt həyatdan gileylənməyib. O, üzərinə düşən çətinliklərin altında, sözün əsl mənasında, möhkəm yay kimi sıxılıb və bəzən elə görünüb ki, daha dözməyəcək, o vaxtkı Bakı şəhər Partiya Komitəsində, həmçinin MK-da yüksək vəzifə kürsülərində əyləşən və onu sevməyən məmurların hücumlarının qarşısında sınacaq. Lakin yay düzəlib, Nəsir müəllim özündə dirçəlməyə güc tapıb. Öz doğma qəzet işinə qayıdıb və başqa hər seyi, bütün xoşagəlməz məqamları unuduraraq, yoluna davam edib...

### Nəsir müəllimin başqalarında jurnalistlik vergisini çox həssaslıqla "görməsi" adamı heyran qoyurdu

Uzun həyat yolunda o dəfələrlə qamçılanmışdı. Kənara çəkilmək, sakit ömür yaşamaq, bəlkə də, daha asan olardı, lakin Nəsir müəllimin təbiəti belə deyildi. O, əsl döyüşçü idi, sümüyündən iliyinədək qəzet isinə, öz övladlarına – "Bakı" və "Baku" qəzetlərinə sədaqətli idi. Nəsir müəllimin başqalarında jurnalistlik vergisini çox həssaslıqla "görməsi" adamı heyran qoyurdu. O, təcrübəli bir psixoloq, məharətli seleksiyaçı kimi, qəzet üçün əməkdaş seçəndə yanılmırdı və uzun müşahidələrdən sonra üzərində dayandığı şəxsləri tərəddüd etmədən istehsalatdan, tələbə auditoriyasından birbaşa qəzetdə işləməyə dəvət edərdi. Nəsir müəllimin məktəbini sonralar yalnız peşəkar jurnalist kimi deyil, həm də ən müxtəlif sahələrdə tutduqları vəzifələrdə özlərini yüksək səviyyədə təsdiqləyən yüzlərlə insan keçmişdir. Onların arasında həm dövlət adamları, həm elm xadimləri, həm də hərbçilər və çox sayda yüksək səviyyəli ali məktəb müəllimləri vardı. Lakin onların hamısı özlərinin ustadları sandıqları Nəsir müəllimin yetirmələri kimi qəbul edirdilər”.

### Qəzet səlahiyyətli nümayəndədir, arzuedilən olması üçün onu əsaslı şəkildə insanlar və dövlət üçün faydalı etmək lazımdır

“Jurnalist, dəqiq, qərəzsiz, vicdanlı olmalıdır!” nidası ilə qələm çalıb qəzet nəşr edən Nəsir İmanquliyevin artıq aforizmə çevrilən bu kəlamı o zamanlar üçün Mərkəzi Komitədə belə etalon idi. Qəzet səlahiyyətli nümayəndədir, o, hər evə, hər ailəyə girməlidir. Qəzetin arzuedilən olması üçün onu əsaslı səkildə, insanlar və dövlət üçün faydalı etmək lazımdır. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) professoru, 60 ildən çox respublikanın bu aparıcı ali məktəbində dərs demiş professor Nəsir İmanquliyevin mühazirələri də məhz bu yüksək amillərə istiqamətlənirdi. Onun mühazirələri ibrətamiz olurdu, jurnalistlik məktəbində qazanılan zəngin təcrübə ilə yoğrulurdu. Bu keyfiyyətlər professor Nəsir İmanquliyevdə hələ gəncliyindən, ötən əsrin uzaq 30-cu illərində onun – qazma idarəsinin texnikinin o vaxtlar öz sanbalına görə respublikada birinci olan "Kommunist" qəzetinin redaksiyası ilə əməkdaşlığa dəvət edildiyi vaxtlardan formalaşmışdı. Sonra o, gənc jurnalistin yaradıcılıq ustalığının cilalandığı "Gənc işçi", "Yeni yol" kimi məşhur qəzetlərdə çalışmışdır. Faşizmlə müharibə illərində Nəsir müəllim "Döyüşən Krım" qəzetini qurmuş, Abbas Zamanov, Rəsul Rza, Zeynal Cabbarzadə kimi qələm sahibləri ilə birlikdə hərbi jurnalistikanın əsasını qoymuşdur. İkinci Dünya müharibəsində tarix yaradan Milli diviziyalarımızın qəhrəmanlıq salnaməsi məhz bu qəzetin səhifəsində yaradılmışdır. 1943-cü ildə ordudan tərxis olunduqdan sonra yenidən "Kommunist" qəzetinə qayıtmış, burada “Döyüşən Qələm”, “Cəbhədən məktublar” rubrikalarını və “Ədəbiyyat dərnəyi”-ni qurmuşdur. Onun jurnalistika ilə yolunun müvəqqəti ayrıldığı vaxtlar da olmuşdur. Bakı Şəhər Sovetində, Mərkəzi Komitədə təbliğat-təşviqat şöbəsinin müdiri, Radio-İnformasiya Baş İdarəsinin rəisi, Azərbaycan Dövlət Teleradio Verilişləri Komitəsində sədr müavini kimi fəaliyyət göstərsə də, bu, uzun sürməmişdir. Nəsir müəllim bütün fəaliyyət istiqamətlərində mətbuat məsələləri ilə məşğul olsa da, qəzetçilikdən kənarda qalmağı bacarmaz və bunu heç istəməzdi də. Təsadüfi deyildir ki, o, mənalı və şərəfli ömrünün 30 ilini "Bakı" və "Baku" qəzetləri ilə bağlamışdır. Təməlini qoyub peşəkar kollektivini formalaşdırmış, onu dövrünün məşhur, nüfuzlu mətbu orqanına çevirmişdir.

### Milli mətbuatı milli məfkurənin təməl prinsipi hesab edirdi

Bütün dahilər, istedadlı insanlar kimi Nəsir müəllimin ömrünün son illəri çətin keçmiş, çox zaman üzücü ağrılarla müşayiət olunmuşdur. Doğmalarının itkisi, ulu öndər Heydər Əliyevə olan hücumlar, onunla qohumluq bağına malik olmasına görə üzləşdiyi təhdidlər onu həyatının mənası hesab etdiyi qəzet işindən ayrılmağa məcbur etmişdir. Görmə qabiliyyətinin zəifləməsi, ürəyindəki çoxsaylı ağrılar, üzləşdiyi haqsızlıqlar onu əysə də, sındıra bilməmişdir. Onun yaxından tanıyanlar bilir ki, “Unudulmaz Nəsir müəllim uzun ömründə nə qədər haqsızlıqlar, inciklikər olmuşdu – buna hər kəs tab gətirə bilməzdi. Lakin bu insan, böyük şəxsiyyət ruhdan düşməmiş, dik durmuş, heç nəyin belə qalmayacağına inamını, ümidini itirməmişdir”. 87 illik ömür payının zirvəsində o, Əməkdar jurnalist, Əməkdar mədəniyyət işçisi, "Qızıl qələm" mükafatı laureatı, alim, pedaqoq, ictimai-siyasi xadim kimi uğurlara, nailiyyətlərə imza atdı. Bakının aynasını yaratdı. Təhdidlərə, təzyiqlərə rəğmən “Yazı yazın, səs salıb mis kimi cingildəsin!” deyib, adı ilə bağlı məktəb yaratdı.

Nəsir müəllim millətini, məmləkətini, sənətini sevirdi. Həsən bəy Zərdabi, Ömər Faiq Nemanzadə, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə kimi milli mətbuatı milli məfkurənin təməl prinsipi hesab edirdi. Onun keşiyində ləyaqət və sədaqətlə dayanırdı. Bu ustad qələm sahibinin, nüfuzlu pedaqoqun irsi bu gün də yaşayır. Nəvə və nəticələrinin, mənəvi varislərinin təməlini qoyduğu “İrs”, “Baku” və “Nargis” dərgiləri, Bakı Media Mərkəzi, Bakı Şəhər İcra Hakimiyyətinin xüsusi qayğısı, diqtəsi, iradəsi ilə artıq rəqəmsal rejimdə oxuculara təqdim olunan “Bakı” və “Baku” qəzetləri (Baki-baku.az) “Çalışın imzanızın məsuliyyətini dərindən dərk edin. Düşünün ki, haradasa sizi bir nəfər oxuyur. Bax, o oxucu naminə yalan yazmayın, saxtakarlıq etməyin!” nidası ilə qələm çalan ustad jurnalistin ənənələrini davam etdirir.

*Şərəf CƏLİLLİ*

---

*Qayıdış ünvanları*

# Ağdərə ağ günlərinə qovuşur

## *Rayonun daha 4 kəndində ilk köç sevinci yaşandı*

**Xoş arzularla, yeni ümidlərlə qarşıladığımız 2026-cı ilin elə ilk günlərindən işğaldan azad edilmiş torpaqlarımızda daha bir bayram əhvali-ruhiyyəsi yaşandı. Yanvarın 9-da Vətən həsrəti sona çatan keçmiş məcburi köçkünlərin köç karvanları ilk dəfə Ağdərənin 4 kəndinə istiqamət götürdü, rayonun Çıldıran, Aşağı Oratağ, Heyvalı və Çapar kəndlərinə həyat qayıtdı.**

Bununla da ölkəmizin müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış 337 nəfərdən ibarət 89 ailənin ən böyük arzuları reallığa çevrildi, təkcə ağdərəlilər deyil, bütün xalqımız yeni qayıdış müjdəsinə sevindi.

İlk mərhələdə Çıldıran kəndinə 48 nəfərin (13 ailə), Aşağı Oratağa 119 (31 ailə), Heyvalı kəndinə 74 (19 ailə) və Çapar kəndinə 96 nəfərin (26 ailə) köçürülməsi reallaşdı.

Ağdərəyə çatan köç karvanlarını Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, həmçinin Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları qarşıladılar. Evlərin açarlarının təqdim edilməsi mərasimində çıxış edən Xankəndi şəhərində, Xocalı və Ağdərə rayonlarında Prezidentin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov və Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Telman Kərimli keçmiş məcburi köçkünləri təbrik edərək, onlara xoşbəxt və firavan həyat arzuladılar.





Qeyd olundu ki, köç olan kəndlərdə yaşayış üçün bütün zəruri infrastruktur yaradılıb. Yaşayış evləri bərpa olunub, elektrik, qaz, içməli su, yol və rabitə xətləri istifadəyə verilib. Köçən ailələrin məşğulluq məsələsi isə daim diqqət mərkəzindədir.

Ağdərə sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür etdilər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirdilər, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət dilədilər.

**“Xalq qəzeti” olaraq biz də ağdərəlilərin sevincinə qoşularaq, onların təəssüratlarını öyrəndik. Aşağı Oratağ sakini Qənimət Rüstəmov bildirdi ki, doğma yurda qayıtmaq, burada daimi yaşamaq onun ən böyük xəyalı, müqəddəs arzusu olub:**

– Kəndimiz işğal olunanda 38 yaşım vardı. İndi 70 yaşındayam. Qürur duyuram ki, yenidən qurulmuş, gözəl Oratağın ilk sakinlərindənəm, övladlarımla, nəvələrimlə daimi yaşamaq üçün bu gözəl yerlərə dönmüşəm. Həsrət dolu günlərimiz geridə qaldı. Daha bundan sonra doğma kəndimdə, yeni təmir olunmuş evimdə rahat yaşayacağam. Buna görə də sevincimin həddi-hüdudu yoxdur. Bu gündən daha məcburi köçkün deyiləm və mənim kimi, həmkəndlilərimin də ən böyük arzusu reallığa çevrilib. Çox şükür, Allaha!

**Adilə Köçəriyeva da qayıdış sevincini dilə gətirdi:**

– Məcburi köçkün kimi Bərdədə məskunlaşmışdıq. Əlbəttə ki, Vətənimizin hər qarışı doğmadır, əzizdir. Ancaq ata-baba yurdunun yerini heç nə verə bilməz. Ona görə də bugünkü köçdə öz kəndlərinə qayıdan insanların hamısı sonsüz fərəh və qürur içindədir. Bütün yol boyu dua edib Allahdan şəhidlərimizə rəhmət diləmişəm. Allah Prezidentimizə cansağlığı, uzun ömür versin, ordumuzu qorusun! Bir də dua etmişəm ki, Allah xalqımızın birliyini heç zaman pozmasın! Amin!

Doğma sakinlərinin eyni gündə Ağdərənin 4 kəndinə qayıdışı təkcə onların deyil, hamımızın sevinci və qürurudur. Sözsüz, bu günlər də şanlı zəfər tariximizin növbəti qızıl hərflərlə yazılmış səhifələrinə çevriləcək.

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

**Ağdərə**

*Dünya evimizdir*

# Xəzər, bizdən uzaqlaşma!

## *Bu nadir hövzənin səviyyəsinin enməsi yeni ildə regional əməkdaşlığı qaçılmaz edir*

**Xəzər dənizi 5 sahilyanı dövlətin ortaq sərvəti olmaqla yanaşı, Avrasiya məkanının ekoloji, iqtisadi və geosiyasi tarazlığında həlledici rol oynayan nadir su hövzələrindən biridir. Tarix boyu Avropa ilə Asiyanı birləşdirən əsas ticarət yollarının kəsişmə nöqtəsində yerləşən bu dəniz yalnız coğrafi anlayış deyil, həm də mədəniyyətlərin, iqtisadi münasibətlərin və siyasi maraqların qovuşduğu strateji məkandır.**



Qədim İpək Yolu və onun qolları Xəzər hövzəsini qlobal mübadilənin mühüm həlqəsinə çevirib, regionu müxtəlif sivilizasiyalar üçün cazibə mərkəzinə döndərib. Bu xüsusiyyətlər Xəzərin tarixən regional güc mərkəzləri üçün daşıdığı əhəmiyyəti formalaşdırıb və dənizi sahilyanı ölkələr arasında qarşılıqlı əlaqələrin əsas vasitəçilərindən birinə çevirib.

Müasir dövrdə Xəzər dənizinin rolu artıb. Bu gün Xəzər üzərində yerləşən limanlar Avropa–Asiya ticarət əlaqələrinin strateji qovşağı kimi çıxış edir. Onun üzərində yerləşən limanlar Avropa–Asiya ticarət əlaqələrinin strateji qovşağına çevrilib və bu marşrutlar vasitəsilə hər il, təxminən, 50 milyon tona yaxın yük daşınır. Bu yük dövriyyəsi yalnız iqtisadi əhəmiyyət kəsb etmir, həm də region ölkələrinin qlobal ticarət zəncirində mövqeyini müəyyən edir. Xüsusilə Rusiyanın Ukraynaya qarşı hərbi müdaxiləsindən sonra bu ölkənin ərazisindən keçən Şimal Nəqliyyat Dəhlizinə alternativ yolların axtarışı Xəzər istiqamətinin əhəmiyyətini daha da artırıb. Alternativ marşrutların mövcudluğu həm regional iqtisadi təhlükəsizliyi gücləndirir, həm də qlobal yük daşımalarının dayanıqlılığını təmin edir. Bu mənada, Xəzər artıq yalnız regional deyil, beynəlxalq logistika sisteminin də mühüm elementinə çevrilib.

Lakin bu strateji əhəmiyyətli dəniz hazırda ciddi təhlükə ilə üz-üzədir. Onun səviyyəsinin sürətlə azalması artıq ekoloji çərçivəni aşaraq iqtisadi, sosial və siyasi risklər yaradan çoxşaxəli problemə çevrilib. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bu təhlükəni dəfələrlə beynəlxalq gündəliyə çıxararaq, Xəzərin dayazlaşmasının region ölkələrinin iqtisadi təhlükəsizliyinə birbaşa təhdid olduğunu vurğulayıb. Onun fikrincə, bu proses limanların fəaliyyətini məhdudlaşdırır, gəmiçiliyi çətinləşdirir, balıqçılıq sektorunu zəiflədir və sahilyanı ərazilərin sosial-iqtisadi inkişafını ləngidir. Ən təhlükəlisi isə odur ki, bu tendensiya davam edərsə, Xəzər hövzəsində baş verən dəyişikliklər geri dönməz xarakter alacaq.

Statistik göstəricilər də vəziyyətin ciddiliyini daha aydın nümayiş etdirir. Son 30 ildə Xəzər dənizinin səviyyəsi, təxminən, 2,5 metr aşağı düşüb, təkcə son beş ildə isə bu azalma 0,93 metr təşkil edib. Bəzi illərdə enmə tempi 20–30 santimetrə çatıb ki, bu da sahilyanı iqtisadi fəaliyyət üçün ciddi problemlər yaradır. "Azərkosmos"un Coğrafi İnformasiya Sistemləri Mərkəzinin direktoru İsmət Bəxişovun məlumatına görə, bu proses artıq lokal deyil, bütün Xəzər hövzəsini əhatə edən sistemli dəyişiklikdir.

Tokayevin də vurğuladığı kimi, bu proses təkcə iqlim dəyişikliklərinin nəticəsi deyil. Çay sularının həddindən artıq tənzimlənməsi, sənaye və kənd təsərrüfatı ehtiyacları üçün böyük həcmdə su götürülməsi, su anbarlarının səmərəsiz idarə olunması kimi antropogen amillər də Xəzərin qidalanmasını əhəmiyyətli dərəcədə azaldır.

Dənizin geri çəkilməsinin ilk və ən nəzərəçarpan təsiri nəqliyyat və logistika sahəsində özünü göstərir. Bir vaxtlar dərin sularda fəaliyyət göstərən limanlar bu gün mütəmadi olaraq dərinləşdirmə və təmizləmə işlərinə ehtiyac duyur. Bu isə həm dövlət büdcələri, həm də özəl sektor üçün əlavə maliyyə yükü yaradır. Proqnozlara görə, su səviyyəsi 10 metr aşağı düşərsə, Rusiya ərazisində yerləşən Lagan limanı sahildən 115 kilometr aralıda qalaraq, faktiki olaraq, fəaliyyətini itirə bilər. Türkmənbaşı limanı sahildən, təxminən, 16 kilometr uzaqlaşacaq, Aktau limanı isə yük dövriyyəsinin 30 faizə qədər azalması riski ilə üz-üzə qalacaq. Qazaxıstan üçün bu, xüsusilə, həssas məsələdir, çünki dünya okeanına birbaşa çıxışı olmayan ölkə üçün Xəzər beynəlxalq ticarətə açılan əsas qapıdır.

Volqa–Xəzər kanalı Xəzərin dünya okeanı ilə yeganə birbaşa əlaqə arteriyasıdır. Hazırda kanalın dərinliyi, təxminən, 4,5 metrdir və su səviyyəsinin daha da azalması iritonnajlı gəmilərin keçidini mümkünsüz edir. Bu, yalnız Qazaxıstanın deyil, Azərbaycan da daxil olmaqla bütün region ölkələrinin Avropa və Asiya bazarlarına çıxış imkanlarını məhdudlaşdıracaq, alternativ marşrutlara yönəlməyi zəruri edəcək və logistika xərclərini artıracaq.

Belə bir ssenari regional iqtisadi əməkdaşlığın dayanıqlılığını ciddi şəkildə zəiflədir. Liman fəaliyyətinə olan təsirlər də narahatlıq doğurur. Bir vaxtlar dərin sularda fəaliyyət göstərən limanlar indi mütəmadi dərinləşdirmə və təmizləmə işləri tələb edir ki, bu da böyük maliyyə yükünə çevrilir. Nəticədə, yükdaşıma səmərəliliyi azalır, tranzit marşrutların rəqabət qabiliyyəti zəifləyir. Bu, xüsusilə Qazaxıstan üçün kritikdir, çünki ölkənin dünya okeanına birbaşa çıxışı yoxdur və Xəzər onun beynəlxalq ticarət və nəqliyyat strategiyasının əsas sütunudur.




Xəzərin dayazlaşması sosial sahədə də ağır nəticələr yaradır. Dəniz boyunca 15 milyondan çox insan yaşayır və onların əksəriyyəti üçün Xəzər əsas dolanışıq və qida mənbəyidir. Xüsusilə şimal bölgələrində iqlim sərt, kənd təsərrüfatı isə zəif inkişaf edib. Bu şəraitdə balıqçılıq sektorunun zəifləməsi yerli əhali üçün alternativ məşğulluq imkanlarını, faktiki olaraq, aradan qaldırır. Son onillikdə Xəzər kilkəsinin ovunun 60 faiz azalması, balıqçılıqdan əldə olunan gəlirlərin isə orta hesabla 40 faiz düşməsi sosial gərginliyi artırıb, işsizliyi dərinləşdirib və miqrasiya risklərini gücləndirib. Tokayevin də qeyd etdiyi kimi, Xəzər problemi statistik rəqəmlərlə deyil, milyonlarla insanın taleyi ilə ölçülməlidir

Ekoloji nəticələr isə daha təhlükəlidir. Dənizin səviyyəsinin azalması sahilyanı ərazilərdə yeni quru sahələrinin üzə çıxmasına səbəb olur. Lakin bu torpaqların böyük hissəsi nə kənd təsərrüfatı, nə də yaşayış üçün yararlıdır. Əksinə, dənizin dibində illərlə toplanmış duz, qum, neft məhsulları, ağır metallar və pestisidlər açıq səthə çıxaraq torpaqların münbitliyini azaldır, flora və faunanı məhv edir. Güclü küləklər bu zərərli hissəcikləri yüzlərlə kilometr məsafəyə daşıyaraq kənd təsərrüfatına ciddi zərbə vurur, səhralaşmanı artırır.

Ekoloji təsirlər yalnız bitki və heyvan aləmini əhatə etmir. Su ehtiyatlarının azalması içməli suya çıxışı çətinləşdirir, suyun keyfiyyətinin pisləşməsi xəstəlik riskini artırır. Toz dumanı tənəffüs yollarına, allergiyaya və dəri xəstəliklərinə səbəb olur, xüsusilə uşaq və yaşlı əhali üçün riskləri daha da artırır. Bir sözlə, sahilyanı yaşayış məntəqələrində həyat şəraitinin pisləşməsi sosial gərginliyi artırır və ictimai sağlamlıq problemlərini dərinləşdirir.

Onu da qeyd edək ki, Xəzər uzun illər ətraf region üçün iqlim tənzimləyicisi rolunu oynayıb. Onun səthinin kiçilməsi havanın qurulaşmasına, yağıntıların azalmasına, yayda temperaturun yüksəlməsinə, qışda isə kəskin temperatur fərqlərinin artmasına səbəb olur. Bu dəyişikliklər səhralaşma prosesini sürətləndirir, torpaqların məhsuldarlığını azaldır və su ehtiyatlarının bərpasını çətinləşdirir. Azərbaycan üçün Abşeron yarımadası, Kür-Araz ovalığı və Qızılağac biosfer ehtiyatı xüsusi risk zonasındadır. Bakı buxtasında yeni adalar və bataqlıq sahələr formalaşıb, Pirallahı və Qum adalarının yarımadaya çevrilməsi artıq real ssenari kimi qiymətləndirilir.

Oxşar proseslər digər sahilyanı ölkələrdə də müşahidə olunur. Rusiyanın Həştərxan bölgəsində Volqa deltası dəyişib, yeni adalar yaranıb, Kalmıkiyada bir sıra adalar yarımadalara çevrilib, Dağıstanda isə sahil xətti bir neçə kilometr geri çəkilib. İran sektorunda lagun ekosistemləri ya tamamilə səhralaşıb, ya da duzluluq balansı pozulmuş bataqlıq zonalarına çevrilib. Qazaxıstanda isə Xəzərin şimal-şərq hissəsinin səth sahəsi 40 faizdən çox azalıb, sahil xətti isə 37–40 kilometr geri çəkilib. Su səviyyəsinin bu əsrin sonuna qədər daha 5–10 metr enməsi mümkündür ki, bu da Xəzərin səthinin 20 faizinin qurumasına və ekoloji-iqtisadi zəncirvari fəsadların dərinləşməsinə səbəb olacaq. Şimal-şərq sektorundakı sahil xətti ilə sahil yaşayış məntəqələri arasındakı məsafə 89 kilometrə çatacaq.

Bu faktlar problemin miqyasının nə qədər geniş olduğunu açıq şəkildə göstərir.

Dənizin geri çəkilməsi enerji sektoruna da ciddi təsir göstərir. İqtisadiyyat İnstitunun şöbə müdiri Mahir Zeynalovun sözlərinə görə, Xəzər hövzəsində təxminən 48 milyard barel neft ehtiyatı mövcuddur və bu region qlobal enerji bazarı üçün mühüm əhəmiyyət daşıyır. Su səviyyəsinin azalması isə platformaların yarımsahilyanı vəziyyətə düşməsinə, boru kəmərlərində əlavə gərginlik yaranmasına və hasilatın maya dəyərinin 30–40 faiz artmasına səbəb olur. Qazaxıstanın "Kaşağan" və Rusiyanın "Filanovsk" kimi iri yataqlarında artıq texniki və iqtisadi çətinliklər müşahidə olunur. Bu isə enerji təhlükəsizliyi üçün yeni risklər yaradır.

Türkmənistan sahillərində isə platformaların istismarı əlavə xərclər tələb edir, bəzi obyektlərin fəaliyyət zonalarının dəyişdirilməsi qaçılmazdır. Bu, təkcə hasilatın maya dəyərini artırmır, eyni zamanda, enerji təhlükəsizliyi üçün yeni risklər yaradır.

Bundan başqa, Xəzərdə fəal neft hasilatı aparılarkən yataqlardan çıxarılan faydalı qazıntılar nəticəsində yaranan boşluqlar dəniz suyu ilə dolur. Bu da təsirsiz ötüşmür. Əgər mövcud tendensiya davam edərsə, bu proses geridönməz nəticələrə gətirib çıxara bilər.

Beləliklə, Xəzər dənizinin qorunması artıq yalnız ekoloji problem kimi deyil, strateji, iqtisadi və sosial təhlükəsizlik məsələsi kimi dəyərləndirilməlidir. Bu unikal su hövzəsinin taleyi birbaşa olaraq sahilyanı ölkələrin inkişaf perspektivləri, milyonlarla insanın rifahı və bütövlükdə Avrasiya regionunun sabitliyi ilə bağlıdır. Məhz buna görə də ayrı-ayrı ölkələrin pərakəndə şəkildə atdığı addımlar Xəzərin üzləşdiyi böhranı aradan qaldırmaq üçün yetərli deyil. Problemin miqyası və mürəkkəbliyi vahid, əlaqələndirilmiş və uzunmüddətli yanaşma tələb edir.

Şübhəsiz ki, risklər fonunda Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin irəli sürdüyü dövlətlərarası proqram təşəbbüsü xüsusi əhəmiyyət daşıyır. Onun çağırışının mahiyyəti Xəzərə münasibətdə məsuliyyətin kollektiv xarakter daşıdığını açıq şəkildə ortaya qoyur. Belə bir proqramın həyata keçirilməsi Xəzərin su balansının qorunması, ekosistemin bərpası, səviyyə dəyişmələrinin davamlı monitorinqi və risklərin vaxtında qiymətləndirilməsi üçün vahid strategiyanın formalaşdırılmasına imkan verir. Xəzər sammitləri və regional iqtisadi forumlar isə bu strategiyanın siyasi əsaslarını möhkəmləndirməklə yanaşı, maliyyə və texniki resursların cəlb edilməsi baxımından da mühüm platforma rolunu oynayır.

Şübhəsiz ki, Xəzəri xilas etmək mümkündür, lakin bu, indiyədək görünməmiş səylər, güclü siyasi iradə və beynəlxalq koordinasiya tələb edir. Xəzərin əsas qidalanma mənbələri olan Volqa, Ural, Kür və Terek çaylarının su ehtiyatlarının qorunması bu prosesdə həlledici əhəmiyyət daşıyır. Çay hövzələrində suyun həddindən artıq tənzimlənməsi, kənd təsərrüfatında və sənayedə israfçılıq, eləcə də səmərəsiz suvarma sistemləri Xəzərin su balansını pozan əsas amillər sırasındadır. Bu baxımdan, suvarmada müasir, qənaətcil texnologiyalara keçid, sənaye və kənd təsərrüfatında suya nəzarətin gücləndirilməsi, neft-qaz sektorunda ciddi ekoloji tələblərin tətbiqi zəruri sayılır.

Eyni zamanda, biomüxtəlifliyin bərpası Xəzərin gələcəyi üçün əsas şərtlərdən biri kimi qiymətləndirilir. Balıq ehtiyatlarının, xüsusilə nərə cinslərinin qorunması, qeyri-qanuni balıqçılığın qarşısının alınması, elmi əsaslı kvotaların tətbiqi və süni balıqartırma proqramlarının genişləndirilməsi dənizin bioloji tarazlığının saxlanmasına xidmət edə bilər. Elmi tədqiqatların və monitorinq sistemlərinin gücləndirilməsi isə qəbul edilən qərarların təsadüfi deyil, elmi əsaslara söykənməsinə imkan verər.




Artıq Xəzər dənizinin qorunması istiqamətində müəyyən ilkin addımlar atılıb. 2024-cü ildə BMT-nin iştirakı ilə Xəzər üzrə xüsusi ekoloji proqramın yaradılması, su səviyyəsinin dəyişmələrinin izlənməsi üçün vahid monitorinq standartlarının hazırlanması və sərhədləri aşan təbiət qoruqlarının formalaşdırılması planları bu sahədə beynəlxalq diqqətin artdığını göstərir. Bu təşəbbüslər Xəzərin artıq yalnız sahilyanı ölkələrin deyil, qlobal ekoloji gündəliyin də mühüm mövzularından birinə çevrildiyini təsdiqləyir.

Lakin mövcud tədbirlər də miqyas və təsir baxımından hələlik kifayət etmir. Hazırkı proqramlar daha çox müşahidə və tövsiyə xarakteri daşıyır, halbuki Xəzərin üzləşdiyi risklər daha sərt, hüquqi baxımdan məcburi və maliyyə ilə təmin olunmuş mexanizmlər tələb edir. Bu baxımdan illik büdcəsi azı 500 milyon dollar olan Beynəlxalq Xəzər Xilasetmə Fondunun yaradılması zəruri hesab olunur. Belə bir fond elmi tədqiqatların maliyyələşdirilməsi ilə yanaşı, sahilyanı ərazilərdə ekosistemin bərpası, çirklənmənin qarşısının alınması, balıq ehtiyatlarının artırılması və iqlim dəyişikliklərinə uyğunlaşma layihələrinin həyata keçirilməsi üçün real imkanlar yarada bilər.

Ekspertlərin digər mühüm tələbi sahilyanı ölkələr üçün vahid su istifadəsi standartlarının tətbiqidir. Hazırda Xəzərə tökülən çayların müxtəlif ölkələrin ərazisindən keçməsi su ehtiyatlarının idarə olunmasında parçalanmış yanaşma yaradır və bu da ümumi su balansının pozulmasına səbəb olur. Vahid standartlar çay sularının həddindən artıq istifadəsinin qarşısını almağa, israfçılığı azaltmağa və Xəzərin qidalanma mənbələrini qorumağa xidmət edə bilər. Bundan əlavə, alimlər Xəzərə tökülən çaylarda yeni su anbarlarının tikintisinə qadağa qoyulmasını vacib sayırlar. Onların fikrincə, hər yeni su anbarı qısamüddətli iqtisadi fayda versə də, uzunmüddətli perspektivdə Xəzərin bərpa imkanlarını ciddi şəkildə məhdudlaşdırır.

Bundan başqa, Qazaxıstanın irəli sürdüyü təşəbbüslər də diqqət mərkəzindədir. Rəsmi Astana Rusiyaya Volqa çayının axınının artırılması və ya Volqa sularının bir hissəsinin ərazisindən Xəzər dənizinə yönəldilməsi ilə bağlı təkliflər irəli sürür. Qazaxıstan rəsmilərinin bildirdiyinə görə, Volqa sərhəd çayı olmadığı üçün bu məsələ xüsusi siyasi və institusional mexanizmlər tələb edir və bunun üçün birgə işçi qrupunun yaradılması planlaşdırılır.

Qazaxıstanın Volqa su resurslarına marağı qədimdir, lakin yalnız Volqa ilə məhdudlaşmır. Rusiya ilə sərhəd çaylarından İşim və Tobolun Qazaxıstan sektoruna yönəldilməsi layihələri də hazırlanır. Bu təşəbbüslər Xəzərin su balansı uğrunda mübarizənin artıq regional diplomatiyanın əsas mövzularından birinə çevrildiyini göstərir.

Azərbaycan tərəfi də problemin qlobal xarakter daşıdığını açıq şəkildə vurğulayır. Qazaxıstanın Volqa çayı ilə bağlı təşəbbüsünü dəstəkləyir. Maraqlıdır ki, Xəzərin xilas edilməsi ilə bağlı Qara dənizin suyundan istifadə edilməsi də təklif olunur.

Deməli, bu böhran yalnız ekoloji sahə ilə məhdudlaşmır, bioçeşidliyə, iqtisadi fəaliyyətə və sosial sabitliyə birbaşa təsir göstərir. Bütün bu proseslər ondan xəbər verir ki, Xəzər dənizinin geri çəkilməsi artıq regional problem çərçivəsindən çıxaraq qlobal əhəmiyyətli çağırışa çevrilib.

Beləliklə, Xəzər dənizinin taleyi yalnız bugünkü nəsillərin deyil, gələcək nəsillərin də məsuliyyətidir. Əgər sahilyanı ölkələr vahid və koordinasiyalı strategiya qəbul etməsələr, bu unikal su hövzəsinin geri çəkilməsi və ekosistemlərin dağılması təkcə Xəzər hövzəsi üçün deyil, bütün Avrasiya regionu üçün geridönməz nəticələr doğuracaq. Çünki Xəzərin geri çəkilməsi yalnız regional deyil, qlobal əhəmiyyət daşıyan bir məsələdir. Bu səbəbdən Xəzərin qorunması yalnız ekoloji məsələ deyil, həm də strateji, iqtisadi və ictimai sağlamlıq məsələsidir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Ulu söz abidəsinin gizlinlərinə açılan qapı

## *Yaxud qorqudşünaslıqda Kamal Abdulla prinsipi*

**Türk xalqlarının qədim eposu, möhtəşəm abidəsi "Kitabi-Dədə Qorqud"un tədqiqi Kamal Abdulla elmi yaradıcılığının ana xəttini təşkil edir. Məlumdur ki, Kamal Abdulla qorqudşünaslığa dair "Gizli Dədə Qorqud" (Azərbaycan dilində 1991, türk dilində 1995, rus dilində 2006), "Sirr içində dastan və yaxud Gizli Dədə Qorqud-2" (1999), "Mifdən Yazıya və yaxud Gizli Dədə Qorqud" (Azərbaycan dilində 2009; türk dilində 2013), "Kitabi-Dədə Qorqud" dastanının poetikasına giriş" (Azərbaycan dilində 2017, rus dilində 2018), "Kitabi-Dədə Qorqud" poetikasına giriş. "Dansökülən variant", "Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq" (Rafiq Əliyevlə birlikdə) adlı sanballı araşdırmaların və onlarla elmi məqalənin müəllifidir.**



Xalq yazıçısı, akademik Kamal Abdullanın yenicə nəşr olunmuş "Gizli Dədə Qorqud: yeni mənalar axtarışında" monoqrafiyası (Bakı, Sim-sim, 2025, 584 s.) onun indiyədək apardığı tədqiqatların məntiqi davamı, apogeyi kimi dəyərləndirilə bilər. Bu əsərdə tədqiqatın obyekti sabit saxlanılmaqla, ona müraciətin baxış bucaqları əhəmiyyətli dərəcədə genişləndirilmişdir. Müəllifin elmi yaradıcılıq xronologiyası göstərir ki, tədqiqat materialının və yanaşma istiqamətlərinin dinamikliyi mövcud araşdırma obyektinin yeni semantik və metodoloji müstəvilərdə dərkini mümkün etmişdir. Bununla yanaşı, burada yalnız ayrı-ayrı süjetlərin, motivlərin və ya onların daxili məntiqinin təhlili ilə məhdudlaşan bir yanaşmadan söhbət getmir. Araşdırma bütövlükdə yaradıcı düşüncənin semiotik tədqiq paradiqması kimi çıxış edir. Eyni zamanda, əsər kollektiv yaddaş metaforlarını və simvolik diskursu mətnin öz daxili strukturu və semantik qatları əsasında bərpa edir. Bu mənada o, dilin, düşüncənin və tarixin daxili inkişafı kontekstində mənanı xüsusi semiosfera kimi yeni postulatlar kontekstində təklif edir. Nəticə etibarilə yeni tədqiqatda abidəyə baxış bucağı zaman və məna qatları üzrə genişləndirilmiş şəkildə təqdim olunur.

Kamal Abdullanın araşdırmasında xüsusi diqqətçəkən əsas məsələlərdən biri də "Dədə Qorqud" abidəsinin iki mühüm diskurs müstəvisində dərk edilməsidir. Birinci diskurs "gizlilik" konsepti ilə bağlıdır və "gizli Dədə Qorqud" anlayışı bu yanaşmanın mərkəzində dayanır. Gizlilik burada yalnız abidənin öz mətni ilə məhdudlaşan konsept kimi deyil, daha geniş semantik sferaya istiqamətlənən düşüncə paradiqması kimi çıxış edir. Bu baxımdan gizlilik, "Dədə Qorqud"un daxili məna qatlarını, onun gizli semantik potensialını özündə ehtiva edən və mətndə açıq şəkildə ifadə olunmayan mənaların daşıyıcısı olan konseptual çərçivə yaradır.

İkinci diskurs isə, gizliliklə üzvi şəkildə bağlı olan məna axtarışı konseptidir. Məhz gizlilik və məna axtarışının vəhdəti "Dədə Qorqud" mətnində Kamal Abdullaya məxsus xüsusi interpretasiya prinsipini – bunu "Kamal Abdulla prinsipi" də adlandırmaq olar, formalaşdırır. Bu prinsipə görə, abidə ilə bağlı üzə çıxarılan bütün semantik aşkarlamalar, semiotik proseslər, mədəni diskurslar, linqvopoetik fiqurlar abidənin zahiri qatından deyil, onun görünməyən, gizli məna sferasından çıxış edərək həmin məna sirlərinin aşkarlanmasına yönəlir.

Kamal Abdullanın "gizlilik" və "məna axtarışı" konseptləri arasında qurduğu əlaqə sadəcə ixtiyari interpretasiyalar toplusu kimi çıxış etmir. Əksinə, elmi-nəzəri kontekstdə yanaşıldıqda burada müxtəlif metodoloji sistemlərin – semiotikanın, strukturalizmin, psixoanalizin, eləcə də digər linqvistik və humanitar elmi yanaşmaların konseptual imkanlarının ardıcıl şəkildə işlədiyi açıq-aydın müşahidə olunur. Məhz bu metodoloji çoxqatlılıq ortaya çıxarılan mənaların təsadüfi deyil, daxili məntiqə əsaslanan və nəzəri baxımdan əsaslandırılmış interpretasiyalar kimi formalaşmasını təmin edir.

Bu yanaşmada əldə edilən məna nəticələri yalnız interpretativ təsir bağışlamaqla kifayətlənmir, eyni zamanda, sistemli şəkildə təsbit olunur və elmi əsaslandırma qazanır. Bunun nəticəsi olaraq sözügedən konseptual model Azərbaycan folklorunun digər sahələrinə tətbiq edildikdə də analoji semantik sıraların və nəzəri prizmaların formalaşdırılmasına imkan yaradır. Beləliklə, bu metodoloji çərçivə folklor materialının daha sistemli, ardıcıl və elmi baxımdan əsaslı şəkildə irəli sürülməsi üçün məhsuldar imkanlar açır və interpretasiyaların ümumi elmi diskurs daxilində qəbul edilə bilən səviyyəyə yüksəlməsinə şərait yaradır.

Belə bir yanaşma təbii olaraq müasir elmi düşüncənin qabaqcıl nəzəri və metodoloji nailiyyətlərinə istinad etməyi tələb edir. Bu kontekstdə semiotikanın və semiosfer tədqiqatlarının yanaşmaları, strukturalizmin analitik imkanları, psixoanalitik metodun nəzəri konseptləri və funksionalizmin əsas postulatları Kamal Abdullanın yaradıcılığında yalnız formal metod kimi deyil, gizli mənanın aşkarlanmasına xidmət edən yaradıcı və konseptual öyrənmə alətləri kimi çıxış edir. Nəticə etibarilə bu metodoloji sintez "Dədə Qorqud" abidəsinin dərin semantik qatlarını üzə çıxarmağa yönəlmiş bütöv və sistemli bir interpretasiya modelinin formalaşmasına imkan yaradır.

Kamal Abdullanın tədqiqatına ümumi şəkildə yanaşıldıqda diqqəti cəlb edən əsas xüsusiyyətlərdən biri ondan ibarətdir ki, burada ayrı-ayrı obrazların fəaliyyəti və davranışı, eləcə də süjetlər və obrazlararası dinamik münasibətlər yalnız konkret situasiyanın zahiri təmsili ilə məhdudlaşmır. Həmin situasiyalar, əksinə, mətnin müxtəlif səviyyələrinin daxili məntiqi ilə qarşılıqlı şəkildə əlaqələnən, çoxqatlı semantik bütöv kimi formalaşır. Bu yanaşmada situasiya təkcə hadisələrin fonu və ya funksional çərçivəsi deyil, mətndaxili məna strukturlarının açılmasına xidmət edən konseptual vahid kimi çıxış edir. Məhz bu baxımdan Kamal Abdullanın elmi yaradıcılığında mətnin ayrıca elementlərini deyil, bütövlükdə mətnin özünü müstəqil semantik sistem kimi dəyərləndirmək daha məqsədəuyğun görünür.

Tədqiqatı dəyərləndirərkən əsas diqqət yetirilməli məqamlardan biri də abidənin məna oxunuşu səviyyəsində əsas götürülən münasibətlər sisteminin necə qurulmasıdır. Bu yanaşmada artıq sosial münasibətlərin ayrı-ayrı aspektləri məna oxunuşunun aparıcı dayaqları kimi çıxış edir və interpretativ prosesin əsas semantik müstəvisinə cəlb olunur. Həmin münasibətlər sistemi, ilk növbədə, Oğuz igidlərinin öz aralarındakı qarşılıqlı əlaqələr sferasında təzahür edir. Bununla yanaşı, ata–oğul münasibətləri konsepti xüsusi semantik yük daşıyan əsas oxlardan biri kimi ön plana çıxarılır.

Digər mühüm istiqamət Oğuz düşüncə sferasında məhəbbət konseptinin dərk edilməsidir ki, bu da daha geniş kontekstdə Oğuz–kafir münasibətləri müstəvisində şərh olunur. Eyni zamanda, hakimiyyət strukturları ilə bağlı münasibətlər – bürokratik təbəqə, hökmdar və cəmiyyətin digər üzvləri arasında formalaşan əlaqələr, habelə cəmiyyət daxilində müsbət və mənfi keyfiyyətlərin daşıyıcıları olan sosial qruplar–mətnin məna qatlarının açılmasında mühüm semantik baza rolunu oynayır.

Beləliklə, sadalanan bütün bu münasibətlər sistemi abidənin məna oxunuşunda təsadüfi elementlər kimi deyil, vahid və ardıcıl interpretasiya modelinin əsasını təşkil edən semantik dayaqlar kimi istifadə olunur və mətndaxili mənaların çoxsəviyyəli şəkildə üzə çıxarılmasına xidmət edir.

Tədqiqatın əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, burada semantik bütövlər müstəqil elmi-tədqiqat baxışı ilə müəyyənləşdirilir və sistemli şəkildə təqdim olunur. Bu bütövlərin şərhi isə dünya mifologiyasının başlanğıc nöqtələrindən biri hesab edilən yunan mifoloji konseptləri kontekstində aparılır. Diqqət yetirildikdə aydın olur ki, müxtəlif obrazlar məhz yunan mifoloji münasibətləri daxilində formalaşmış konseptual prizma vasitəsilə dəyərləndirilir və semantik baxımdan müqayisəli təhlilə cəlb olunur.

Bu yanaşma Banı Çiçək və Penelopa, Salur Qazan və Aqamemnon, Sarı Donlu Selcan Xatun və Gözəl Yelena, Admet, Herakl və Dəli Domrul münasibətləri, Edip və Buğac qarşılaşdırmaları, Polifem və Təpəgöz paralelləri, eləcə də Odissey, Basat və Beyrək obrazları üzərində aparılan semantik oxunuşlarda açıq şəkildə müşahidə edilir. Belə müqayisələr vasitəsilə bir tərəfdən yunan mifoloji düşüncə sistemi Azərbaycan filoloji mühitinə elmi-nəzəri kontekstdə təqdim olunur, digər tərəfdən isə Azərbaycan epik-mifoloji materialı dünya filoloji fikir müstəvisində qəbul edilə biləcək ümumiləşdirilmiş bir təqdimat platforması qazanır.

Nəticə etibarilə bu metodoloji yanaşma "Dədə Qorqud" abidəsinin semantik potensialını lokal çərçivədən çıxararaq ümumbəşəri mifoloji və filoloji düşüncə sistemləri ilə dialoq səviyyəsinə yüksəldir və onu dünya humanitar elminin müzakirə predmeti kimi təqdim etməyə imkan yaradır.

Kamal Abdullanın "gizlilik" və "məna axtarışı" konseptləri arasında qurduğu əlaqə sadəcə ixtiyari interpretasiyalar toplusu kimi çıxış etmir. Əksinə, elmi-nəzəri kontekstdə yanaşıldıqda burada müxtəlif metodoloji sistemlərin semiotikanın, strukturalizmin, psixoanalizin, eləcə də digər linqvistik və humanitar elmi yanaşmaların konseptual imkanlarının ardıcıl şəkildə işlədiyi aydın şəkildə müşahidə olunur. Məhz bu metodoloji çoxqatlılıq ortaya çıxarılan mənaların təsadüfi deyil, daxili məntiqə əsaslanan və nəzəri baxımdan əsaslandırılmış interpretasiyalar kimi formalaşmasını təmin edir.

Bu yanaşmada əldə edilən məna nəticələri yalnız interpretativ təsir bağışlamaqla kifayətlənmir, eyni zamanda, sistemli şəkildə təsbit olunur və elmi əsaslandırma qazanır. Bunun nəticəsi olaraq sözügedən konseptual model Azərbaycan folklorunun digər sahələrinə tətbiq edildikdə də analoji semantik sıraların və nəzəri prizmaların formalaşdırılmasına imkan yaradır. Beləliklə, bu metodoloji çərçivə folklor materialının daha sistemli, ardıcıl və elmi baxımdan əsaslı şəkildə irəli sürülməsi üçün məhsuldar imkanlar açır və interpretasiyaların ümumi elmi diskurs daxilində qəbul edilə bilən səviyyəyə yüksəlməsinə şərait yaradır.

Kamal Abdulla yaradıcılığında mərkəzi mövqedə dayanan "Dədə Qorqud prinsipi" anlayışını ardıcıl və konseptual şəkildə əsaslandırır. Mətnin başlanğıcında Dədə Qorqudun "dastanın təsəvvür edilən müəllifi" kimi təqdim edilməsi ilk baxışda onun tarixi şəxsiyyət kimi qəbuluna imkan yaratsa da, müəllif dərhal bu ehtimalı problematikləşdirir. Müqəddimənin ilk cümləsinə istinadla "Rəsul əleyhissəlam dövrünə yaxın Bayat boyundan Qorqud ata derlər bir ər qopdu" – Dədə Qorqudun konkret tarixi zamana bağlanması göstərilir, lakin bu bağlanmanın elmi baxımdan yetərli olmadığı da mətnin özündə açıq şəkildə ifadə olunur: "Bundan ciddi dəlil ola bilməz".

Bu məqamdan etibarən mətn Dədə Qorqudu tarixi şəxsiyyət kimi deyil, semantik və diskursiv bir fenomen kimi dərk etməyə yönəlir. Dədə Qorqud dastan daxilində "şaman, ozan, elçi" funksiyalarını özündə birləşdirən obraz kimi təqdim olunsa da, bu funksiyalar onun fərdi varlığını deyil, mədəni və mənəvi mexanizmi ifadə edir. Mətnin öz ifadəsi ilə, Dədə Qorqud "Oğuzun mənəvi rəhbəridir" və "Şaman – müəllim – ozan" xəttini öz timsalında birləşdirən odur". Bu birləşmə isə onu konkret süjet subyekti olmaqdan çıxarıb, bütün süjetləri əlaqələndirən prinsip səviyyəsinə yüksəldir.

Kitabda diqqətçəkən ən fundamental elmi postulatlardan biri "Dədə Qorqud prinsipdir" tezisidir. Bu prinsip "Oğuz cəmiyyətinin aparıcı şah damarı" kimi təqdim olunur və onun funksiyası əxlaqı, dünyagörüşünü, identiklik ruhunu qoruyaraq "müxtəlif zamanları, müxtəlif ideyaları, müxtəlif amalları birləşdirmək"dir. Beləliklə, Dədə Qorqud mətndə bir obraz deyil, bütün obrazları, zamanları və mənaları vahid semioloji prosesə daxil edən strukturlaşdırıcı mərkəz kimi çıxış edir.

Məlumdur ki, dünya folklorşünaslığında folklor mətnin strukturunda motiv anlayışının funksiya anlayışı ilə əvəz edilməsi təcrübəsi olmuşdur. Fransız strukturalistləri isə, ümumiyyətlə, mətn strukturunda elementlərin funksiya ilə əvəzlənməsini təklif etmişdilər. Psixoanalitiklər isə mətn strukturunda funksiyanı genezis etibarilə insanın psixoenergetik özünüifadəsi kimi qələmə verməyə çalışmışlar. Dünya elmində belə yanaşmalar çoxdur. Biz dünya humanitar elmlərində olan belə elmi yanaşmaların konkret milli mətn nümunəsində tətbiqinə ilk dəfə olaraq Kamal Abdullanın yanaşmasında rast gəlirik. Müəllifin Dədə Qorqudun prinsip hesab edilməsi, bizə görə, obrazın mədəni sistemdəki funksionallığına, həmin funksionallığın diaxron və sinxron səviyyələr üzrə miqyasına işarədir. Prinsip fundamental müəyyənləşdirici şərtdir. Prinsip pozulmaz qanunauyğunluqdur. Prinsip sistemyaradıcı parametrdir. "Dədə Qorqud prinsipdir" postulatı Dədə Qorqudun etnik-mədəni sistemdə funksional mahiyyətini olduqca dəqiq formullaşdırır. Mədəniyyət Dədə Qorqud obrazına elə funksiyaları yükləyir ki, o, sistemtənzimləyici parametrə çevrilir, həm də bu funksiyasını mədəni sistem kontekstində diaxron inkişaf prosesi ərzində uzun müddət davam etdirir. Həm də sistemtənzimləyici parametr olmaqla yanaşı, sistemyaradıcı faktor funksiyasını yerinə yetirir. Tarixilik, mənəvilik, sosiallıq və bütövlükdə mədəni təkamülün təfəkkür ölçüləri aspektində bu mühüm məqamdır. Dədə Qorqud bizim həyat tərzimiz, düşüncəmiz, yaşam qaydamız və özünü həyatda təsdiqetmə dinamikamız baxımından o dərəcədə önəmlidir ki, Şuşanı əliyalın azad edə bildik!




Beləliklə, təqdim olunan mətn Kamal Abdullanın yaradıcılığında "Dədə Qorqud prinsipi"nin yalnız interpretativ anlayış deyil, vahid semiosferanı təşkil edən, zamanı, mətni və mənanı bir diskursda birləşdirən əsas elmi-konseptual model olduğunu mətnin öz daxili məntiqi ilə sübut edir

Kamal Abdullanın "Kitabi-Dədə Qorqud" üzərində apardığı araşdırmaların axıcılığı və ardıcıllığı onun elmi düşüncəsinin zamanın heç bir mərhələsində əvvəlki mövqedə donub qalmadığını, əksinə, daimi şəkildə inkişaf etdiyini aydın şəkildə göstərir. Bu yanaşma Dədə Qorqud mətnlərini yalnız bədii abidə kimi deyil, eyni zamanda, semantik abidə – yəni mənanın formalaşma və ötürülmə mexanizmlərini özündə ehtiva edən işarələr sistemi kimi dəyərləndirməyə imkan verir və onların əbədiyaşarlığını təsdiqləyir. Xüsusilə diqqətəlayiq olan məqam ondan ibarətdir ki, Kamal Abdullanın Dədə Qorqud abidəsinə dair araşdırmalarında bir mərhələdən digər mərhələyə keçid əvvəlki nəticələrin inkarı üzərində qurulmur; əksinə, həmin mərhələlər üzərində yeni məna qatlarının açılması və dərinləşdirilməsi ilə müşayiət olunur. Bu səbəbdən, əsərdə əldə olunan nəticələrin "ilkin nəticələr" kimi təqdim edilməsi metodoloji baxımdan əsaslandırılmışdır. Burada "ilkin nəticə" anlayışı tamamlanmış yekunluq deyil, semantik prosesin davamlılığını ifadə edir və Dədə Qorqud mətnlərinin hər yeni nəsil tərəfindən yenidən oxunması, dərk edilməsi və şərh olunması zərurətini ön plana çıxarır. Beləliklə, Dədə Qorqud tarixi-filoloji abidə kimi təkcə ölməz bir məna işarəsi deyil, həm də ümumprinsipial düşüncə modeli, semioloji proses və metaforik təfəkkür forması kimi yaşarlığını qoruyur və Azərbaycan mədəni-mənəvi varlığı mövcud olduğu müddətcə elmi araşdırmaya açıq və aktual bir mətn korpusu olaraq qalır.

**Kitabın ümumi dəyərləndirilməsində iki mühüm aspekt əsas götürülə bilər:**

*1. Kontekst müəyyənləşdirilməsində antropoloji universalizm;*

*2. Mətn təhlilində semantik dərinlik və polifonizm.*

Əvvəlcə, kontekstin antropoloji universalizmi haqqında. Araşdırmada qarşıya qoyulan əsas hədəf zahirən filolojidir və bütün təhlillər də bu mərkəzi hədəfə istiqamətlənmiş kimi görünür: "KDQ" mətni əsasında yazıya qədərki dövrün bədii-poetiklik təsəvvürlərinin, real mətn quruculuğunda istifadə edilən ünsür və vasitələrinin öyrənilməsi! Qarşıya qoyulan bu filoloji elmi hədəf araşdırmanın, necə deyərlər, fokus nöqtəsini təşkil edir. Belə bir elmi fokuslaşma təbii ki, etnik-mədəni sistemi kontekst olaraq nəzərə alan filoloji təmayüllü linqivopoetik və mifopoetik təhlil perspektivindən xəbər verir. Lakin araşdırma boyu biz tamamilə başqa mənzərənin şahidi oluruq. Burada ənənəvi humanitar düşüncədə və qorqudşünaslıqda kök salmış stereotiplərin əksinə olaraq, "KDQ" etnik-mədəni sistem müstəvisində deyil, ümumbəşəri mədəniyyətin ilkin təşəkkül mərhələsi kontekstində təhlil edilir. Mətn boyu dərinə doğru hərəkət miqyasın kiçilməsi ilə deyil, əksinə, etnik-mədəni sistem hüdudlarından antropoloji universalizm səviyyəsinə qədər genişlənmə ilə müşayiət olunur. Məhz bu rakursdan salınan işıqda aydın görünür ki, dastanda Oğuzun və türkün genezisi üst qatların həqiqətidir. Mətnin daha dərin qatları etnik geneologiyadan daha çox, antropoloji geneologiyadan xəbər verir. Sən demə, "KDQ" həm də bəşəriyyətin Təbiətdən Mədəniyyətə keçidini bütün parametrlər üzrə özündə əks etdirən unikal bir abidədir.

Nə qədər paradoksal səslənsə də, məhz bu rakursdan yanaşdıqda, qədim türk mədəniyyətinin bəşər mədəniyyəti kontekstində yeri və mövqeyi formal vətənpərvərlik və millətçilik düşüncəsi ilə yazılan tədqiqatlarda olduğundan daha aydın, həm də daha şərəfli görünür. Bu mənada, kitabın çox mühüm cəhətlərindən biri onun Azərbaycan elmi humanitar düşüncəsinin universal antropoloji elmi səviyyəyə iddiasını və imkanını özündə əks etdirməsidir. Bizcə, hazırda belə bir iddiaya Azərbaycan humanitariyasının çox ehtiyacı vardır.

Xüsusi qeyd etmək istədiyimiz təmayül tekstin təhlilində dərinlik və polifonizmdir. Bədii poetiklik axtarışları istiqamətində mətn sanki nanotexnoloji səviyyədə araşdırmaya cəlb edilir. Araşdırmadan aydın olur ki, "KDQ"-nin mətn strukturu istər diaxron, istərsə də sinxron düzüm üzrə strukturların mürəkkəb münasibətlər şəbəkəsindən yaranmışdır. Və onlar ayrılıqda götürülən element kimi də, bir-biri ilə münasibətdə də İnsanın Təbiətdən Cəmiyyətə keçidinin bütün dolanbaclarını özündə əks etdirən informasiya daşıyıcılarıdır. Tədqiqatda informasiyanın mifoloji məzmundan bədii məzmuna keçidi üzərində xüsusi dayanılır. Məlumdur ki, elmdə məşhur mifoloji və tarixi şüur dövrləri bölgüsü vardır. Müəllif o məqam üzərində xüsusi dayanır ki, mətndə bədii poetikliyin strukturu, əsasən, həmin zaman mərhələləri ilə şərtlənir.

Müstəqillik dövrünün yaratdığı imkanlar abidəmizin elmi taleyində keyfiyyətcə yeni mərhələnin formalaşmasına şərait yaratmışdır. Müasir dövrdə ən aktual və mühüm vəzifələrdən biri məhz bu abidəni dünyanın qabaqcıl elmi məktəblərinin və aparıcı elmi proseslərinin cərəyan etdiyi diskurslara daxil etməkdir. Bu kontekstdə təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam bütün elmi sahələr, o cümlədən folklorşünaslıq, mifologiya və ədəbiyyatşünaslıq qarşısında yeni vəzifələr müəyyənləşdirir. Həmin vəzifələr abidəyə münasibətdə yalnız təsviri və tarixi yanaşma ilə kifayətlənməyib, onu çağdaş elmi metodologiyalar və nəzəri modellər kontekstində yenidən öyrənməyi zəruri edir.

Bu baxımdan, müstəqillik dövründə Azərbaycan akademik mühitinin əhəmiyyətli bir hissəsinin, xüsusən də son illər dövlət siyasətinə uyğun olaraq türkoloji tədqiqatların genişlənməsi kontekstində Azərbaycan Milli Elmlər Akademiyasının əsas elmi prioritetlərindən birini təşkil edən qorqudşünaslığın çoxsaylı nailiyyətləri xüsusi qeyd olunmalıdır. Bu proses Abidənin milli elmi şüurda mərkəzi mövqeyə çıxmasını, eyni zamanda, onun beynəlxalq elmi müzakirələrə açıq bir mətn korpusu kimi qəbul edilməsini şərtləndirir. Təsadüfi deyil ki, məhz bu mərhələdə aparılan elmi diskussiyaların əsas istiqamətlərindən biri türkoloji tədqiqatların yalnız dilçilik çərçivəsində məhdudlaşdırılmaması, digər elm sahələrinin – folklorşünaslıq, ədəbiyyatşünaslıq, semiotika və mədəniyyətşünaslığın da türkoloji istiqamətin inkişafına fəal şəkildə cəlb olunması məsələsidir.

Bu kontekstdə "Dədə Qorqud" abidəsi ilə bağlı tədqiqatlarda formalaşdırılmış konseptual yanaşmalar türkoloji folklorşünaslığın inkişaf məntiqi daxilində Türk dünyasının müxtəlif elmi mühitlərində ayrı-ayrı təşəbbüslər kimi deyil, qarşılıqlı elmi inteqrasiya və metodoloji sintez əsasında mənimsənilməli və ümumiləşdirilməlidir. Ümumelmi diskursun bu istiqamətdə genişlənməsi və sahələrarası xarakter qazanması, bir tərəfdən mövcud elmi yanaşmaların nəzəri dərinliyini artırır, digər tərəfdən isə Abidənin müasir elmi düşüncə sistemində uzunmüddətli aktuallığını təmin edən mühüm intellektual potensialın mövcudluğunu ortaya qoyur.

*Filologiya elmləri doktorları:*
***Sərxan XAVƏRİ,***
***Hikmət QULİYEV,***
***Səfa QARAYEV***

# Türk dünyası vahid ailədir

**Bu gün bəşəriyyət ağır, çətin sınaqlarla üz-üzə qalıb. Yer kürəsinin bir çox bölgələrində ağır zorakılıqlarla müşayiət olunan qanlı savaşlar, vəkalət müharibələri gedir. İnsanlar doğma yurdlarından didərgin düşür, günahsız yerə həlak olurlar. Bu qanlı olaylara nə dur deyən, nə də onları durdura bilən var. Beynəlxalq hüquq isə iflic olub, işləmir. Bəli, planetin siyasi nizamı pozulub.**



Üstəlik, yeni müharibə ocaqları yaradılır. Türk dövlətlərini silahlı münaqişələrə cəlb etmək niyyətində olan düşmən qüvvələr də fəallaşıblar. Görünür, artan qüdrətimizdən qorxuya düşüblər. Belə bir ağır, gərgin vəziyyətdə türk xalqlarının əl-ələ verib, özlərini haqsız təhdidlərdən qorumaqdan başqa çarələri qalmır.

Amma vəziyyət heç də ümidsiz deyil. 35-40 il əvvəl türklərin cəmi 1 müstəqil dövləti vardı. İndi 7-si olmuşuq. Bu 7 qardaş Türk dövləti ən çətin, taleyüklü məqamda bir-birilərinin yanında olmalıdır. Türklərin heç bir xalqın torpağında gözü yoxdur. Ancaq öz haqlarını da heç kimə güzəştə gedə bilməzlər!

"Dildə, fikirdə, işdə birlik!"dir bizim amalımız. Bu arzu və məramla yaşayıb–yaradıblar türkün böyük ideoloqları – Əli bəy Hüseynzadə, İsmayıl bəy Qaspıralı, Əhməd bəy Ağaoğlu, Ziya Göyalp və digərləri. Bu gün xoşbəxtlikdən bu böyük arzu və ideallar həyata keçməkdədir. Zamanın üfüqlərindən yeni sivilizasiya - Böyük Turan boylanır! Əslində, o, artıq var, real gücdür!

2020-ci ilin payızında 44 günlük şanlı savaşda Azərbaycanın igid əsgər və zabitləri doğma Qarabağı, gözəl, bənzərsiz Şuşanı düşməndən azad etdilər. Bu parlaq qələbə Türk dünyasının gücünü, qüdrətini artırdı. İndi Qarabağda bütün Türk dövlətlərinin fəal iştirakı ilə geniş tikinti-quruculuq, bərpa işləri aparılır. Dostlarımız oradakı vüsəti, quruculuq əzmini görüb sevinirlər, düşmənlərimiz xar olurlar!

"Xalq qəzeti" olaraq biz mütəmadi şəkildə türk xalqlarının uğurlarından bəhs edən "Turan elləri" səhifəsi hazırlayırıq. Bugünkü nömrəmizdə yer alan yazıların da sizin üçün maraqlı olacağını düşünürük.

# Böyük Turan çağırışları



**Bir neçə gündür ki, Yeni ilə qədəm qoymuşuq. Yola saldığımız 2025-ci il Türk xalqlarının birliyi və həmrəyliyinin gücləndirilməsi baxımından uğurlu olub. Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbəy Ömürəliyev bayram ərəfəsində dünya türklərinə müraciət ünvanlayıb. Bildirib ki, son bir ildə qurum çərçivəsində türk dövlətlərinin arasında siyasi dialoq dərinləşib, iqtisadi, mədəni və humanitar bağlar möhkəmlənib. Türk dünyası daha da bütövləşib.**

Baş katib vurğulayıb ki, ötən il "Türk Dünyası 2040 Vizyonu" və "TDT-nin 2022–2026 Strategiyası" çərçivəsində nəzərdə tutulan layihələr uğurla icra olunub. TDT-yə üzv və müşahidəçi qismində daxil olan ölkələrin rəsmiləri mütəmadi olaraq regional və beynəlxalq platformalarda görüşüblər, böyük hədəflərə birgə səylərlə çatmaq məqsədilə geniş müzakirələr aparıblar.

Qeyd edək ki, 2025-ci ildə TDT-yə Manas yurdu – Qırğız Respublikası rotasiya yolu ilə rəhbərlik edib. Rəsmi Bişkekin sədrliyi ilə 2025-ci ildə 30-dan çoxu yüksək səviyyədə olmaqla, ümumilikdə, 150-dən artıq toplantı keçirilib. Bu müddət ərzində əməkdaşlıq sahələri genişləndirilib, yeni səmərəli institusional mexanizmlər yaradılıb.

Xatırladaq ki, 2025-ci il mayın 21-də TDT dövlət başçılarının Budapeştdə qeyri-rəsmi Zirvə görüşü keçirilib. Bu sammit ilk dəfə olaraq Avropada və bir müşahidəçi dövlətin ev sahibliyi ilə təşkil edilib. Zirvədə qəbul olunan Budapeşt Bəyannaməsi iqtisadi inteqrasiya, rəqəmsal inkişaf və təhlükəsizlik sahələrində yeni yol xəritəsini müəyyən edib.

Budapeşt sammiti TDT-nin daha geniş coğrafiyada işgüzar və faydalı əlaqələr quraraq qlobal bir platformaya çevrildiyini nümayiş etdirir. Eyni dərəcədə tarixi əhəmiyyət daşıyan digər hadisə isə həmin ərəfədə Bişkekdə Hökumət Başçılarının ilk toplantısının keçirilməsidir. Görüşün sonunda Birgə Bəyanat qəbul edilib.

2025-ci ildə bir çox yeni əməkdaşlıq sahələrində də irəliləyiş əldə olunub. İlk dəfə olaraq Mərkəzi banklar, Maliyyə kəşfiyyat bölmələri, Müdafiə sənayesi qurumları, Əqli mülkiyyət ofisləri, Hesablama palataları, eləcə də Əmək və Sosial Müdafiə Nazirlikləri səviyyəsində görüşlər keçirilib. Yaşıl Maliyyə Şurasının, Türk Dünyası Sığorta Birliyinin və Türk İnvestisiya Təşviqi Şəbəkəsinin fəaliyyətə başlaması iqtisadi inteqrasiya prosesinə təkan verib. Seçkili orqanlar vasitəsilə idarəetmə sahəsində dialoqun səmərəliliyinin artırılması məqsədilə TDT çərçivəsində Mərkəzi Seçki Orqanları Məsləhət Platforması yaradılıb.

Ötən il gənclik, idman, turizm və digər humanitar sahələrdə səmərəli əməkdaşlıq uğurla davam edib. Qırğızıstanda Türk Dövlətlərinin 3-cü Universitet Oyunlarının keçirilməsi, Manasın "2025 Türk Dünyası Turizm Paytaxtı", Almatının "2025-ci il Türk Dünyası Gənclik Paytaxtı" elan edilmələri qardaş xalqlar arasında inteqrasiya prosesinin dərinləşdiyinə dəlalət edir.

Bundan başqa, ötən il Özbəkistanda 3-cü Diaspor Gənclik Forumu və ilk Türk Xizək Kuboku keçirilib. Azərbaycanda isə Birinci Türk Dövlətləri İdman Könüllüləri Forumu təşkil edilib. Başqa bir maraqlı tədbir Türkiyədə keçirilib. Belə ki, Ankarada Türk Qızıl Ay Şəbəkəsi Könüllü Düşərgəsi yaradılıb. Bütün bu genişmiqyaslı işlər türkdilli xalqlar arasında qardaşlıq münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir.

K.Ömürəliyev onu da bildirib ki, əvvəlki illərdə olduğu kimi, 2025-ci ildə də təhsil və elm sahələri də TDT rəhbərliyinin diqqət mərkəzində olub. 170-dən artıq üzvü olan Türk Universitetləri Birliyinin (TURKUNİB) nəzdindəki Orxon Mübadilə Proqramının uğurlu fəaliyyəti elmi əlaqələr sahəsində akademik əməkdaşlığın genişlənməsi üçün yeni fürsətlər yaradıb. Macarıstanın "TDT Tədqiqat, İnkişaf və İnnovasiya Fondu"nun proqramına illik 1 milyon avro ayırması isə uzunmüddətli inkişafın əsas hərəkətverici qüvvələri kimi insan kapitalına və innovasiyaya qoyulan mühüm sərmayə hesab oluna bilər.

TDT Baş katibinin fikrincə, ötən ilin ən əlamətdar hadisələrindən biri oktyabrın 7-də Qəbələdə "Regional Sülh və Təhlükəsizlik" mövzusunda TDT-nin 12-ci Zirvə görüşünün keçirilməsi olub. Bu mühüm toplantı sülh və əməkdaşlığın genişlənməsi şəraitində Türk dünyasında davamlı sabitlik və əməkdaşlıq üçün yeni böyük imkanlar yaradıb.

Qəbələ Bəyannaməsi siyasi məsələlər, xarici siyasət, təhlükəsizlik, iqtisadi sektorun inkişafı, xalqlararası mədəni əlaqələr, institusional koordinasiya və xarici tərəfdaşlarla münasibətlər daxil olmaqla, 121 maddədən ibarət geniş yol xəritəsi təqdim edib.

Türk əməkdaşlıq ekosistemi getdikcə güclənməkdədir. Özbəkistanın Türk Mədəniyyəti və İrsi Fonduna üzv olması və Şimali Kipr Türk Respublikasına Türk Akademiyası yanında müşahidəçi statusu verilməsi məmnunluq doğurub. Eyni zamanda, Türkmənistanın Qəbələ Zirvəsində Türk Akademiyası və Fonduna müşahidəçi qismində qoşulması regional əməkdaşlığı daha da dərinləşdirib.

Bu yerdə bir məqamı xüsusi vurğulamağa ehtiyac var. Məlumdur ki, UNESCO tərəfindən 15 dekabr Dünya Türk Dilləri Ailəsi Günü elan edilib. Bu onu göstərir ki, ortaq dil irsimiz beynəlxalq səviyyədə tanınır və qəbul edilir. Bu gün türk dili böyük bir coğrafi arenada əsas ünsiyyət vasitəsinə çevrilib.

Yeri gəlmişkən, TDT-nin beynəlxalq əlaqələri də davamlı olaraq genişlənir. Bununla bağlı çox sayda nümunələr çəkmək olar. Burada təkcə bir faktı qeyd etmək niyyətindəyik. O da budur ki, TDT Baş katibi K.Ömürəliyev bu yaxınlarda ABŞ-da işgüzar səfərdə olub. TDT rəsmisi səfər çərçivəsində Birləşmiş Ştatlar administrasiyasının yüksək vəzifəli nümayəndələri, Konqres üzvləri, aparıcı beyin mərkəzləri, akademik elmi dairələr, innovasiya platformaları, səfirlər, diaspor nümayəndələri və iş dünyası ilə görüşlər keçirib. K.Ömürəliyev bu barədə deyib: "Bu görüşlər bir daha göstərdi ki, bu gün TDT sabitliyə, faydalı dialoqa və davamlı inkişafa töhfə verən, institusional və nəticəyönlü regional təşkilat kimi qavranılır".

2026-cı ildə isə Türk dünyasının birliyi və həmrəyliyinin qoruyub gücləndirməsi istiqamətində daha geniş və məqsədyönlü işlərin həyata keçirilməsi planlaşdırılıb. TDT tərəfindən bu mühüm layihələrin uğurla icra olunacağına heç bir şübhə yoxdur.

# Əl-Biruninin qlobusu bərpa edilib

**Bu günlərdə özbək mediasında maraqlı bir xəbər qarşıma çıxdı. Orada deyilirdi ki, Daşkənddəki İslam Sivilizasiyası Mərkəzinin əməkdaşları Şərqin dahi alimi Əbu Reyhan Məhəmməd əl-Biruninin məşhur qlobusunu yenidən qurublar. Qlobus mərkəzin bu məqsədlə təşkil etdiyi sərgidə nümayiş olunur.**

Xəbərdə, həmçinin qeyd olunur ki, qlobusun yeni modeli alimin əsərləri və digər elmi mənbələr əsasında qurulub. Xatırladaq ki, böyük zəka sahibi Əbu Reyhan əl-Biruni (973-1048) sözügedən qlobusu 995-ci ildə Xarəzm dövlətinin o dönəmdə mühüm elm və təhsil mərkəzlərindən olan Kyat şəhərində yaşayarkən yaratmışdır. Qlobusun üzərində Xarəzm dövlətinə və qonşu ölkələrə məxsus geniş ərazilərin coğrafi xüsusiyyətləri və iri yaşayış məntəqələri, eləcə də onların arasındakı məsafələr qeyd edilib.

Elmə məlumdur ki, əl-Biruninin əsərlərində təxminən 600 şəhərin koordinatları yer alıb. Özbəkistan Elmlər Akademiyasının vitse-prezidenti, professor Bəhram Abduxalimovun sözlərinə görə, qlobusa 150 tarixi yaşayış məntəqəsi daxil edilib. Professor mediaya açıqlamasında deyib: "əl-Biruninin dünya qlobusu mücərrəd nəzəri model deyil, dəqiq hesablamalar və geodeziya və astronomiya məlumatlarına əsaslanaraq hazırlanmış təcrübi elmi alət olmuşdur. Təəssüf ki, qlobus bu günümüzə gəlib çatmamışdır".



Maraqlıdır ki, görkəmli alim bir çox elmi əsərlərində Yer kürəsinin ümumi formasının kürəyə yaxın olduğunu, dağların və hövzələrin isə nisbətən kiçik ölçüdə olduğunu qeyd edib. Əl-Biruni hesab edirdi ki, Yerin səthi tamamilə düz olsaydı, təbii tarazlıq pozular və bütün torpaqlar su altında qalardı. Alimin elmi tədqiqatları bu gün də öz dəyərini itirməmişdir.

# Qırğız torpağı film çəkilişinə açıqdır



**Qırğızıstanda videomateriallar, o cümlədən genişmetrajlı filmlər yaradan xarici studiyaların sayı ildən-ilə artır. Bu artıma, ilk növbədə, sadələşdirilmiş vergi sistemi kömək edir: belə ki, yerli və əcnəbi şirkətlər cəmi 4 faiz vergi ödəyirlər.**

"Qırğızfilm"in baş direktoru Almaz Tulekeyev bildirib ki, son illər Qırğızıstanda bədii və sənədli fimlərin çəkilişlərinə təkcə yerli studiyalar deyil, xarici şirkətlər də böyük maraq göstərir. Ötən il burada rusiyalı kinematoqrafçılar "Mendişin qayıdışı", "Biz gələcəkdənik 3" kimi maraqlı filmlər çəkiblər. 2025-ci ildə Hindistan, Qazaxıstan və İran kinematoqrafçıları da Qırğızıstan ərazisində bir sıra layihələrini uğurla icra ediblər.

A.Tulekeyev qeyd edib ki, xarici kinematoqrafın Qırğızıstana tez-tez çəkilişlər aparması ölkədə bu sahədə çalışan yerli gənc mütəxəssislərin işlə təmin edilməsinə müsbət təsir yaradır. Onun sözlərinə görə, beynəlxalq tərəfdaşlar çəkilişlərə kömək məqsədilə ingilis, rus, türk və Çin dillərini bilən yerli kadrları seçirlər.

Qırğızıstanın bir çox əraziləri, o cümlədən dünyaşöhrətli İssık gölü, saysız-hesabsız dağ zirvələri, dağların sinəsindən çəkilən dolaylar, şəlalələr və çəmənliklər əcnəbi kinorejissorları maqnit kimi özünə cəlb edir. "Qırğızıstandan başqa dünyanın heç bir yerində rast gəlinməyən ağ kəpənəklər də qonaqlarda böyük maraq doğurur. Hazırda Talasda bu kəpənəkləri animasiya və makrofotoqrafiyadan istifadə etməklə lentə almaq üçün xarici şirkətlərlə danışıqlar aparırıq", - Tulekeyev paylaşıb.

Yerli filmlərin nümayişindən kinoteatrların nağd kassa gəlirləri də artıb. Qırğızıstan Kinoteatr Şəbəkələri Assosiasiyasının sədri Gülkair Tulenbayeva jurnalistlərə deyib ki, hazırda ölkə üzrə nağd yığımın 60 faizi yerli filmlərin payına düşür. 20 il əvvəl isə prokatda cəmi 1-2 qırğız filmi olardı.

# Qazax məktəblilərinə üzmək də öyrədiləcək

**Bu xəbərlə tanış olanda ani olaraq orta əsrlərdə Şərqdə çox məşhur olan "Qabusnamə" əsərində oxuduğum bir məqamı xatırladım. Orada deyilir ki, ata-ananın öz oğlu qarşısında yerinə yetirilməsi vacib olan bir neçə vəzifəsi var. Onlardan biri də uşaqlarına mütləq üzməyi öyrətməsidir.**

Axı, həyat sürprizlərlə doludur. Elə məqam ola bilər ki, insan üzməyi bacarmasa, həyatını itirə bilər. Yaxud qəflətən çaya düşən doğmasını xilas etməkdə çətinlik çəkə bilər.

Düz sözə nə deyəsən? Qazaxıstan Su Oyunları Federasiyasının prezidenti Dmitri Balandin də məhz belə düşünür. O bu günlərdə hökumətinin iclasında çıxış edərək təklif edib ki, Qazaxıstanın bütün orta ümumtəhsil məktəblərində şagirdlərin istisnasız olaraq üzməyi bacarmaları lazımi tədbirlər görülsün.

D.Balandin çıxışında Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) istinadən bildirib ki, 2024-cü ildə Yer kürəsində 236 min insan suda boğulub. Onlardan 82 mini 1-14 yaş arasında olan uşaqlardır. D.Balandinin sözlərinə görə, Qazaxıstanın özündə də hər il yüzlərlə uşaq üzməyi bacarmadığı üçün həyatını itirir.

Qazaxıstan hökuməti D.Balandinin qaldırdığı məsələni diqqətdən kənarda qoymayıb. Hökumət üzvləri bununla bağlı fikir mübadiləsi aparıblar və sonda Qazaxıstan Maarif Nazirliyinin rəhbərliyinə tapşırıb ki, federasiyanın mütəxəssisləri ilə birlikdə məktəblərdə uşaqların üzməyi öyrənmələri üçün tədbirlər planı hazırlasın.



Qırğız mətbuatı yazır ki, nazirlik, artıq bu qərarın icrasına başlayıb. Belə ki, birinci mərhələdə Almatı və Astana şəhərlərindəki orta ümumtəhsil məktəblərinin şagirdləri üçün həm dövlətə məxsus olan, həm də özəl üzgüçülük hovuzlarında təlimlər keçiriləcək. Sonra isə ölkənin digər şəhər, qəsəbə və kəndlərindəki təhsil müəssisələrinin şagirdləri üçün analoji addımlar atılacaq.

*Səhifəni hazırladı:*
***Məsaim ABDULLAYEV***
***XQ***

# Poeziyamızın Yeni il nəğmələri

**Şərq təqviminə görə, bu il At ilidir. Üstəlik, bu sadə At ili deyil, od ünsürlü və daha çox "Alovlu At ili" kimi tanınır. Enerjisi, təbiəti və simvolik mənası ilə seçilən bu ilin hamımız üçün, o cümlədən qələm sahiblərimiz üçün uğurlu, düşərli olacağına inanırıq.**

Unudulmaz şairimiz Səməd Vurğun deyirdi:

**İllər gəlib keçir ömürdən, illər,**
**İllər görməmişik bu illər kimi.**

Əminik ki, "Alovlu At ili" də xalqımızın arzularını çin edəcək, şairlərimizə gözəl şeirlər yazdıracaq. Elə ilin əvvəlinə təsadüf edən bu səhifəni də onların yaradıcılıq uğurlarına bir bardaq su aydınlığı, ilham xeyir-duamız kimi təqdim edirik.



## Mən tələsmirəm

*Səməd VURĞUN,*
*Xalq şairi*

Dostlar, badələri qaldırın içək!
Gecə, ulduzludur, hava da sərin.
Demirəm məst olub dünyadan keçək…
Deyirəm mehriban düşüncələrin
İsti qucağında qızınaq bir az…
Qoy uzansın gecə, geciksin səhər,
Yuxuya getməsin məclisdəkilər –
Mənim söhbətimdən yorulmaq olmaz.
Hələ yer üstündə, insan yanında
Deyib danışmaqdan doymamışam mən…
Uzadaq ömrünü hər bir anın da,



Yel kimi keçməsin vaxt üstümüzdən…
Bu aylı gecədə, bu dağ döşündə,
Bu sazlı, söhbətli bulaq başında
Bu saat, bu dəm
Heç yana, heç yerə mən tələsmirəm!

## Elə gözəl qar yağır...

*Sabir RÜSTƏMXANLI,*
*Xalq şairi*

Elə gözəl qar yağır, qış da yadımdan çıxır,
Bu bəyaz burulğanda
yaş da yadımdan çıxır…
Ələnir lopa-lopa, ağır, yorğanparası,
Göydən milyon göz yağır –
görünməzdir qarası.

Ağappaq paraşütlər – buludun desantları,
Çapır göydən yerəcən Tanrının ağ atları.
Qonmağa yer axtarır körpəcə qu quşları,
Toxunur ağ xalıya ulduzlu naxışları.
Milyon əriş çəkilir göy üzündən yerəcən,
Bu bəyaz parçasını hamıyla bölənəcən.

Yüz qayçı itilənsin - bu ağ ipləri kəsməz,
Əlim ağ vərəqləri çevirməyə tələsmir…

İşləyir gecə-gündüz səssiz qar dəyirmanı,
Soyuq yorğan altında isinir yerin canı.
Bu ilahi təmizlik xatırladır nələri? -
Anamın gözlərində yuva qurmuş kədəri.
Əridib üfüqləri alovlu nəfəsilə
Ağ çiçəkli bağlardan boy göstərən səhəri.

Ağ simlərdə çalınır ən qəmli mahnılarım,
Qədərlə barışığım, kül olmuş arzularım.
Niyə donub qalmışam, nəyə
qarışıb başım? -
Qoy gedib səs-səmirsiz
bu ağlığa qarışım…

## Qar

*Ramiz QUSARÇAYLI*

Yağır, yaman yağır Qubanın qarı,
Yenə Təngə qardı,
Afurca qardı.
Üzür dağ kəndini qışın qubarı
Tox toxa söylənir, ac aca, - qardı.
Qar qovur küləyi o dağ, bu dağda,
Sovrulur, səslənir dərə tabaqda,
Beləcə yağırdı min il qabaq da
Bu qar köhnə qardı,
çox qoca qardı...
Zirvədən asılıb soyuyur bulud,
Unut soyuqluğu buludum, unut...
Bir evdə od yanır,
bir evdə sükut
Bir baca tüstüdü,
bir baca qardı.
Qar düşüb ovçunun tələsinə də,
Qar qonub tüfəngin lüləsinə də,
Qar yağır gecənin şöləsinə də,
Bu qar sirli qardı, tapmaca qardı.
Boyundan boy verir boyların üstə,
Oynayır sıldırım layların üstə,
Uzanıb ən uzun çayların üstə, -
Adına gəlincə, - bir heca, Qardı...

## 31 yaşın şeiri

*Salam SARVAN*

Təkəm lap 31 rəqəmi kimi,
Yel əsir, əsəbdən titrəyir qapım.
Bir stol açmışam, süfrəmin üstə
bircə qab çatışmır – mürəkkəb qabı…

Vaxt axır, 31 yaş damcıları



aram-aram düşür hələ üstümə.
Elə üşüyürəm, O da yoxdu ki,
gəlib əllərini sərə üstümə.

Bu köhnə kirayə evin yiyəsi
yenə "qulağını" burur saatın:
– Fikirdən neçədə ayılacaqsan,
ay oğul, neçəyə qurum saatı?

## Qar haqqında şeir

*Elşad XAQAN*

Mən bu qarı sevmirəm!
Bəli! Sevmirəm qarı!!!
Gələndə göz önünə Xiyabanda uyuyan,
Qar yağanda soyuyan
Şəhidlərin məzarı,
Sevə bilmirəm qarı...
Düşündükcə səngərdə üşüyən oğulları,
Düşündükcə, necə də üşüyür ayaqları,
Düşündükcə, buz kəsib şaxtadan vücudları,..
Yox-yox, sevmirəm qarı...
Sevə bilmirəm qarı.
Amma oğlum çox sevir,
Qar görəndə bərəlir
Sevincindən o məsum, o qayğısız gözləri.
Qarı sevmədiyimi o da çox yaxşı bilir,
Lakin o da əsgərdir, gələcəyin əsgəri!
Sanki, öz atasını
Öz uşaq ağlı ilə danlayaraq, söyləyir:
– Ata, gör, nə gözəldir təbiətin ağ donu,
Düşünürəm ki, bunu
Yaradan nemət verib,
Bizə ruzi göndərib,
Yağmasa bu yağış, qar,
Suyunu hardan alar,
Düşün, çaylar, bulaqlar?!
Bizə nəfəs verən bu ağacları, gülləri,
Tarlalarda əkilən taxıllıq sünbülləri
Əllər necə sulayar?!
Taxıl olmasa əgər,
Bəs, bizləri qoruyan
Səngərdəki əmilər
Çörəyi hardan alar?!
Nə ilə qidalanar?!
Demirsənmi, ac qalar?!
Ata, sən sevməsən də,
Mən qarı çox sevirəm!
Əsgər əmilər üçün,
Qar yağsa, şənlənirəm!
Mən qarı çox sevirəm!
Səsləndikcə beynimdə uşağın bu sözləri,
İnandırım sizləri,
Mən qarı çox sevirəm.
Mən qarı çox sevirəm!!!

## Tək bircə yol qala

*Sabir YUSİFOĞLU*

Nə yaxşı göylərin yadına düşdük,
Bizim şəhərə də, axır, qar yağdı.
Aldadıb yerdəki sinoptikləri,
Yağdı səhərəcən, o ki var yağdı.

Bu qar lopa-lopa, bu qar dümappağ,
Yağa səhərəcən, yağa dizəcən.
Bağlana dünyanın bütün yolları,
Tək bircə yol qala - bizdən sizəcən!

## Təzə ildə

*İbrahim İLYASLI*

Nə diləyim Yaradandan,
Üzü gülsün yaxşıların.
Yaxşı yerdən yaxşı-yaxşı,
Səsi gəlsin yaxşıların.

Haqdan bilsin sevgisini,
Yığsın ovcuna nəfsini.
Açılsın könlü gül kimi,
Təzələnsin yaxşıların.

Bağından boylansın gülü,
Boy atsın sarı sünbülü.
Təzə ildə hər müşkülü,
Kaş düzəlsin yaxşıların.

## Qəzəl

*Lilpar CƏMŞİDQIZI*

Qədəmindən görürəm, xoş gələcək təzə ilim,
Yaradan ömrü veribdir calasın yazə, ilim.

Tələsən köhnə ilin ömrü zimistanla bitər,
Yetişər fəsli-bahar, günlər olar tazə, ilim.

Ötən il xatirələr yazdı könül dəftərimə,
Təzə ildən dönəcək can özü şahbazə, ilim.

Məni insan kimi Tanrım yaradıb sadə, mətin
Belə dünyadə gərək görməyim əndazə, ilim.

Neçə xoş günlərimin tarixi ağlımda qalıb,
Nə qədər olsa boran, gün calanar yazə, ilim.

Yenə şənlik yaradır, heysiyyətim qəlbimdə,
Toxunur duyğularım tar, qavala, sazə, ilim.

Yazılan hər qəzəlin nöqtəsi, Lilpar, qoyulur,
Bilirəm, can yaranır, yol çəkilir azə, ilim.

## Yeni il

*Ağamir CAVAD*

Salam, yeni ilim, nə xoş görüşdü!
Biz gözəl günləri eşqlə sayırıq.
Bu ötən yeni il nə tez ötüşdü?
Təzə yeni ili qarşılayırıq.

Eşq ilə, gəl, qoyaq səsə dünyanı,
Eşqlə qiymət verək bu yerə, göyə.
Yeni il, nurunla bəzə dünyanı,
Çağır insanları sən həmrəyliyə.

Qoyma hədər keçsin hər kiçik anı,
Xilas et cahanı ağ atlı ərlə.
Sıyırıb ədalət, haqq qılıncını,
Bəzə dünyamızı qələbələrlə.

Eşqinlə qanad aç, düş dilə, yaşa,
Çıx zaman üzünə açıq alınla.
Ən uca zirvələr fəth elə, yaşa,
Həmişə yeni qal uğurlarınla.

Xeyir şər üstündə qələbə çalsın,
Əbədi eşqlə qur hər saatını.
Ömrünün yolları sevinclə dolsun,
Tanrı da göndərsin mükafatını.

## Qorxutdu məni

*Arif FƏRZƏLİ*

Dərələr, zirvələr bir qiyafədə,
Enişlər, yoxuşlar bir qafiyədə.
Bilinmir dünyanın uzunu, eni,
Qurd çöldə ağarır, quzu pəyədə,
Bu qarın ağlığı qorxutdu məni.

Həyatın qəribə işləri vardır,
Qar altda qalıbdır saçımın dəni.
Bir anda oğlumun başı "ağardı",
Bu qarın ağlığı qorxutdu məni.

Yağdıqca hər şeyi pozur elə bil,
Ağ xətlə təzədən yazır elə bil.
Bu dağlar, bu daşlar pozulsa, heç nə,
Fikirlər, yaddaşlar pozulsa, heç nə,
Qeybətlər təzədən yazılsa, heç nə,
Qorxulu bir yuxu yozur elə bil,
Bu qarın ağlığı qorxutdu məni.

Ağaclar işarır ağ bayraq kimi,
Yanında kiriyib ağciyər kollar.
Doğulub atılmış uşaqlar kimi,
Dümağ mələfəyə bükülüb yollar,
Bu qarın ağlığı qorxutdu məni.

Ağ küçə, ağ səki, ağ ev, ağ adam,
Bu ağ fiqurların önündə matam.
Susub soyuğuna dözərdim, atam,
Bu qarın ağlığı qorxutdu məni.

Təbiət, eh, bizim tayımız deyil,
Təbiət hamıya bir gözlə baxır.
Bayaqdan torpağa qar yox, elə bil,
Ağ ümid ələnir, təsəlli yağır –
Bu qarın ağlığı ovutdu məni...

## Qar yağır

*Sərraf TALIB*

Daha qışın ötkəm, oğlan çağıdır,
Yağış bitib, dağa-daşa qar yağır.
Qəfil külək yöndən əsib ağrıdır,
Payız donub baxır, qışa qar yağır.

Rizlər cığır olub, cığırlar da yol,
Cığıra qar yağır, rizə qar yağır.
Qarın ağrısından ağac olur kol,
Qarın ağlığından gözə qar yağır.

Dünyanın bir həzin nağıl vaxtıdır,
Çatılmış düyünlü qaşa qar yağır.
Dünyanın haqq-hesab, ağıl vaxtıdı,
Ağıllı, fikirli başa qar yağır.

Soyuqdan ağarıb titrəyir əllər,
Ayağa qar yağır, ələ qar yağır.
Qalanır üst-üstə qar kimi illər,
Yağır günə, aya, ilə qar yağır.

O gözəl, bilirəm, bir gün gələcək,
Xəyala qar yağır, sözə qar yağır.
Öləydim üzündə qar dənəsitək,
Yağır asta-asta üzə, qar yağır.

*Səhifəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

# Qazax xanlığı – 382 illik möhtəşəm qıpçaq dövləti

**Qazax xanlığı zamanında Sufi alimi Xoca Əhməd Yasəvinin təlimləri xalq arasında geniş yayılırdı. Elita arasında Nəqşbəndiyyə təriqətinin (ordeninin) təbliğçiləri əhəmiyyətli rol oynayırdılar. Bir çox qazax xanı Nəqşbəndi şeyxlərinin müridləri idilər.**

Bir çox mütəxəssisin fikrincə, XV və XVI əsrlərdə qazaxlar arasında bütpərəst kultlar hələ də mövcud idi, İslam o qədər də geniş yayılmamışdı. İslam dini insanlara Qazax sultanları və xanları tərəfindən aşılanırdı. Bu, köçəri cəmiyyəti birləşdirməyə kömək etməklə yanaşı, həm də sosial intizamı gücləndirirdi. Mollalar, xocalar və imamlar dini təbliğatçı rolunu öz üzərlərinə götürürdülər. Xocalar, Qazax sultanları kimi, özlərini Məhəmməd peyğəmbərin və onun yaxın çevrəsinin nəsilləri hesab edərək şəcərələrini peyğəmbərə və onun ilk dörd xəlifəsinə bağlayırdılar. Qazaxlar xocalara savadlı bir şəxs, müəyyən mənada kahin kimi baxırdılar. Mənəvi biliyin nümayəndələri olan xocalar vergi və ya rüsum ödəmirdilər. Onlar ədalət mühakiməsinə cəlb edildikdə yalnız sultanlar tərəfindən mühakimə olunurdular. Törələr kimi xocalar da aristokrat sinfinə mənsub olduqları üçün torpaq (vəqf) sahibi idilər. Dini xadimlər sosial fəaliyyətlərini əsasən müsəlman rituallarının icrası ilə ifadə edirdilər. Mollalar xanlıqda çoxluq təşkil edən xalqların dilində danışmağa borclu olduqlarından Qazax xanlığının diplomatik əlaqələrində, dövlətlərarası münasibətlərin tənzimlənməsində tərcüməçi kimi iştirak edirdilər. Onlar, həmçinin xanların, sultanların, biylərin (bəylərin) və ağsaqqalların yürütdüyü siyasətin ideoloji dəstəkçiləri kimi də çıxış edirdilər. Qazax xanlığı dövründə İslam əhali arasında mövqeyini möhkəmləndirdi. Qazaxlar İslamın sünni mənsəbinə tabe olsalar da, görkəmli alim, tarixçi, hüquqşünas (faqih) və şair Fəzlullah ibn Ruzbihan İsfahaninin qeyd etdiyi kimi, köçərilərin İslamdan əvvəlki dini inanclarının bəzi elementləri hələ də qalırdı. Onun sözlərinə görə, XVI əsrin əvvəllərində dini liderlər Qazax xanlığına təkcə Həştərxandan yox, həmçinin Türküstan, Məvarəünnəhr, Səmərqənd, Buxara, Xarəzm, Xivə, Dərbənd, Astarabad, Xorasandan bütpərəst inancları aradan qaldırmaq və İslam normalarını yaratmaq məqsədilə göndərilirdi.

Oturaq həyat sürən qazax əhalisi arasında İslam daha böyük təsirə malik idi. Qazax xanlığının Sırdərya bölgəsinin şəhər və vahələrində müsəlman ruhaniləri mühüm rol oynayırdılar. Bu ruhanilərin üzvləri şeyxülislam, qazi, şeyx, molla və mütəvəlli kimi müxtəlif adlarla çağırılırdılar. Onlar hökmdarlara müxtəlif formalarda dəstək göstərməyə çalışır və bunun müqabilində imtiyazlar, torpaq və vergi güzəştləri alırdılar. Müsəlman ruhaniləri, həmçinin, əhəmiyyətli torpaq sahələrinə və otlaqlara da şəxsi mülk kimi sahib idilər.

Həştərxan xanlığının müstəqilliyi dövründə müsəlman ruhaniləri, xüsusən də Hacı-Tərxan üləmaları Şərqdə, o cümlədən qazaxlar arasında fəal şəkildə missionerlik işləri apararaq İslamın və İslam mədəniyyətinin yayılmasını təşviq edirdilər. Qazax xanlığında müsəlmanlardan başqa, digər dinlərin nümayəndələri də yaşayırdılar. Bir mənbəyə görə, orada təxminən mindən artıq şəhər və kənd olub.

Qazax xanlığı (qazaxca: Kazak xandığı), Şərq mənbələrində Qazax ulusu, 15-ci əsrdən 19-cu əsrə qədər mövcud olan Qızıl Ordanın varisi, Dəşti Qıpçağın şərq hissəsində qurulan dövlət. Xanlıq 1465-ci ildə Urus xanın nəticəsi Canibek xan və Kerey xan tərəfindən yaradılıb. Hər iki xan Çingiz Xanın soyundan gələn Türk-Monqol Törə nəslindən idi.

Xanlığın dini İslam, dili qazax dili, ərazisi 3 200 000 kvadratkilometr, əhalisi 1832-ci ildə 3 milyon 200 min nəfər, paytaxtları 1465-1469-cu illərdə Sozak, 1469-1511-ci illərdə Sığanaq, 1511-1521-ci illərdə Sarayşik, 1521-1599-cu illərdə yenidən Sığanaq, 1599-1781-ci illərdə Türküstan, 1729-cu ildən 1781-ci ilədək həm də Daşkənd olub.

Törə nəsli xanlığın Rusiya imperiyası tərəfindən süqutuna qədər hakimiyyətdə qalıb. Qazax xanlığının əraziləri şərqi Kumaniyaya (müasir qərbi Qazaxıstan), Özbəkistanın böyük bir hissəsinə, Qaraqalpaqstana və Sırdərya çayına, müvafiq olaraq Həştərxan (Hacı-Tarxan) və Xorasana qədər uzanıb. Qazax xanlığı 19-cu əsrdə genişlənən Rusiya imperiyasının tərkibinə daxil edilib. Xanlığın yaradılması Qazax dövlətçiliyinin başlanğıcını qoyub və Qazax xanlığının 550 illiyi 2015-ci ildə yüksək səviyyədə qeyd olunub.

Qazax xanlığının ilk illəri Əbülxeyr xanın nəvəsi Məhəmməd Şeybani torpaqlarına nəzarət uğrunda mübarizə ilə yadda qalıb. 1470-ci ildə qazaxlar Şeybanini Yası şəhərində (müasir Türküstan) məğlub edirbər, bundan sonra özbəklər cənuba–Səmərqənd və Buxaraya çəkilməyə məcbur olublar. 1480-ci ildə Kerey xanın oğlu Burunduq xanın hakimiyyəti dövründə qazaxlar 50 min qazidən ibarət ordu toplayıb və Sırdərya çayı boyunca Məhəmməd Şeybaninin qüvvələrini dəfələrlə məğlub edib. Məhz onun hakimiyyəti dövründə, 1500-cü ildə özbəklər qazaxlarla sülh bağlayıb və Qazax xanlığı özbəklərin nəzarətindən çıxaraq suveren dövlətə çevrilib, bununla da Sırdərya çayının şimalındakı keçmiş Özbək xanlığının bütün torpaqları Qazax xanlığına verilib. (Bu hadisələrlə bağlı Heydər Duğlati XVI əsrdə yazdığı



Qazax xanlığının 550 illiyinə həsr olunmuş marka-2015



Qazax xanlığının ərazisi

"Tarix-i Rəşidi" kitabında məlumat verib).

## Qazax xanlığının genişləndirilməsi

Canibəyin oğlu Qasım 1511-ci ildə Qazax xanı olub və xanlığının süqutuna qədər Canibəyin nəsli tərəfindən idarə olunub. Onun hakimiyyəti dövründə Qazax xanlığı güclü bir dövlətə çevrilib və müasir Qərbi Qazaxıstan ərazisini işğal edən Noqay Ordası ilə müharibə aparıb. Qasım xan 1520-ci ildə Noqay xanlığının paytaxtı Sarayçiki uğurla ələ keçirib və Noqay Ordasını Həştərxan xanlığından qovub. Qasım xanın hakimiyyəti dövründə Qazax xanlığı müasir Avrasiya arenasında güclü nüfuz qazanan,


Qazax xanlığının bayrağı

siyasi təsirə malik dövlət idi. Qasım xan, həmçinin incəsənətin, ədəbiyyatın və dinin əsas himayədarı idi və İslamın Qazax cəmiyyətində mühüm siyasi və sosial-mədəni yer tutmasına şərait yaradırdı. Onun hakimiyyəti dövründə Rusiya çarlığı Qazax xanlığı ilə diplomatik münasibətlər quran ilk böyük dövlət olub. Bu, Qasım xanın uğurlu lider kimi nüfuzunu möhkəmləndirib və onun imperiyası Qərbi Avropada perspektivli siyasi qurum kimi tanınıb.

Fars dilində yazılan "Tarixi Səfəvi" əlyazmasında Qasım xanın Dəşti-Qıpçağın böyük hissəsini ələ keçirməsindən bəhs olunur. Əlyazmada, həmçinin səkkiz min əsgərdən ibarət qazax ordusunun Buxaralı Şeybani xanın İranın Xorasan şəhərini necə ilhaq etməsinə kömək etdiyi təsvir edilir.

Qasım xanın göstərişi ilə 1520-ci ildə "Qasım xanın Parlaq Yolu" adlı ilk Qazax xanlığının ilk qanunlar məcəlləsi yaradılıb. Qasım xan Şeybanilərin süqutundan sonra Teymuri lideri Baburla ittifaq bağlayıb, bu da Moğollar və Səmərqənd hakimləri tərəfindən yüksək qiymətləndirilib.

Dövlət xadimi və hərbi lider Mirzə Məhəmməd Heydər (1499-1551) "Tarix-i-Rəşidi" kitabında yazırdı: "Qasım xan bütün Dəşti-Qıpçağın mütləq hökmdarı oldu. Onun ordusunda bir milyondan çox adam var idi və o, Cuci xanın dövründən bəri heç kimin göstərmədiyi misilsiz şöhrət və güc səviyyəsinə çatdı".

**Qazax xanlığının inkişafında mühüm xidmətləri olan xanlar:**

**Xaknəzər xan**

1537-ci ildə xan olan Xaknəzər xanın hakimiyyəti dövründə Qazax xanlığı bir neçə tərəfdən–qərbdən Noqay Ordası, şimaldan Sibir xanlığı, şərqdən Monqolustan və cənubdan Buxara xanlığının hücumları ilə üzləşir.

Xaknəzər xan işğal olunmuş Qazax torpaqlarının azad edilməsinə başlayır. O, Sarı-Arkanın şimal bölgələrini Qazax xanlığına qaytarır, Sarayçiki və ətraf Qazax ərazilərini Noqay Ordasından geri alır, Manqışlağı fəth edir. Bundan sonra Xaknəzərin Monqolustana yürüşü başlayır və Monqolustanın məğlubiyyəti ilə başa çatır.

1568-ci ildə qazaxlar Emba çayında Noqay Ordasını uğurla məğlub edərək Həştərxana çatsalar da rus qoşunlarının təzyiqi nəticəsində geri çəkilməyə məcbur olurlar.

**Şiqay xan**

Xaknəzər xanın ölümündən sonra Cadık Sultanın oğlu Canibək xanın nəvəsi Şiqay xan 1580–ci ildə səksən yaşında taxta çıxıb və qazaxlar arasında nüfuzlu xan kimi tanınıb. Çiqay xan Qazax xanlığının xarici siyasətini davam etdirib, Qazax dövlətini gücləndirmək üçün Şeybaninin varisləri ilə münaqişələrdən ağıllı şəkildə istifadə edib.

1582-ci ildə Buxara xanı Abdullah Qazax xanı Şiqay və oğlu Təuekel Sultanla birləşərək Ulitauda Daşkənd hökmdarı Baba Sultana qarşı yürüş təşkil edirlər. Baba Sultan məğlub olur və Səmərqənd bölgəsindəki Afrikent əyalətinə qaçır.

**Təuekel xan**

16 il hakimiyyətdə olan Təuekel xan Qazax xanlığının ərazilərini Daşkənd, Fərqanə, Əndican və Səmərqəndə qədər genişləndirir. 1598-ci ildə Qazax qoşunları Buxaraya yaxınlaşaraq şəhəri 12 gün mühasirədə saxladıqdan sonra şəhər tutulsa da, Buxara lideri Pir Məhəmməd və qardaşı Baki Məhəmmədin rəhbərliyi altındakı qazaxlar geri çəkilməyə məcbur olur. Bu döyüşdə Təuekel xan yaralanır və Daşkəndə qayıdan zaman yolda ölür.

**Esim xan**

Təuekel xanın ölümündən sonra Şıxan xanın oğlu Esim Sultan 1598-ci ildə taxta çıxır. Əhali Esim xanı "Ensegey boylı er Esim" adlandırıb. Onun hakimiyyəti Qasım xan və Xaknəzər xandan sonra Qazax xanlığının daha da güclənməsinə səbəb olur. Esim Xan xanlığın paytaxtını Türküstandakı Sığnak şəhərinə köçürür, başlanan Qaraqalpaq üsyanlarını yatırdır.

Bunun ardınca Qazax xanlığı ilə Buxara xanlığı arasında 15 illik sakitlik yaranır.

1613-cü ildə Esim özbəklərin hücumlarını dəf edir və Səmərqəndi Qazax xanlığına qaytarır.

Esim xan Qazax ordusunu birləşdirərək Daşkənd xanı Tursun Məhəmmədə və Buxara xanlığına qarşı yürüş edir və 1627-ci ildə bu əraziləri öz torpaqlarına qatır, Daşkənd xanlığını ləğv edir və müharibə başa çatır. Esim xanın dövründə "Esim xanın eski yolu" adlı qanunlar da qüvvəyə minir.

**Salqam Cahangir xan**

Salqam Cahangir xanın hakimiyyəti dövründə şərqdə qazaxlara qarşı yeni və güclü bir rəqib olan Cunqar xanlığı meydana çıxır.

1643-cü ilin qışında Cinqar xanı Erdeni Baturun Qazax torpaqlarına hücumu ilə böyük bir döyüş başlayır. Cunqarlar Jetisu bölgəsinin böyük hissəsini ələ keçirir və təxminən 10 min adamı əsir götürürlər. Salqam Cahangir xan Cunqar hücumunu dəf etmək üçün 600 döyüşçü ilə Orbulak çayı boyunca hücuma keçir və məşhur Orbulak döyüşü baş verir. Səmərqənd hökmdarı Calanqtos Bahadur 20000 döyüşçü ilə Cahangir xanın köməyinə gəlir. Calanqtos Bahadurun köməyi sayəsində Salqam Cahangir xan döyüşdə qalib gəlir, Erdeni Batır geri çəkilməyə məcbur olur. Məğlub olan cunqarlar bu döyüşdə təxminən 10 min hərbçi itirirlər.

1652-ci ildə qazaxlar və cungarlar arasında baş verən üçüncü böyük döyüşdə qazax qüvvələri məğlub olur və Salqam Cahangir xan öldürülür.

**Təueke xan**

Cahangir xanın ölümündən sonra 1672-ci ildə Təuke xan Qazax xanlığının hökmdarı olur. Onsuz da zəifləmiş qazaxlar Sairamda bir daha məğlub olur, böyük şəhərlərini itirirlər.

1687-ci ildə cunqarlar Türküstanı mühasirəyə alırlar və Sübhanqulu xanın gəlişindən sonra geri çəkilməyə məcbur olurlar.

1697-ci ildə Tsevanq Rabtan Cunqar xanlığının hökmdarı olur və bir neçə sərkərdəsini Təuke xanı özünə tabe etmək üçün göndərir. Cunqarlar və Qazax xanlığı arasında 1709, 1711–1712, 1714 və 1718-ci illərdə böyük müharibələr baş verir. Qazax xanlığı bu qarşıdurma nəticəsində zəifləyir və əhalisinin təxminən üçdə biri həlak olur. 1718-ci ildə Təuke xanın ölümündən sonra ideyasını verdiyi Qazax xanlığı üç cüzə–Böyük Cüz, Orta Cüz və Kiçik Cüzə bölünür. O vaxtdan etibarən hər cüzin öz xanı olur.

43 il hakimiyyətdə olan Təuke xan qazaxlar arasında ilk dəfə "Altı Alaş" ideyasını irəli sürüb ki, bununla da o dövlət həyatında yeni bir mərhələnin bünövrəsini qoyub. "Altı Alaş" bu qruplardan ibarət idi: Şərqi Türkistanda yaşayan Qazax qrupları Böyük Cüzə, Orta Qazaxıstanda yaşayan Qazax qrupları Orta Cüzə, Qərbi Qazaxıstanda yaşayan qazaxlar Kiçik Cüzə mənsub idi. Bundan başqa, "Altı Alaş"a qırğızlar; qaraqalpaqlar, Giyat və Katağan kimi qruplar daxil idi.

Təuke xan, həmçinin Qazax xanlığının qanunlar məcəlləsini təkmilləşdirir və o, "Jeti Jarğı", "Yeddi Əsasnamə" adı ilə tanınır.

**Abılay xan**

1771-ci ildə xan olan Abılay xan Orta Cuzun xanı idi və digər iki cüz üzərində nəzarətini genişləndirməyə və bütün qazaxları öz tərkibinə daxil etməyə müvəffəq olmuşdu. Xan olmazdan əvvəl Abılay Qazax-Cunqar müharibələrində iştirak etmişdi və özünü istedadlı təşkilatçı və sərkərdə kimi tanıtmışdı. O, Kokand xanlığına və qırğızlara qarşı çoxsaylı yürüşlərə rəhbərlik edib, son yürüşündə onun qoşunları indiki Qazaxıstanın cənubundakı bir çox şəhərləri azad edib və Daşkəndi ələ keçirmişdi. Hakimiyyəti dövründə Abılay xanlığın Rusiya imperiyasından və Çindən müstəqilliyini qorumaq üçün çox iş görmüşdü.

**Qazax xanlığının xanları:**

*Kerey Xan, Bolat Sultanın oğlu, 1465 1482-ci illər*

*Canibek Xan, Barak Xanın oğlu, 1465...*

*Çipmunk Xan, Kerey Xanın oğlu, 1482-1513...*

*Qasım Xan, Canibek Xanın oğlu, 1513 1521...*

*İkihakimiyyətlilik dövrü, 1521-1551...*

*Mamaş Xan, Qasım Xanın oğlu, 1521-1522...*

*Buydaş Xan, Adik Sultanın oğlu, 1521-1522...*

*Tahir Xan, Adik Sultanın oğlu, 1522-1530...*

*Bauş Xan, Adik Sultanın oğlu, ikihakimiyyətlilik, 1530 - 1537...*

*Tugum Xan, Adik Sultanın oğlu, ikihakimiyyətlilik, 1530-1537...*

*Xoca Məhəmməd Xan, Adik Sultanın oğlu, 1535...*

*Axmat Xan, Caniş Sultanın oğlu, 1533 1536...*

*Bulat Xan, Usek xanın oğlu,1537...*

*Xaknəzər xan, Qasım xanın oğlu, 1530-1540...*

*Əhməd Gəray, Xaknəzər xanın oğlu, 1530-1540...*

*Xaknəzər xan, Qasım xanın oğlu, 1551-1580...*

*Toqum Xan, naməlum, 1552-1556...*

*Şiqay Xan, Cadik Sultanın oğlu, 1580-1582...*

*Təuekel Xan, Şiqay xanın oğlu, 1582-1598...*

*Yesim Xan, Şiqay xanın oğlu, 1598-1628...*

*Tursun Məhəmməd Xan, Cəlim Sultanın oğlu, 1613-1627...*

*Zhanibek xan II, Yesim xanın oğlu, 1628-1643...*

*Salqam Cahangir Xan, Yesim xanın oğlu, 1643-1652...*

*Batır xan, 1652-1672...*

*Təuke Xan, Salqam Cahangir xanın oğlu, 1672-1715...*

*Kayıp Xan, Qusrau Sultanın oğlu, 1715-1718...*

*Əbülxeyr xan, Kajı Sultanın oğlu, 1718-1748...*

*Əbilmambet xan, Bolat xanın oğlu, 1748-1771...*

*Abılay xan, Korkəm Vəli Sultanın oğlu, 1771-1781...*

*Kenesarı xan, Qasım Sultanın oğlu, sonuncu xan, 1841-1847...*

*Aliken, Qarabaş Sultanın oğlu, rusların təyin etdiyi, qazaxlar tərəfdən qəbul olunmayan xan, 1858-1859/1860...*

***

Kəşmirdə yaşayan görkəmli sərkərdə, dövlət xadimi, alim, Türküstan, Monqolustan, o cümlədən Qazax xanlığı ilə bağlı "Tarix-i-Rəşidi" fundamental əsərinin müəllifi Məhəmməd Heydər Dulatinin (1499-1551) yazdığına görə, Qasım xanın hakimiyyəti dövründə hərbi süvarilərin sayı 300 min nəfərə çatıb. Qazax xanlığının döyüşçüləri beş müxtəlif silah növündən–kibrit tüfəngləri, qılınclar, nizə, yay, dəyənəklər və baltalardan istifadə ediblər. Dövlətin xana tabe olan minlərlə döyüşçüsü olan daimi ordudan əlavə hərbi əməliyyatlar zamanı müxtəlif qəbilələrdən səfərbər olunan əsgərlərdən də istifadə olunub və döyüşlərdən sonra onlar qəbilə bazalarına qayıdıblar. Köçəri qazaxların Tumennik (10 min döyüşçü), Minlik (1000 döyüşçü), Sotnik (100 döyüşçü) və Desyatnik (10 döyüşçü) kimi müxtəlif səviyyəli hərbi hissələri var idi. Bu hərbi birləşmələrin kökləri türklərə (Göytürklər) gedib çıxır və onlardan geniş istifadə olunub. Belə birləşmələrə Çingiz xan və Əmir Teymurun ordularında da rast gəlinib. Qazax xanlığında xüsusi hərbi təcrübəyə malik olan batırlar hərbi strukturlarda əsas rol oynayıblar. Batırlıq hərbi qurumun vacib tərkib hissəsi hesab olunub, onlar, hətta xanlara məsləhət veriblər. Məsələn, Sadır tayfasından, Nayman nəslindən olan Aldiyar batır Təuke xanın sağ əli idi və xanların hərbi və siyasi məsləhətçisi kimi xidmət edirdi.

## Qazax xanlığının parçalanması və Rusiya tərəfindən işğal edilməsi

Qazax xanlığı ərazilərinin tədricən tənəzzülü, parçalanması və Rusiya imperiyasına birləşdirilməsi 18-ci əsrin ortalarında başlayıb və 19-cu əsrin ikinci yarısında başa çatıb. 18-ci əsrin ortalarında Cunqarlar və Oiratlarla uzun sürən silahlı münaqişələr nəticəsində Qazax xanlığının tənəzzülə uğradığı və əvvəllər konfederasiya şəklində olan xanlığını üç cüzə parçalanması haqqında məlumat verilmişdi. 1731-ci il oktyabrın 10-da Kiçik Cüzün xanı Əbülxeyr Rusiya xanı Annaya sədaqət andı içərək Rusiyadan kömək almaq, iqtisadi sabitliyi təmin etmək və rəqibi Sultan Kayıpa qarşı durmaq əzmində idi. Çox keçmədən Orta Cüz xanı Semeke eyni şərtlərlə ruslarla əməkdaşlığa razılıq verir. Bununla da rus hökmdarları Kiçik və Orta Cüz xanlarını təyin etmək və onlara daha çox təsir göstərmək hüququnu əldə edirlər. Xanlar daxili münaqişə və qarşıdurmalarda, rəqiblərinə qarşı mübarizədə daha çox Rusiyadan kömək istəyir və bütün hallarda bu yardımı ala bilirdilər.

1781-ci ildə Əbül Mənsur xanın ölümündən sonra Orta Cüz nominal olaraq onun oğlu Vəlinin hakimiyyəti altında idi, lakin Vəli heç vaxt bütün Cüz üzərində nəzarəti ələ keçirə bilməyib. Nizam-intizamı bərpa etmək cəhdi ilə Rusiya 1798-ci ildə qazaxlar arasındakı mübahisələri həll etmək üçün Petropavlovskda bir tribunal yaradır, lakin qazaxlar buna məhəl qoymur. 1817-ci ildə Vəlinin və 1818-ci ildə rəqibi Bukeyin ölümündən sonra Rusiya Orta Cüz xanlığını ləğv edir. 1822-ci ildə Rusiya əvvəllər Orta Cüz tərəfindən işğal olunan torpaqları Sibir qırğızlarının ərazisi adlandırmağa başlayır və bir sıra inzibati islahatlar tətbiq edir.

1827-1828-ci illərdə Kayip Əlinin Bukey Ordasına rəhbərlik etdiyi dövrdə Ural çayını keçməyə mane olan rus qarnizonuna qarşı qazaxların ilk ciddi müqaviməti və digər qarşıdurmalar baş verir. Hərəkat 1838-ci ilin iyul ayında yatırılır.

1837-ci ilə qədər Kenesarının rəhbərlik etdiyi Orta Cüzün bəzi tayfaları rus işğalçılarına qarşı müharibəyə başlayır. Kenesarı xan bütün Orta Cuz xalqını ruslara qarşı birləşdirməyə müvəffəq olur. Rusiya 1846-cı ildə Kenesarını təslim etmək üçün kifayət qədər qüvvə göndərdikdən sonra müharibə sonra çatır və o, 1847-ci ildə Kokand xanlığının qüvvələri ilə döyüşdə ölür.

Rusiyanın müstəmləkə siyasəti Qazaxıstan torpaqlarında rus hərbi qalalarının, çoxsaylı yaşayış məntəqələrinin və xarici hökmranlığın yaradılmasına gətirib çıxarır. Rusiya imperiyası yerli özünüidarəetməni, köçürmə siyasətini tətbiq edən bir sıra qanunlar qəbul edir ki, bu da çoxsaylı üsyanlara səbəb olur. Güclənən müqavimət hərəkatlarına Məxəmbet Utemişulı (1836–1838) və Eset Kotibarulı (1847–1858) kimi liderlər rəhbərlik ediblər.

Bu vaxt Böyük Cüz sarayı cənubdan Buxara əmirliyinin və Kokand xanlığının tərəfini tutur və Rusiya imperiyasının genişlənməsinə qarşı çıxır. XIX əsrin ikinci yarısında bütün Qazax xanlığının torpaqları üzərində tam rus hakimiyyəti qurulur, cənubda Ağ Məscid, Çimkənt, Auley-Ata və digər şəhərlər Rusiyanın imperiya ordusu tərəfindən ələ keçirilir.

**Kenesarı xan**

1841-ci ildə xan olan Abılay xanın nəvəsi, Qazax xanlığının son hökmdarı hesab edilən Kenesarı xan qazaxları sonuncu dəfə birləşdirmək məqsədilə Kiçik Cüz xanı Şerqazı Məhəmməd xanı və Böyük Cüz xanı Qubaidullah xanı məğlub edən sonuncu qazax xanı idi. Həmin il Ümumqazax Qurultayında Kenesarı bütün qazax nümayəndələri tərəfindən ali lider seçilib və tacqoyma mərasimi qazax xalqının ənənələrinə uyğun olaraq keçirilib. Hakimiyyət illərində və ondan sonra o, Qazax torpaqlarının ələ keçirilməsinə, Rusiya imperiyasının işğalçılıq siyasətinə müqavimət göstərən milli azadlıq hərəkatının lideri olub.


Qazax xanı Kenesarı xanın möhürü

19-cu əsrin ortalarında Qazax xanlığı Rusiya imperiyasının tam nəzarəti altına keçərək öz liderlərini seçmək hüququndan məhrum olmuşdular. Bütün vergi gəlirlərinə qazaxlar yox, ruslar nəzarət edirdi. Kenesarı xan 1847-ci ilə–ölən gününə qədər Rusiyanın imperiya qüvvələrinə qarşı mübarizə aparıb.

Rusiya imperiyasının getdikcə daha aqressiv və qəddar siyasətinə qarşı çıxan azad fikirli, mübariz və xalqın lideri Kenesarı xan düşmənə qarşı amansız bir hərbi strateq idi. 1846-cı ildə Kenesarı xanın müqavimət hərəkatı öz varlığını itirmək üzrə idi, çünki varlı həmfikirlərinin bəziləri rüşvət və böyük sərvət müqabilində Rusiya imperiyasının tərəf keçmişdilər.

1844-cü ilin fevral ayında rusların kazak qüvvələri Kenesarının kəndini ələ keçirir və bir neçə yüz nəfəri, həmçinin Kenesarının böyük arvadını əsir götürür, müqavimət göstərənlər öldürülür. Həmin ilin payızında ruslardan və kazaklardan ibarət hərbçilər yenidən Kenesarını axtarmağa göndərilir, onu tapa bilmədikdə günahsız bir kəndi tam olaraq yer üzündən silərək axtarışı davam etdirirlər.

1847-ci ildə Kenesarı xan şimali qırğız torpaqlarına hücum zamanı rusların köməyi ilə qırğız xanı Ormon xan tərəfindən ələ keçirilir, edam edilir, başı kəsilərək ruslara göndərilir. Bunun müqabilində Ormon xan ruslar tərəfindən böyük əmlak və rəsmi inzibati vəzifə ilə mükafatlandırılır.

Kenesarı xan Rusiya imperiyasının müstəmləkə sisteminə qarşı milli azadlıq hərəkatına rəhbərlik edən, xalq tərəfindən tanınan Qazax xanlığının sonuncu xanı idi.

Kenesarı xan üst-üstə 23 il həm xan, həm də ordu komandanı kimi ruslara qarşı müharibə aparıb, Xan Şurasını yaradıb, diplomatiyanı, Xan ordusunu, vergi sistemini qurub.

Və qaçaq yox, siyasi rəqib kimi öldürülüb.

Son on ildə Kenesarı xan Qazaxıstan ədəbiyyatında və mediasında milli qəhrəman kimi təqdim edilir. Qazaxıstanın paytaxtı Astanadakı Esil çayının sahilində Kenesarı xanın abidəsi ucaldılıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***
**Daşkənd**

# Sosial şəbəkədə əxlaqi və hüquqi məsuliyyət

## *Avstraliya və Çin modellərinin üstünlükləri*

**Bir vaxtlar "uşaqlıq dünyamız" oynadığımız küçələri, oyun meydançalarını əhatə edirdisə, indi bu sərhədlər, sadəcə, bir ekranla məhdudlaşıb. Hətta rəqəmsal era uşaqlığımızı da əlimizdən alıb desək, yanılmarıq. Hər nə qədər texnologiyanın inkişafının müsbət tərəfləri vurğulansa da, onun bərabərində gətirdiyi riskləri gözardı etmək olmaz.**



Yeni nəsil artıq smartfon ekranlarından gələn bildirişlər, sosial şəbəkələrdəki "like", "comment" və "share" anlayışları ilə böyüyür. Onlar üçün "Instagram" hekayələri, "TikTok" trendləri, "Snapchat" filterləri və "YouTube Shorts" gündəlik reallıq kimi qəbul edilir. Rəqəmsal məkan artıq uşaqlar üçün kimlik, sosial status məsələsinə çevrilir. Bir çoxları bunun fərqinə varmasa da, problem həyati risk həddinə çatıb. Məhz bu səbəbdən son illərdə dünyanın müxtəlif ölkələrində 16 yaşına qədər uşaqlar üçün sosial mediaya girişin məhdudlaşdırılması və ya tam qadağan edilməsi məsələsi dövlət siyasətinin prioriteti kimi müəyyənləşdirilib.

Sözsüz ki, bu qadağalar cəmiyyətin öz gələcəyini necə qorumaq istəyi ilə bağlı fundamental suallar doğurur. Maraqlıdır, uşaqları nə dərəcədə "qorumalı", nə vaxt "azad buraxmalı" və bu iki anlayış arasında hansı incə tarazlığı saxlamalıyıq? İlk növbədə vurğulanmalıdır ki, uşaqlar üçün sosial şəbəkələr onların özlərini necə gördüyünü, başqaları ilə münasibət qurma üsulunu, hətta dəyər anlayışlarını formalaşdırır. Alqoritmlər uşağın diqqətini cəlb etmək əvəzinə, onu mümkün qədər uzun müddət ekranda saxlamaq üçün işləyir. Erkən yaşda davamlı müqayisə, "bəyənilmə" ehtiyacı və virtual təsdiq asılılığı uşaqlarda özünəinam problemlərinə, sosial təcridə və emosional dalğalanmalara səbəb olur. Reallıqla virtual dünya arasında yaranan uçurum xüsusilə yeniyetməlik dövründə psixoloji gərginliyi artırır.

**ARAYIŞ:** Amerikalı psixoloq Con M.Tveng "Uşaqlar və yeniyetmələrdə sosial mediadan istifadə ilə depressiya arasında əlaqələr" adlı məqaləsində qeyd edir ki, 2010-cu ildən sonra yeniyetmələr arasında depressiya, narahatlıq və özünəqəsd düşüncələrinin artması məhz sosial şəbəkədən istifadənin kütləviləşməsi ilə paralel gedir. Onun digər arqumenti sosial medianın uşaqlarda daimi sosial müqayisə mühiti yaratmasıdır. Məhz bu səbəbdən uşaqlar və yeniyetmələr öz həyatlarını filtrdən keçmiş, idealizə olunmuş obrazlarla müqayisə etməyə məcbur qalırlar. Bu isə erkən yaşlarda özünüqiymətləndirmənin zəifləməsinə və daxili narazılıq hissinin dərinləşməsinə səbəb olur.

Sosial medianın daha təhlükəli tərəflərindən biri də kiberzorakılıqdır. Bir çox hallarda uşaqlar virtual məkanda təhqir, lağ obyektinə çevrilir, sosial təcrid riski ilə üz-üzə qalırlar. Ən narahatedici məqam isə odur ki, bu zorakılıq evin təhlükəsiz mühitində belə uşağı izləyir və fasiləsiz psixoloji təzyiq yaradır. M.Tveng bu cür təcrübələrin uzunmüddətli emosional travmalara səbəb ola biləcəyini vurğulayır. Bütün bunlarla yanaşı, sosial medianın uşaqlarda asılılıq yaradan mexanizmlər üzərində qurulması da xüsusi risk daşıyır. Daimi bildirişlər, mükafatlandırma sistemi uşaqların hələ tam formalaşmamış özünüidarə bacarıqlarını zəifledir. Nəticədə, real həyatda səbir, diqqət və emosional dayanıqlılıq tələb edən fəaliyyətlər cazibəsini itirir.

Qeyd etdik ki, bu səbəbdən bəzi ölkələrdə 16 yaşından kiçik uşaqların sosial mediaya girişinə qadağalar tətbiq olunur. Hazırda azyaşlıların sosial mediadan istifadəsinə ən sərt və açıq hüquqi mexanizmi tətbiq edən ölkələr Avstraliya və Çindir. Avstraliyada qəbul edilən qanunvericilik aktı sosial media platformalarını birbaşa məsuliyyət daşıyan tərəf kimi müəyyən edir. Yəni qadağa platformalara yönəlib. "Instagram", "TikTok", "Snapchat" və oxşar platformalar yaşı 16-ya çatmamış şəxslərin hesab açmasına imkan verməməli, buna nəzarət üçün texnoloji mexanizmlər qurmalıdır. Sosial mediaya sərt nəzarət mexanizmlərinin tətbiq olunduğu ölkələrdən digəri də Çindir. Burada Qərb sosial media platformaları, ümumiyyətlə, qadağandır. Yerli platformalar isə dövlət nəzarəti altında fəaliyyət göstərir. Uşaqlar üçün sosial media istifadəsi həm yaş, həm də zaman baxımından ciddi şəkildə məhdudlaşdırılıb. Çin modeli demokratik azadlıqlardan çox dövlət nəzarətinə əsaslanır və bir həqiqəti açıq şəkildə göstərir ki, sosial media artıq təhlükəsiz və neytral məkan kimi qəbul edilmir. Skandinaviya ölkələri də ənənəvi olaraq sosial siyasətdə balanslı və psixoloji rifaha əsaslanan model tətbiq edir. Norveç bu baxımdan diqqətçəkən nümunədir. Hökumət sosial mediaya dair "rəqəmsal razılıq yaşını" 13-dən 16-ya qaldırmağı rəsmi şəkildə təklif edib. Bu, o deməkdir ki, 16 yaşına qədər uşaqlar valideyn razılığı olmadan sosial şəbəkələrdən istifadə edə bilməyəcəklər. Cənubi və Qərbi Avropada da oxşar tendensiya güclənir. İspaniya sosial mediaya dair məhdudiyyətləri "rəqəmsal asılılıqdan qorunmaq" anlayışı çərçivəsində formalaşdırır. Burada əsas hədəf uşaqların sosial mediada üzləşdiyi psixoloji risklərin hüquqi mexanizmlərlə minimuma endirilməsidir. İrlandiya Avropa İttifaqının məlumatların qorunması siyasətini sərt tətbiq edən ölkələrdən biridir. Bu ölkədə 16 yaş rəqəmsal razılıq yaşı kimi müəyyən edilib və bu, sosial media platformalarının uşaqlarla bağlı məsuliyyətini artırır.

Beləliklə, sosial media ilə bağlı qəbul edilən qərarlar cəmiyyətlərin öz gələcəyi ilə bağlı verdiyi siyasi və mənəvi seçimlərə çevrilir. Bu seçim formalaşacaq insan tipini, ünsiyyət mədəniyyətini və sosial davranış modelini müəyyən edir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Yetkinlik yaşına çatmayanların zərərli informasiyalardan qorunması mövzusu media üçün həmişə aktual olub. Bu baxımdan azyaşlılarla bağlı yayılan məlumatlarda medianın necə davranmalı olduğunu ehtiva edən qaydalar həm jurnalistlərin etik kodeksində, həm də informasiya dövriyyəsinə aid olan qanunlarda əks etdirilib. "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Kodeksi"ndəki III Prinsip bu mənada xəbər istehsalçılarına istiqamət verir. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu da uşaqlarla bağlı informasiyalara xüsusi həssaslıqla yanaşmağı tələb edir. Həmin qanunda informasiya verilməsinin, xüsusilə yetkinlik yaşına çatmayan auditoriyanın zərərli informasiyalardan qorunması haqqında çox ciddi müddəalar mövcuddur. "Media haqqında" Qanunda məsələ daha konkretdir, aydın istiqamət verir. Amma bu qayda və qanunlar sosial şəbəkələr üçün nə dərəcədə keçərlidir? Problem bu mərhələdə başlayır. Əksəriyyət elə anlayır ki, qanunlar yalnız peşəkar media üçün nəzərdə tutulub. Çox təəssüf ki, peşəkar mediada bu məsələlər həssaslıqla yanaşılıb, nəzərə alınsa da, sosial media platformaları üzərindən yayılan informasiyalarda bu məsələlər nəzərə alınmır. Uşaqlar kifayət qədər zərərli informasiyalar almış olurlar. Düzdür, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunun 13-cü maddəsi yayılması qanunla məhdudlaşdırılan məlumatların "internet informasiya resurslarında yerləşdirilməsini" qadağan edir. Bu baxımdan, həmin maddənin dolayısı ilə sosial şəbəkə platformalarında yayılan uşaqlarla bağlı məzmuna da aidiyyəti vardır. Amma bu, birbaşa deyil, dolayı təsnifatdır və əksər sosial şəbəkə istifadəçiləri həmin boşluqdan istifadə edərək, uşaqlar üçün zərərli olan məlumatları sosial şəbəkələr üzərindən yayırlar. Hazırda mövcud olan bu qanun yalnız peşəkar medianı əhatə etdiyi üçün sosial şəbəkələrdə bu sahədə neqativlər üzə çıxır. Düşünürəm ki, sosial şəbəkələrin yaydığı məzmunda da uşaqların bu cür zərərli informasiyalardan qorunması haqqında qanunvericilikdə müəyyən düzəlişlərin edilməsinə ehtiyac var. Bütün bunları təkcə məktəbin, valideynin üzərinə yıxmaq olmaz. Hesab edirəm ki, bununla bağlı müəyyən ölçülərin götürülməsinin zamanı çatıb.

# Məlumat qaynağı, yoxsa "hazırcavab tələ"?

## *Arxası da kəsən bıçağa bənzər süni zəka*

**Süni intellekt artıq futuristik anlayışdan daha çox gündəlik həyatın görünməz, lakin aktiv iştirakçısına çevrilib. İnsanlar onu dərs oxumaqdan tutmuş, mətn yazmağa, məlumat toplamağa, hətta ünsiyyət boşluğunu doldurmağa qədər müxtəlif sahələrdə istifadə edirlər. Cəmiyyətdə bu müasir texnologiya ilə bağlı həm nikbin, həm də ehtiyatlı yanaşmalar formalaşıb. Məsələyə paytaxt sakinlərinin münasibətini öyrənmək məqsədilə sorğu keçirdik.**

**18 yaşlı Ülkər Cəfərlinin** fikrincə, müasir dövr artıq süni intellektsiz təsəvvür edilə bilməz. Onun sözlərinə görə, xüsusilə



gənclər bu texnologiyadan aktiv istifadə edirlər. Ülkər bildirdi ki, süni intellekt təhsil həyatında da insanlara ciddi köməklik göstərir: "Bu dəqiqə elə bir dövrdəyik ki, süni intellekt həqiqətən də həyatımızın böyük bir hissəsini təşkil edir. Xüsusilə gənclər, əsasən də mənim yaş dövrümdə olan gənclər süni intellektdən çox istifadə edir. Bizə həqiqətən bir çox mövzuda kömək olur. Uzun dərs materialları olanda onu qısaldıb oxumaq lazım gəlir. Əsas hissələrə vaxt çatmayanda süni intellekt bu mövzuda, sözün əsl mənasında, əlimizdən tutur".

Gənc əlavə etdi ki, qapalı, sosial çevrəsi zəif olan yeniyetmələr üçün də süni intellekt bəzən psixoloji dayaq rolunu oynayır: "Bəzən elə uşaqlar olur ki, onlar çox sosial olmurlar, daha qapalı olurlar və dərdləşməyə, danışmağa, sirlərini bölüşməyə, yaxud hansısa bir mövzuda kömək istəyəcəkləri insanlar tapmayanda süni intellektə müraciət edirlər. Dərdləşirlər, danışırlar, kömək alırlar. Nə qədər qəribə səslənsə də, çox ciddi məsələlərdə belə süni intellektin köməyinə ehtiyac duyuruq". Ülkər hesab edir ki, bu texnologiyadan istifadə etməyənlər də artıq ondan yararlanmalıdırlar.

**33 yaşlı Mahir Hüseynlinin** yanaşması daha fərqlidir. Müsahibimizin sözlərinə görə, süni intellekt informasiya əldəetmə



mexanizmini köklü şəkildə dəyişib: "Süni intellekt hazırda həyatımızın, demək olar ki, bütün sahələrinə daxil olur. Təbii ki, bunun müsbət və mənfi tərəfləri var. Müsbət tərəfləri ondan ibarətdir ki, biz süni intellekt vasitəsilə daha çox ümumiləşdirilmiş məlumatlar əldə edə bilirik. Yəni bir məlumatı axtararkən, müxtəlif mənbələrdən toplanmış informasiyanı ümumiləşdirib yekun nəticə almaq olur. Bu da bir mənbədən qısa, lakin dolğun məlumat əldə etməyə imkan yaradır".

Mahir Hüseynli qeyd etdi ki, süni intellekt təkcə mətn sahəsi ilə məhdudlaşmır, eyni zamanda, vizual materiallar, elmi və texniki istiqamətlərdə də geniş tətbiq olunur. O, mənfi tərəf kimi insanların araşdırma vərdişlərinin zəifləməsini göstərərək bildirdi: "Süni intellektdən istifadə bu gün üçün mütləqdir. Amma eyni zamanda insan çalışmalıdır ki, öz təcrübəsindən, bilik və bacarıqlarından da istifadə edərək əldə etdiyi ümumiləşdirilmiş məlumatları süzgəcdən keçirsin. Çünki hazırda məlumat kirliliyi var və əldə etdiyimiz informasiyaların hamısı real olmur. Biz əldə etdiyimiz məlumatları real məlumatlarla uyğunlaşdırmalı, korreksiya edib daha doğru olanını seçməliyik".

**31 yaşlı Fatimə Mövlanova** isə süni intellektlə ilk tanışlığın "ChatGPT" adla-



nan "çat-bot" vasitəsilə başladığını bildirdi. Onun qənaətinə görə, bu sahə sürətlə inkişaf edir və artıq süni intellekt əsaslı assistentlər, video və kreativ məhsullar meydana çıxır. Fatimə Mövlanova hesab edir ki, texnologiyanın həm müsbət, həm də mənfi tərəfləri var: "Mən isə daha çox pozitiv tərəfdən yanaşıram. Çünki necə ki, bıçaqla həm xeyirli, həm də zərərli iş görmək olar, süni intellekt də belə bir alətdir. Onu düzgün istifadə etsək, çox faydalı layihələrin, yaxşı işlərin yaranmasına səbəb ola bilər".

**21 yaşlı Eltun Alıyev** şəxsi təcrübəsinə əsaslanaraq bildirdi ki, süni intellekt onun həm təhsilində, həm də iş fəaliyyə-



tində mühüm rol oynayır. Elektron müraciətlərin ünvanlanması, mətnlərin tərtibi, düzəlişlər, illüstrasiyaların hazırlanması bu texnologiya vasitəsilə xeyli asanlaşıb. Eltun qeyd edir ki, hazır cavablara əlçatanlıq insanın düşünmə vərdişlərinə təsir göstərə bilər, lakin müsbət tərəflər daha çoxdur: "Gələcəkdə süni intellektin bir çox peşələri əvəz edəcəyi, bəzi sahələrdə iş imkanlarının azalacağı ehtimalı var. Amma bütün bunlara baxmayaraq, süni intellektin çox faydalı bir vasitə olduğunu əminliklə deyə bilərəm. Xüsusilə dərslərimizi hazırlayarkən, yeni mövzular öyrənərkən, xarici dil biliklərimizi inkişaf etdirərkən mənə ciddi köməklik göstərir".

**39 yaşlı Cavid Timoşenko** dedi ki, süni intellekt müasir insanın informasiya ilə münasibət modelini köklü şəkildə də-



yişdirdi və bu dəyişikliklərin mərkəzində məhz operativlik amili dayandı. Onun sözlərinə görə, əvvəl hər hansı mövzu üzrə məlumat əldə etmək üçün kitabxanaya getmək, müxtəlif mənbələri axtarmaq, vaxt sərf etmək lazım gəlirdi, bu gün isə süni intellekt vasitəsilə istənilən məlumat bir neçə saniyə ərzində əldə olunur. Paytaxt sakini bildirdi ki, bu sürətlilik xüsusilə təhsil, iş fəaliyyəti və gündəlik qərarvermə proseslərində ciddi rahatlıq yaradıb.

Müsahibimiz qeyd etdi ki, texnologiyanın bu üstünlüyü, eyni zamanda, müəyyən riskləri də özü ilə gətirir. Onun fikrincə, informasiyanın bu qədər asan və sürətli əldə edilməsi insanların araşdırma vərdişlərinə mənfi təsir göstərir, onların daha passiv həyat tərzinə uyğunlaşmalarına səbəb olur: "Artıq sual yaranan kimi kitab axtarmaqdansa, telefon əlimizdə olur və birbaşa oradan cavab ala bilirik".

Bu tendensiyanın zamanla düşünmə və təhliletmə bacarıqlarını zəifldə biləcəyini bildirən Cavid Timoşenko, buna baxmayaraq, süni intellektin cəmiyyət üçün yaratdığı ümumi mənzərəni daha çox müsbət qiymətləndirdi. Onun qənaətinə görə, düzgün istifadə edildiyi halda, bu texnologiya insanların bilik əldəetmə imkanlarını genişləndirir və informasiyaya çıxışı daha demokratik və əlçatan edir.

Beləliklə, paytaxt sakinlərinin mövqeləri göstərir ki, süni intellekt artıq cəmiyyətin texnoloji həyat tərzinin əsas komponentinə çevrilib. O, bəziləri üçün bilik mənbəyi, bəziləri üçün ünsiyyət aləti, bəziləri üçün isə iş prosesini sürətləndirən mexanizmdir. Onun cəmiyyətə uzunmüddətli təsirinin hansı istiqamətdə formalaşacağını isə zaman müəyyən edəcək.

***T.SADIQOV,***
***N.ELDARQIZI***
***Fotolar: C.QAÇAYEV***
***XQ***

# Göygöldə faydalı məşğulluq və fəal istirahət

**"AzerGold" QSC-nin Korporativ Sosial Məsuliyyət (KSM) Komitəsinin üzvləri Göygöl rayonunda yerli sakinlərlə ötən ilin son görüşünü keçiriblər. Rayon icra hakimiyyətinin dəstəyi ilə təşkil olunan tədbirdə Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, "AzerGold" QSC İdarə Heyətinin üzvləri və şirkətin məsul əməkdaşları iştirak ediblər.**

Görüşdə hazırda "AzerGold" QSC tərəfindən hasilat işləri aparılan "Tülallar" qızıl mədəninin yaxınlığında yerləşən Tülallar və Zurnabad kəndlərinin sakinləri təmsil olunub. Tədbir çərçivəsində şirkətin regionda həyata keçirdiyi sosial-iqtisadi layihələr, məşğulluğun artırılması və əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov çıxış edərək "AzerGold" QSC-nin rayon ərazisində icra etdiyi layihələrin sosial-ictimai və iqtisadi baxımdan mühüm əhəmiyyət daşıdığını vurğulayıb, bu istiqamətdə görülən işləri yüksək qiymətləndirərək şirkət rəhbərliyinə təşəkkürünü bildirib.

"AzerGold" QSC İdarə Heyətinin üzvü, sədrin müavini, KSM Komitəsinin sədri Xəyyam Fərzəliyev "Tülallar" qızıl mədəninin istismara verilməsinin bölgədə yeni iş yerlərinin yaradılmasına və yerli əhalinin məşğulluğunun təmin olunmasına mühüm töhfə verdiyini qeyd edib. O bildirib ki, şirkətin fəaliyyəti nəticəsində 158





nəfər Göygöl rayon sakini daimi işlə təmin olunub.

Görüş zamanı cari il ərzində uğurla icra edilən sosial yardım aksiyaları, aqrar təsərrüfatların inkişafına dəstək layihələri, maarifləndirmə tədbirləri, ətraf mühitin mühafizəsi və digər istiqamətlər üzrə görülmüş işlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda vətəndaşların müraciətləri dinlənilib, irəli sürülən təklif və təşəbbüslər müzakirə olunub. Sakinlər tərəfindən qaldırılan məsələlərin araşdırılması və "AzerGold" QSC-nin səlahiyyətləri, eləcə də mövcud qanunvericilik çərçivəsində həll edilməsi məqsədilə qeydiyyata alındığı bildirilib.

Qeyd olunub ki, hədəf qruplarına yönəlmiş sosial təşəbbüslər çərçivəsində yerli icmalarla ənənəvi görüşlərin təşkili növbəti illərdə də davam etdiriləcək.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

*Həkim məsləhəti*

# Sağlamlığın aynası – zəruri müayinə

**Hazırda həkimlər əksər xəstəliklərin yaşdan asılı olmayaraq, gəncləşdiyini bildirirlər. Hansı tibb müəssisəsinə yolun düşürsə, uzun növbələrə şahid olursan. Doğrudur, bu hal ölkəmizdə icbari tibbi sığortanın tətbiqindən sonra daha geniş şəkil alıb. Çünki maddi imkana bağlı aztəminatlı ailələr üçün bəzi müayinələrə əlçatanlıq yaranıb. Mütəxəssislər hər kəsə ildə bir dəfə "chek–up" müayinədən keçməyi tövsiyə edirlər.**

"Chek–up" müayinə xəstə olmayan insanların sağlamlıqlarını vaxtaşırı yoxlamaq, xəstəliklərin erkən mərhələdə aşkar edilməsi və qarşısının alınması üçün aparılan tibbi müayinə kompleksidir. Şikayəti olmayan bütün yaş qrupları üçün ildə bir dəfə olunması məsləhət görülən skrininq xidmətidir. Düşünəndə ki, indi 18–20 yaşında olan gənc də, 50–60 yaşlı insan da eyni xəstəliklərlə üzləşir, onda "chek–up" müayinə olunmaq barədə düşünməli olursan. Amma məsələ ondadır ki, yaşlı və gənc iki insanın müalicəsi və sağalması zamanca fərqli olur. Gənc orqanizm müalicəyə daha tez reaksiya verir və tez sağalır. Yaşlı insanlarda isə bu proses çox ləng gedir və müalicə bəzən müsbət nəticə vermir.



**Görəsən, 60 yaşdan sonra insana hansı müayinələr vacibdir? Bu sualla tibb elmləri doktoru, səhiyyə eksperti Yazgül Abdıyevaya müraciət etdik. Həkim bəlli yaşdan sonra hər kəs üçün ehtiyac duyulan müayinələrdən söz açaraq bildirdi:**

– Bu məsələdən danışanda ortaya çox geniş bir siyahı çıxır. Elm adamları apardıqları tədqiqatlara və təcrübələrə əsaslanaraq belə nəticəyə gəlmişlər ki, 60 yaşdan sonra potensial xəstəlikləri erkən aşkar etmək üçün müntəzəm olaraq hərtərəfli müayinələrdən keçmək vacibdir. Belə olan halda, bir suala cavab vermək məcburiyyətində qalırıq: Görəsən, onlarca testdən keçmək həqiqətən vacibdirmi, yoxsa müayinə və sağlamlıqla bağlı daha ağlabatan bir yanaşma var? Bəlkə bütün orqanları MRT müayinəsindən keçirmək daha məqsədəuyğundur?

***– Siz belə düşünürsünüz?***

– Demək olmaz ki, tamamilə o fikirdəyəm. Belə düşunmək üçün əvvəlcə əsas konsepsiyanı aydınlaşdırmağa dəyər. Tibbi müayinə sadəcə "hər ehtimala qarşı" test, analiz deyil, bu, ciddi xəstəlik və ölüm riskini azaltmağa yönəlmiş elmi, tibbi cəhətdən etibarlı və spesifik testlər, analizlər dəstidir. Uzunmüddətli tədqiqatlarla belə nəticəyə gəlinib ki, 60 yaşdan yuxarı insanlar üçün sübuta əsaslanan tibbin əsas tövsiyələri bir neçə əsas sahədə ümumiləşdirilə bilər.

***– Bunlar hansı sahələrdir və müayinələr necə aparılır?***

– Öncə onu deyə bilərəm ki, bunlardan biri və vacibi kolorektal xərçəng müayinəsidir. Bu müayinəni aparmaq üçün kolonoskopiya və ya daha az invaziv ifrazatda gizli qan testi istifadə olunur. Bu testlər problemləri ən erkən, çox vaxt simptomlar müsahidə edilməyən mərhələdə aşkar etməyə imkan verir.

Növbəti müayinə ürək-damar risklərinin (qan təzyiqi, şəkər, xolesterol) monitorinqidir. Bu göstəricilərin müntəzəm monitorinqi infarkt, insult və diabetin qarşısını almağa kömək edə bilər. Məsələn, ürək və damar xəstəlikləri həmişəki kimi ölümün əsas səbəblərindən biri olaraq qaldığı üçün sadəcə, qan təzyiqini ölçmək ən əlçatan monitorinq üsuludur.

Qlükoza (şəkər) və xolesterol testləri 40 yaşdan yuxarı hər kəs üçün hər il aparılmalıdır. Qan təzyiqi ildə ən azı bir dəfə həkim tərəfindən, risk faktorları mövcud olduqda isə mütəmadi olaraq evdə ölçülməlidir.

***– Bu müayinə testləri hər iki cinsə aiddir?***

– Hər iki cinsdə, amma fərqli şəkildə aparılır. Qadınlar üçün bu yaşda mammoqrafiya məsləhət görülür. Bu, süd vəzi xərçənginin erkən aşkarlanması üçün əsas üsuldur. Bir çox Avropa ölkələrində bu test ümumi təcrübəçi rezidentin göndərişi ilə onkoloji müayinə proqramının bir hissəsi olaraq mövcuddur. Bizdə isə xərçəngə şübhə əlamətləri müşahidə edildikdə bu müayinə tövsiyə edilir. Bundan başqa, servikal xərçəngin müayinəsi (sitologiya və HPV yaxması) aparılır. Bu test, həmçinin onkoloji müayinə proqramına daxildir. Bu, insan papilloma virusu (HPV) tərəfindən törədilən xərçəngönü dəyişiklikləri müəyyən etməyə kömək edir.

30 ilə 65 yaş arasında müayinə tezliyi nəticələrdən asılıdır. Müayinədə HPV aşkarlanmazsa, hər 5 ildən bir test aparmaq kifayətdir. Amma analizlərdə HPV müsbət olarsa, test hər il və ya həkimin tövsiyəsi ilə fərdi qaydada aparılır. 65 yaşdan sonra isə göstəriş olmadan belə, həmin müayinə testi aparılır.

Kişilərdə isə PSA (prostata spesifik antigen) testi universal deyil və əsasən, aşkar şikayətləri olmayan kişilərdə ilkin diaqnoz üçün uyğun hesab edilir.

Bundan başqa, Sümük Densitometriyası (Sümük Sıxlığının Qiymətləndirilməsi) müayinəsi aparılır. Bu diaqnostik metod osteoporozu, sümüklərin kövrəkləşdiyi və sınıq riskinin artdığı bir vəziyyəti aşkar edir. Avropada bu test yüksək risk qruplarındakı bütün qadınlar (məsələn, az çəki, kalsium və D vitamini çatışmazlığı və ya erkən klimaksla üzləşənlər) və kişilər üçün fərdi göstərişlərə uyğun olaraq tövsiyə olunur.

***– Bəs hansı testlərin aparılmasına ehtiyac yoxdur?***

– Doğru sualdır. Bəzi testlər var ki, onların "hər ehtimala qarşı" aparılması, adətən, faydalı deyil və yalançı həyəcan siqnallarına, lazımsız təkrar müayinələrə və resursların israfına səbəb ola bilər. Bunlardan biri aydın tibbi göstərişlər olmadan bütün bədənin və ya fərdi orqanların MRT müayinəsidir. Bundan başqa, xəstəlik olmadığı təqdirdə, tez-tez ümumi qan testləri (məsələn, aylıq) vermək də məsləhət deyil. Bəzən insanlar özlərində hər hansı narahatlıq hiss edən kimi xərçəngin ilkin müayinəsi üçün şiş markerləri (məsələn, CEA, CA–125 və s.) üçün qan testləri verirlər. Bu yolverilməzdir. Çünki həmin müayinələrin cavabı alınana qədər insanın keçirdiyi hiss, həyəcan onun səhhətinə təsir edə bilər. Eyni zamanda, həkim məsləhəti olmadan mikroelementlərin və hormonların (D vitamini, ferritin, tiroid hormonları və s.) dərin təhlilinə də ehtiyac yoxdur. Nə qədər desək ki, erkən diaqnoz müalicənin başlıca şərtidir, amma elm və aparılan tədqiqatlar onu sübut edir ki, həkim tövsiyəsinə mütləq əməl etmək, müayinələrə yalnız ehtiyac olarsa, onun göstərişi ilə getmək lazımdır.

***Müsahibəni yazdı:***
***Zərifə HÜSEYNOVA***
***XQ***

# "Üzeyir Hacıbəyli mükafatı" müsabiqəsi

**Dahi bəstəkar, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi münasibətilə təsis edilmiş "Üzeyir Hacıbəyli mükafatı"nın təqdim edilməsi ilə bağlı müsabiqə uğurla yekunlaşıb.**




Mədəniyyət Nazirliyi və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının təşkilatçılığı ilə müsabiqə iki mərhələdə keçirilib. Seçim zamanı ekspert komissiyası namizədlərin peşəkar fəaliyyətini, bilik-bacarıqlarını qiymətləndirib və yüksək göstəriciləri olan iştirakçıları müəyyənləşdirib.

Müsabiqədə Bakı şəhəri və respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən musiqi, incəsənət məktəb və mərkəzlərində çalışan 66 müəllim namizəd iştirak edib.

I mərhələnin qaliblərinin açıq dərslərinin videoyazılarına baxış keçirilib və yekun qərar verilib.

19 müəllim müsabiqənin qalibi elan edilib. Onlar "Üzeyir Hacıbəyli Mükafatı"na layiq görülərək həm pul mükafatı və diplomlarla təltif ediləcəklər.

Qeyd edək ki, dahi Üzeyir Hacıbəylinin 140 illik yubileyi çərçivəsində keçirilən bu müsabiqə musiqi və incəsənət təhsili sahəsində çalışan müəllimlərin peşəkarlığının təşviqi, yaradıcı potensialının üzə çıxarılması və milli musiqi irsinin gələcək nəsillərə ötürülməsi məqsədi daşıyıb.

***XQ***

# Media Ana dilinin fəal keşikçisidir



**Dünən Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin 2026-cı ildə ilk iclası keçirilib.**

Toplantını giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid bildirib ki, Prezident İlham Əliyev ötən il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş yığıncaqdakı çıxışında ana dilimizin qorunmasının vacibliyini vurğuladı. O rəhbərlik etdiyi qurumun noyabrın 7-də bununla bağlı Medianın İnkişafı Agentliyi ilə birgə "Mediada Azərbaycan ədəbi dilinin normalarının düzgün tətbiqi" mövzusunda konfrans keçirdiyini xatırlatdı.

Şura sədri qeyd edib ki, İdarə Heyətinin 2025-ci ildə keçirilmiş son iclasında da Prezident İlham Əliyevin fikirlərindən irəli gələn məsələlər müzakirə edildi və müvafiq olaraq Mətbuat Şurasının Dil Komissiyasının tərkibi yenidən formalaşdırıldı.

Dövlət başçısı yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində ana dilimizin qorunması məsələsinə daha geniş yer verdi.

MŞ sədri qurumun dil komissiyasının bu gün keçiriləcək genişləndirilmiş iclasında Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərlə bağlı daha geniş müzakirənin aparılacağını, konkret fəaliyyət istiqamətlərinin müəyyənləşdiriləcəyini vurğuladı. Bundan əvvəl isə İdarə Heyəti mütəxəssislərin dil komissiyasında təmsilçiliyi məsələsinə baxmalıdır. R.Məcid namizədlərin adlarını açıqladı və onların komissiyaya üzvlüyü təsdiqləndi.

***

Həmin gün Mətbuat Şurası dil komissiyasının genişləndirilmiş iclası keçirildi. Komissiya sədri, "APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızı bildirib ki, formalaşdırılan heyət dövlət başçısının dilimizin qorunmasının vacibliyinə dair tələbini cavablandıran fəaliyyəti hədəf seçib. Komissiyanın işinin daha səmərəli qurulması üçün onun tərkibinə dilçi alimlər və mütəxəssislər cəlb olunub.

Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli, dil komissiyasının üzvləri – Bakı Dövlət Universitetinin professorları Qulu Məhərrəmli, Tofiq Hacıyev, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, əməkdar artist Nərgiz Cəlilova, AMEA Dilçilik İnstitutunun şöbə müdiri, dosent Rasim Heydərov, İTV telekanalının aparıcısı Vüsalə Məmmədova, "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu, Mətbuat Şurası İdarə Heyətinin üzvləri Müşfiq Ələsgərli və Yeganə Hacıyeva media məkanında ana dilindən istifadə sahəsindəki pozuntularla bağlı xarakterik tendensiyalara diqqət çəkib, belə halların aradan qaldırılması üçün sistemli monitorinqlərin aparılmasının, onların nəticələrinin cəmiyyətə çatdırılmasının vacibliyi, habelə, jurnalistlərə konkret dil xətalarının əksini tapdığı tövsiyə mətnlərinin ünvanlanmasının əhəmiyyəti üzərində dayanıblar.



***Qabil YUSİFOĞLU***
***XQ***

*Günün sualı*

# Sərnişindaşımada "ağıllı" idarəetmə niyə susub?

## *Monitorlar işləmir, sərnişinlər isə məlumatsız qalıblar*

**2011-ci ildən etibarən Bakı və ətraf rayonlarda nəqliyyatın intellektual idarəetmə sisteminə keçid başlanıb. İctimai nəqliyyatın vəziyyətini nizamlı və müasir səviyyəyə qaldırmaq məqsədilə bir sıra yeniliklər tətbiq olunub, dayanacaqlarda "ağıllı" monitorlar quraşdırılıb. İlk baxışda bu ekranlar texnoloji tərəqqi və müasir urban mədəniyyətinin nümunəsi kimi görünür.**

Lakin sərnişinlər onlara yaxınlaşdıqca, bu ilkin təsəvvür pərən-pərən düşür. Ekranlar çox vaxt qaranlıq, donmuş, üzəri illərin tozu ilə örtülmüş, köhnəlmiş vəziyyətdədir. Nə avtobusun gəlişi bəlli olur, nə də onun hansı marşrut üzrə hərəkəti. Sərnişin bu "ağıllı" qurğudan heç bir cavab ala bilmir.

Əslində bu monitorlar bəzək üçün deyil. Dövlət hesabına quraşdırılmış "intellektual nəqliyyat sistemi"dir. Onlar ictimai asayişi nizamlamalı, sərnişinlərin rahatlığına xidmət etməli, vaxt baxımından qeyri-müəyyənliyini aradan qaldırmalıdır. Amma sözün əsl mənasında, səssiz-səmirsiz dayanıblar. Şəhər sakinləri də bu monitorların yararsız vəziyyətə düşməsindən gileylənirlər.

**Xalidə BAĞIROVA,**
**Bakı sakini:**



– İllər öncə bu monitorlar quraşdırılanda çox sevinmişdik. Monitorların işləməməsi yaşlılar üçün lap çətindir. Çünki gənclər mobil telefonlarla avtobusun gediş-gəlişi izləyə bilirlər, amma biz yaşlılar onu bacarmırıq.

**Cahid HƏSƏNZADƏ,**
**Bakı sakini:**



– Mən 2 aydır ki, Bakıya köçmüşəm. Demək olar ki, bütün avtobus dayanacaqlarında elektron lövhələrə rast gəlirəm. Amma təəssüf ki, heç biri işləmir. Ya sərnişinlərdən, ya da sürücülərdən soruşmalıyam ki, bu avtobus hara gedir? Bir neçə dəfə dayanıb gözləmişəm, sonra öyrənmişəm ki, səhv dayanacaqdayam. Amma lövhələr işləsə, nə vaxt itirər, nə də səhv dayanacaqda gözləyərik.

**Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı bildirdi ki, ümumiyyətlə, bu qurğuların uzunmüddətli istifadəsi mümkün olmayıb:**



– Bu monitorlar keçmiş Nəqliyyat Nazirliyi (red. Hazırda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi) tərəfindən ölkəyə gətirilib. Lakin qısa müddət sonra məlum oldu ki, onların istismara yararlılığı ciddi sual altındadır. Monitorlar bir çox ölkələrdə, məsələn, Avropa və Amerikada artıq ikinci və üçüncü dərəcəli texnologiya hesab olunur, praktik istifadəsi isə məhduddur.

Yaşlı və texnologiyaya az bələd olan sərnişinlər üçün isə monitorların işləməməsi daha ciddi problem yaradır. Onlar uzun müddət dayanacaqlarda gözləməli olur, məlumat əldə edə bilmirlər. Problem yalnız monitorların işləməməsi deyil, bəzi avtobus dayanacaqlarında, hətta ən sadə məlumat lövhələri də yoxdur.

Sərnişin dayanacağa yaxınlaşanda hansı avtobusun buradan keçdiyini öyrənə bilmir. Belə vəziyyət həm də inzibat planlaşdırma problemi hesab olunur.

İndiki vəziyyətdə həmin monitorları işə salmaq da sərfəli deyil. Onları atmaq lazımdır. Mövcud texniki infrastruktur sıfırdan yeni sistem qurmaqla daha effektiv və iqtisadi cəhətdən sərfəli şəkildə əvəz edilə bilər. Müasir mobil tətbiqlər və süni intellekt əsaslı sistemlər bu problemi əhəmiyyətli dərəcədə həll edir və sərnişinlər üçün daha əlverişli və təhlükəsiz mühit yaradır. Yeni texnologiyalar, xüsusilə mobil tətbiqlər və süni intellekt əsasında hazırlanmış nəqliyyat izləmə sistemləri, sərnişinlərə avtobusların marşrutunu, keçid vaxtlarını dəqiq və rahat şəkildə təqdim edir. Sadəcə müəyyən tədbirlər həyata keçirməklə çalışmalıyıq ki, hər kəs bundan faydalana bilsin.

**"BakuBus" MMC-dən XQ-yə bildirildi ki,** qurumun istismarında olan bütün avtobuslarda dayanacaqların səsləndirilməsi sistemi mövcuddur və bu sistemin fasiləsiz işləməsi sərnişinlərin marşrut üzrə rahat hərəkəti baxımından vacib hesab olunur. Lakin bəzi hallarda sistemin fəaliyyətində texniki səbəblərdən qısamüddətli fasilə yarana bilər. Belə hallarda problem dərhal həll oluna bilməsə də, sürücülər avtobusu depoya təhvil verərkən mövcud nasazlıq barədə mexanikə məlumat verirlər. Məlumat əsasında dərhal texniki xidmət göstərilir və problem qısa müddətdə aradan qaldırılır. Sistemlərin fasiləsiz işləməsi üçün davamlı monitorinq və texniki nəzarət həyata keçirilir.



Amma avtobus dayanacaqlarında quraşdırılmış intellektual monitorların idarə olunması və istismarı "BakuBus" MMC-nin yox, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) səlahiyyətlərinə aiddir.

**Bu səbəbdən problemi ətraflı və dəqiq öyrənmək üçün Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə müraciət etdik.** Qurumdan verilən məlumata görə, paytaxtın müxtəlif ərazilərindəki dayanacaqlarda quraşdırılan avtobus informasiya terminalları illər öncə problem yaşandığından hazırda işləmir.

Sərnişinlərə göstərilən xidmət keyfiyyətinin artırılması və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə AYNA tərəfində innovativ həllər tətbiq olunur. Belə ki, bu ötən ilin sonlarında "AYNA MaaS" tətbiqi istifadəyə verilib. Tətbiq səmərəli səyahəti və istifadəçilərə nəqliyyat növlərindən istifadə ilə bağlı seçim imkanlığını təmin etmək və ictimai nəqliyyat xidmətlərini təkmilləşdirmək üçün nəzərdə tutulmuş mobillik proqramıdır.

Bu rəqəmsal nəqliyyat platforması müxtəlif nəqliyyat növlərini (avtobus, metro, dəmiryolu, skuter, velosiped) vahid tətbiqdə birləşdirir. Platforma istifadəçiyə bir tətbiq vasitəsilə müxtəlif nəqliyyat növləri arasından ən uyğun marşrutu seçməyə, səfər planlamasını həyata keçirməyə, ödəniş üsulları, real vaxt rejimində qrafik və nəqliyyatın gəlmə vaxtı barədə məlumat əldə etməyə imkan verir. Tətbiqə Bakı şəhərində fəaliyyət göstərən bütün mikromobillik operatorları da inteqrasiya edilib.

"AYNA MaaS" vasitəsilə "Nəqliyyat" bölməsindən dayanacağı seçərək yaxınlaşan nəqliyyat vasitələrini real zamanda görmək mümkündür. Tətbiqdə nəqliyyat qrafiki və mövcud vasitələr barədə məlumatlar daim yenilənir. Tətbiq nəqliyyat növləri arasında problemsiz keçidi təmin edir, gözləmə vaxtını minimuma endirir.

Eyni zamanda, sərnişinlərin ictimai nəqliyyatla bağlı məlumatları rahat şəkildə əldə edə biləcəyi "Map AYNA" sistemi də yenilənib və funksionallığı daha da artırılıb. İctimai nəqliyyat barədə rəqəmsal informasiyalar ayna.gov.az internet resursunda "Avtobus marşrut xətləri" başlığı altında yayımlanmaqdadır. Hazırda platforma vasitəsilə sərnişinlər seçdikləri dayanacaq məntəqəsi, həmin dayanacaqdan keçməklə fəaliyyət göstərən marşrutların daşıyıcısı, hərəkət sxemi, tarifi və dayanacaqları haqqında məlumat əldə edə bilərlər.

Mövcud problemlər göstərir ki, doğru planlama, məsuliyyətli yanaşma və müasir texnologiyaların məqsədyönlü tətbiqi ilə "bu avtobus hara gedir?" sualına vaxtında və tam doğru cavab tapmaq mümkün olacaq.

***Fidan ƏLİYEVA***
***XQ***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 05 (30974) 10 yanvar 2026-cı il, şənbə

## İDMAN

### Atçılıq Federasiyasının hesabatı



**Azərbaycan Atçılıq Federasiyasında 2025-ci ilin yekunlarına həsr olunmuş tədbir keçirilib.**

Dövlət Sərhəd Xidmətindən verilən məlumata görə, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın ölkəmizdə idmanın inkişafına göstərdiyi dəstəyi xüsusi vurğulayan federasiyanın prezidenti Elçin Quliyev ötən il əldə olunan uğurlar və bu il üçün qarşıya qoyulan məqsədlər barədə danışıb.

Gənclər və idman naziri Fərid Qayıbov federasiyanın 2025-ci il ərzində fəaliyyətini yüksək qiymətləndirərək göstərilən diqqətə görə təşəkkürünü bildirib.

Federasiyanın baş katibi Emil Seyidov 2025-ci il üzrə fəaliyyətlər, 2026-cı ilin hədəf və planları barədə yekun hesabatla çıxış edib.

Daha sonra əldə olunan nailiyyətlərə görə fərqlənmiş şəxslərə və komandalara mükafatlar təqdim edilib.

### Qazax Azərbaycanın “İdman paytaxtı”dır




**Qazax şəhəri 2026-cı il üçün Azərbaycanın “İdman paytaxtı”dır. Bu barədə qərar 2024-cü il dekabrın 16-da Gənclər və İdman Nazirliyinin kollegiya iclasında keçirilmiş səsvermənin nəticəsinə əsasən qəbul edilib.**

Dünən Azərbaycanın “İdman paytaxtı”nın loqosu təqdim edilib. “İdman paytaxtı”nın loqosunda Qazaxın rəmzlərindən olan Göyəzən dağı və Dilbaz atı təsvir edilib. Layihənin şüarı da Qazaxın idman ruhunu və dinamizmini ifadə edir: “Qazax – hərəkətə qoşul!”

Layihə üçün hazırlanan maskotda isə gənc idmançı Qazaxa xas aşıq sənətinin rəmzi olan sazla əks olunub. “İdman paytaxtı” layihəsinin şüarı və maskotu süni intellekt vasitəsilə hazırlanıb.

Xatırladaq ki, “İdman paytaxtı” statusunu 2024-cü ildə Quba, 2025-ci ildə isə Qəbələ daşıyıb.

### Dağ xizəyi turnirinin mükafatçıları



**Azərbaycan Qış İdmanı Növləri Federasiyası (AQNİF) və “Şahdağ” Turizm Mərkəzinin birgə təşkilatçılığı ilə Qusarda keçirilən “Azerbaijan Open” beynəlxalq dağ xizəyi turnirində ikinci günün mükafatçıları müəyyənləşib.**

AQNİF-yə verilən məlumata görə, Beynəlxalq Xizək Federasiyasının (FIS) təqviminə uyğun təşkil olunan yarışın ikinci günündə idmançılar slalom növü üzrə mübarizə aparıblar.

Gərgin keçən yarışın yekununda İsveçrə təmsilçisi Nikita Anner birinci, qazaxıstanlı Dalel Talkunova ikinci, gürcüstanlı Nino Tklauri isə üçüncü yeri tutub.

İdmançılar sabah qiqant slalom növündə mübarizə aparacaqlar.

Turnir yanvarın 11-də başa çatacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

### ALLAH RƏHMƏT ELƏSİN!

Xidmət və Sənaye İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyinin sədri Fuad Ələkbərov və aparat işçiləri Gəncə şəhərində fəaliyyət göstərən “Azəralüminium” MMC-nin istehsalat üzrə rəhbəri

**CƏMİL SƏFƏROVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

*Təqvim yada salır*

# Vüqar Həşimovsuz 12 il

## *Unudulmaz qrossmeysterin şah əsərləri– Bakı “Qran-pri”si və Novi Sad qızılları*

**2014-cü il yanvarın 11-də istedadının sürətlə çiçəkləndiyi, zərgər dəqiqliyi ilə ölçülüb-biçilmiş gedişlərlə şahmat dünyasını mat qoyduğu bir vaxtda, cəmi 27 yaşında həyata vida etmiş Azərbaycan idmanı tarixində ən görkəmli şəxsiyyətlərdən biri qrossmeyster Vüqar Qasım oğlu Həşimovun sabah anım günüdür. Dərin hörmət və ehtiramla yad edirik.**

Artıq 12 ildir ki, əbədiyyətə qovuşmuş Vüqar hələ çox gənc olmasına baxmayaraq, dünya şahmatında şərəfli bir yol keçib, dərin iz buraxmağı bacarmışdı. Onu təkcə vətəni Azərbaycanda deyil, qədim və müdrik oyunun ən yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə də sevir, ünvanına ürəkdən gələn xoş sözlər söyləməyə xəsislik etmirdilər. Azərbaycan şahmatının yetirməsi mükəmməl oyunu və nəcib insani keyfiyyətləri ilə şahmat aləminin sevimlisinə çevrilmişdi.

Dünya şahmatının nəhəngləri hindistanlı Vişvanatan Anand, bolqar Veselin Topalov, norveçli dahi Maqnus Karlsen, rusiyalı Vladimir Kramnik və daha neçə-neçə parlaq zəka sahibi Vüqarla görüşlərdən, dostluqdan, ünsiyyətdən böyük zövq alır və bu barədə həmişə, hər yerdə ona rəğbətlə söhbət açırdılar.

İstər şəxsi turnirlərdə, istərsə də komanda şəklində bir çox mötəbər beynəlxalq yarışda uğurla çıxış etmiş unudulmaz qrossmeysterin iki böyük qələbəsi şahmat ictimaiyyətimizin daha çox yadında qalıb. Həşimovun 22-23 yaşlarına təsadüf etmiş həmin



nailiyyətləri hər biri silinməz tarixdir və çox geniş əks-səda doğurmuşdu.

Beynəlxalq Şahmat Federasiyasının (FİDE) “Qran-pri” yarışlarının növbəti mərhələsi 2008-ci ilin baharında Bakıda keçirilirdi. Turnirin mükafatları uğrunda “meydan” sahibləri Vüqar Həşimov, Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov və onların qonaqları rusiyalılar Aleksandr Qrişuk, Pyotr Svidler, Ernesto İnarkiyev, ukraynalı Sergey Karyakin, Van Yue (Çin), Maykl Adams (İngiltərə), Maqnus Karlsen (Norveç), İvan Çeparinov (Bolqarıstan) və çexiyalı David Navara mübarizə aparırdılar.

Turnir Həşimovun möhtəşəm zəfəri ilə əlamətdar oldu. Qrossmeysterimiz Yue və Karlsenlə eyni nəticə göstərdi (hərəyə 8 xal), amma daha yaxşı əlavə göstəricilərə görə birinci yeri tutub, yarışın baş mükafatını qazandı. Əksər mütəxəssislərin təəccübünə səbəb olan bu qələbə beynəlxalq miqyasda Vüqarın çox böyük uğuru idi. Ona “Qran-pri”nin baş mükafatının doğulub, boya-başa çatdığı şəhərdə təqdim olunması isə bu zəfərə xüsusi məna verirdi.

Qrossmeysterlərin Bakı sammitindən bir il sonra, 2009-cu ilin payızında Serbiyanın Novi Sad şəhərində təşkil edilən Avropa komanda çempionatı da unudulası yarış deyil. Millimizin tarixdə ilk dəfə qitə çempionu olub, Novi Saddan “bir dəst qızıl gül” ilə qayıtmasında həlledici sözü məhz Həşimov demişdi. Sonuncu turda Niderland komandası ilə matçda ikinci taxtada Vüqarın Daniel Stelvagen ilə uzun çəkən ağır görüşdə qələbəsi qızıl medalların taleyini millimizin xeyrinə həll etdi (2,5:1,5). Bununla da Vüqar Həşimov, Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Rauf Məmmədov və Qədir Hüseynovdan ibarət Azərbaycan komandası Avropa çempionatları tarixində ilk dəfə ən yüksək zirvəni fəth etdi.

Bakı və Novi Sad zəfərləri Vüqar Həşimovun şah əsərləri idi. Yaşasaydı, Azərbaycana daha neçə-neçə qələbə və medal sevinci bəxş edəcəkdi... Ruhu şad olsun!

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

*Sağlamlıq*

# 40 yaşdan sonra arıqlamağı beyin necə qəbul edir?



**Müasir dövrdə sağlam həyat tərzi, düzgün qidalanma və ideal çəki anlayışı cəmiyyətin əsas müzakirə mövzularındandır. Xüsusilə 40 yaşdan sonra bir çox insan həm sağlamlıq, həm də estetik səbəblərlə arıqlamağa çalışır. Həkimlər artıq çəkinin ürək-damar xəstəlikləri, şəkərli diabet və oynaq problemləri yaratdığını tez-tez vurğulayırlar. Lakin son illər mütəxəssislər arasında başqa bir sual da gündəmə gəlir: 40 yaşdan sonra sürətli və nəzarətsiz arıqlamaq beyin sağlamlığı üçün risk yarada bilərmi?**

İsrailin Negev bölgəsində yerləşən Ben-Qurion Universitetinin alimləri bu mövzu ilə bağlı yeni və diqqətçəkən nəticələr əldə ediblər. Tədqiqat “GeroScience” jurnalında dərc olunub. Alimlər piylənmənin və sonradan arıqlamanın müxtəlif yaş qruplarından olan siçanların orqanizminə təsirini araşdırıblar. Nəticələr göstərib ki, çəkinin azalması həm gənc, həm də orta yaşlı siçanlarda maddələr mübadiləsini yaxşılaşdırıb. Qanda qlükoza səviyyəsi normallaşıb ki, bu da arıqlamağın metabolik sağlamlıq üçün faydalı olduğunu təsdiqləyir.

Lakin beyinlə bağlı nəticələr daha mürəkkəb olub. Orta yaşlı heyvanlarda hipotalamus nahiyəsində iltihab artıb. Hipotalamus iştahanın, enerji balansının və hormonal tənzimləmənin əsas mərkəzlərindən biridir. Məhz bu sahədə yaranan iltihab alimlərdə narahatlıq doğurub.

Məlumdur ki, beyin iltihabı yaddaşın zəifləməsi, idrak qabiliyyətinin azalması və Alzheimer xəstəliyi kimi neyrodegenerativ xəstəliklərin inkişaf riski ilə əlaqələndirilir. Tədqiqatda müşahidə edilən iltihabi proses bir neçə həftə davam edib və yalnız bundan sonra tədricən azalmağa başlayıb. Uzunmüddətli təsirləri hələ tam öyrənilməsə də, bu cür reaksiyanın özü alimləri ehtiyatlı olmağa çağırır.

Digər elmi araşdırmalar göstərir ki, orta və yaşlı dövrdə sürətli və kəskin arıqlama əzələ itkisinə və hormonal balansın pozulmasına da səbəb ola bilər. Beyin sağlamlığı üçün omeqa-3 yağ turşuları, B qrup vitaminləri və antioksidantlarla zəngin qidalar xüsusi əhəmiyyət daşıyır. Mütəxəssislər qeyd edirlər ki, uzunmüddətli stres və sərt pəhrizlər beyin toxumasında iltihabi prosesləri gücləndirə bilər.

Tədqiqatın müəllifləri vurğulayırlar ki, artıq çəkisi olan orta yaşlı insanlar yenə də arıqlamalıdır. Ancaq bu proses düşünülərək tədricən aparılmalıdır. Sadəcə kalorini kəskin azaltmaq və ya qidalanmanı birdən-birə dəyişmək düzgün yanaşma deyil. Ən vacibi, pəhriz zamanı orqanizmin, xüsusilə də beynin bu dəyişikliklərə necə reaksiya verdiyini diqqətlə izləməkdir.

Bəzi elmi araşdırmalar isə yaşlı dövrdə həddindən artıq arıqlamanın demensiya riskinin artması ilə əlaqəli ola biləcəyini də istisna etmir. Bundan əlavə, aclıqla müşayiət olunan pəhrizlər stres hormonlarının artmasına səbəb olur. Xroniki stres isə beyində sinir əlaqələrinə mənfi təsir göstərərək zehni performansı zəiflədə bilər. Həkim və ya dietoloq məsləhəti ilə aparılan arıqlama prosesi isə həm bədən, həm də beyin üçün təhlükəsiz sayılır. Belə yanaşma zehni aydınlığı qoruyur, yaddaşı gücləndirir və yaşla bağlı beyin dəyişikliklərinin qarşısını qismən də olsa alır.

Nəticə olaraq deyə bilərik ki, 40 yaşdan sonra arıqlamaq tərəzidəki rəqəmlərlə ölçülən sadə bir proses deyil. Bu, orqanizmin bütün sistemlərinə, xüsusilə də insanın düşüncə mərkəzi olan beyinə birbaşa təsir edən həssas bir mərhələdir. Arıqlama sağlamlığa xidmət etmədikdə, sağlamlıq arıqlamanın qurbanına çevrilə bilər. Beyin isə səhvləri bağışlamayan orqandır – o, aclıqdan, balanssız qidalanmadan və stresdən ilk zərər görənlər sırasındadır.

Bu yaş dövründə əsas sual “neçə kilo arıqladım?” deyil, “bədənim və beynim bu dəyişiklikdən nə qazandı?” olmalıdır. Elmi əsaslara söykənən, tədricən və məsuliyyətlə aparılan çəki azaldılması yalnız fiziki yüngüllük deyil, zehni aydınlıq, emosional sabitlik və uzunömürlü sağlamlıq deməkdir. Sağlam bədən sağlam beyinlə tamamlanır və bu tarazlıq qorunduğu halda arıqlamaq risk deyil, əksinə, insanın özünə verdiyi ən dəyərli sərmayəyə çevrilir.

***Nurəngiz ADİLQIZI***
***XQ***

## HAVA

# Aranda yağış, dağda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır.**



Lakin yanvarın 9-dan 10-na keçən gecə və axşam bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi axşama doğru mülayimləşəcək. Havanın temperaturu gecə 5-7, gündüz 8-11 dərəcə isti olacaq. Atmosfer təzyiqi 752 millimetr civə sütunundan 761 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 80-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntıların intensivləşəcəyi ehtimalı var. Axşam qərb rayonlarından başlayaraq tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 8-12 dərəcə isti, dağlarda gecə 2-7 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

Ü N V A N I M I Z:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2773
SİFARİŞ 15
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00